HÜSEYN ARİF

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

"ŞƏRQ-QƏRB"
BAKI-2004

*Bu kitab "**Hüseyn Arif.** Xatırla məni" (Bakı, Yazıçı, 1999) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır*

Ön sözün müəllifi: ***Camal Mustafayev***

**894.3611 - dc 21**
**AZE**
**Hüseyn Arif. Seçilmiş əsərləri.** Bakı, "Şərq-Qərb", 2004, 224 səh.

Tanınmış şair Hüseyn Arifin poeziya aləmi mövzu baxımından genişdir. Onun təbii və canlı dili ilə seçilən əsərlərində həyatın öz nəfəsi duyulur. Məhz buna görədir ki, Hüseynin şeirləri cox zaman mahnı mətninə çevrilmişdir.

Kövrək ruhlu, zərif duyğulu, incə deyimli ifadələr, gözlənilməz bədii sonluqlar, şairin yaradıcılığına xas olan poetik lövhələr, şeirlərin dadlı-duzlu dünyası oxucu yaddaşında silinməz izlər buraxır, insanın mənəvi aləminə bir təzəlik və təravət gətirir.

Təbiət mövzusunda yazdığı və əksərən fəlsəfi ümumiləşdirmələrlə sona yetirdiyi əsərləri ilə şair bizi ana təbiəti duymağa, qorumağa, doğma torpağın qədrini bilməyə çağırır.

Hüseyn Arifin seçmə əsərlərinin toplandığı bu kitabdakı şeirlərin də başlıca mövzusu saf insani duyğular, el-oba sevgisi, sülh və əmin-amanlıq arzulardır.

**ISBN 9952-418-22-9**

© "ŞƏRQ-QƏRB", 2004

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

## HÜSEYN ARİF ŞERİNİN CAZİBƏSİ

Xal şairi Hüseyn Arif şerimizə öz parlaq istedadı ilə gəldi. Ona şairlik şöhrəti gətirən, əlbəttə, fitri istedadı oldu. Şairin əzəl ustası, tapındığı müqəddəslik – onun ilham pərisidir: yaradıcı bədii xəyal odur. Ancaq hər ilham pərisi özündə fərdi səciyyə daşıyır. Bunu onun doğurduğu bədii təcrübə əsasında bilmək olur. Sənətdə bu fərdiliyi gerçək səciyyələndirmək əslində xüsusilə zəruridir.

Hüseyn Arifin bədii xəyalı əzəli qüvvətini təbiətdən, zəngin folklordan, ulu sazdan aldı. Onun şeir üslubunun ana xətti – sadə bədii gözəllik bu saf qaynaqdan gəlirdi.

Ruhumuzun abi-həyatı olan bu başlanğıcla ayrılmaz bağlılıq – şerinin məhək daşına çevrildi. Burdan hafizəsinə nəqş edilən təsəvvürlər, həqiqətlər onun yaradıcı axtarışında yeni tərzdə mənalandı. Yaradıcılığında ibrətamiz hikmətli sözlər, fikirlər diqqəti özünə çəkdi.

Hüseyn Arif şair fərdiliyini hələ gənclik illərində tanıtdı. Ədəbi həyata gələndə artıq zamanın sərt sınağından çıxmışdı. 1941-45-ci illər savaşında erkən gənclikdən vuruşmuş, qalibiyyətlə dönmüşdü. Ömrünün bu illərini zaman-zaman şeirlərində qürurla xatırlayırdı:

Gəlib gözlərimin keçir önündən,
Sinəmi qabağa gərdiyim günlər.
Əynimdə boz şinel alov içindən
Fırtına qoynuna girdiyim günlər.

Yatmadıq atəşdən atəşə qədər,
Sədası torpaqdan günəşə qədər,
Qırx birinci ildən qırx beşə qədər
Döyüşdə imtahan verdiyim günlər.

Sellər-sular kimi qaynayıb-daşar,
Dastanlar yaradıb, mahnılar qoşar,
Canlı xatirəyə çevrilib yaşar,
Bir vaxt gözlərimdə gördüyüm günlər.

Müharibə mövzusunda yazdığını bəzi kitablarında "Cəbhə şeirləri" başlıqlı bölmədə xüsusi təqdim edirdi. Burada müharibənin doğurduğu sarsıntılarla yanaşı, vətənpərvərlikdən, fədakarlıqdan, qələbəyə inanmaqdan, qələbədən söz açırdı.

Müzəffər ordu ilə Qərbə irəlilədiyini fikrində canlandırırdı. Ancaq qalib əsgər kimi Elba sahilində foto şeir yaza-yaza çəkdirib:



Şəklimə baxıram əlimdə qələm
Əsgər paltarında dayanmışam tək.
Elba sahilində, yaş iyirmidir
Şəklimə baxıram, əlimdə qələm
Gözümün önündə başqa bir aləm
Doğma Bakıdayam yaş qırxa gedir.

Bununla hər şəraitdə ilham pərisinə sadiq qaldığını bildirdi. Şair savaş meydanında döyüşlər ara verəndə ilhamına sığınırdı: şeir yazmaqla qəlbini isidirdi. Məhvedici dəhşətləri gözlərilə görsə belə, ürəyi dilə gələndə sevgi şeri yazmağı da unutmurdu. Bu səhnəni təsəvvür etmək üçün "İtən şeir"ini oxuyaq:

Cəbhədə şeir yazdım,
Dizimin üstündə mən.
Sonra itirdim mən.
Tufanlı bir gündə mən.

Kim tapdı, kimə qaldı,
Sual da qəribədir?..
Bilən varım davada
Bir parça kağız nədir?!

Gənclik ürək sözünü
Hər yerdə, hər vaxt deyir.
Sevgidən söz açırdı
Səngərdə dinən şeir.

Hüseyn Arif müharibədən sonra yaradıcılığını dinc quruculuq dövrünün həyatını əks etdirməyə yönəltdi. Xalqın qurub-yaratmaq qayğıları ilə yaşadı, əmin-amanlığı, sülhü, məhəbbəti tərənnüm etdi. Poeziyasında ayrı gözəllik daşıyan lirik örnəklər nəğmələrə, mahnılara çevrildi, məclislərdə, şənliklərdə oxundu.

Hüseyn Arifin "Mən sülhə səs verirəm", "Şeir deyilmi" nəğmələri daha geniş yayıldı. Səid Rüstəmovun musiqisində birinci nəğməni Bülbül, ikincini Gülağa Məmmədov əla məlahətlə oxuyurdular.

Şairin bədii axtarışında xüsusən poemaları diqqəti özünə çəkdi. "Məhəbbət poeması"nda gözəl poetik təsvirlə gənclərə təmiz sevgi, ailəyə bağlılıq duyğuları aşıladı. "Yolda" poeması isə onun poeziyasında ayrıca mərhələ oldu. Bu əsər Səməd Vurğunun ömür yolundan bəhs edir. Əsərdə Vurğun surəti əvvəlcə Vaqif poeziyasının böyük davamçısı kimi maraqlı təsvir edilir. O, öz məşhur sələfinin ənənəsini vüsətli idrakı ilə zirvəyə ucaltmış bir sənətkardır. Azərbaycan torpağına, sadə zəhmət adamına, doğma vətənin taleyinə hər zaman mənən bağlıdır. Səməd Vurğuna bəslənən dərin el məhəbbətinin çeşidli təzahürləri poemada canlı əksini tapır. Xalqımızın yaddaşına onun həmişəlik nəqş edilməsi həqiqəti vurğulanır:

El üçün yaşayıb yazan sənətkar
Elin bircə gün də çıxmaz yadından.

Əsərdə Vurğun şerinin, şəxsiyyətinin yüksəliş yolları, eyni zamanda əsassız tənqidlə üzləşməsi göstərilir, "Aygün" poemasına qarşı böhtan dolu hücumdan danışılır.

Elə zənn etməyin yer üzündə siz
Hamardır şairin keçdiyi yollar.
Sakit görünsə də çox zaman dəniz,
Orda çovğun da var, fırtına da var...

Səməd Vurğuna qarşı hücumların əsas hiyləli niyyəti – şeirdə milli ənənənin inkarına yönəlmişdi. Bu hiyləli niyyət təkcə "Aygün"ün tənqidi ilə bitmirdi. Şeirə xalq həyatından, el ruhundan gələn təbii sadəlik bəzən qərəzli tənqiddə açıqca kiçildilirdi. "Muğan" poemasında bu xüsusda Vurğunun öz sözləri var: "Kosmopolit tənqidçilər ömrü boyu dandı məni", – deyə açdığı söhbət çoxumuzun hafizəsində saxlanıb. Onu "saz üstündə şeir quran çoban şairi" adlandıranlara Vurğun mərdanə cavab verirdi:

" – Bəli, – dedim, – saz üstündə!..
Lakin onun mənasını,
Vətənimin, millətimin qəhrəmanlıq dünyasını
Simfoniyalar lisanilə öz evimdə ötmüşəm mən,
Vaşinqton salonları keçməmişdir ürəyimdən.
Sizin kimi nökər olub yad ocağı qalamadım,
Vətənimin vüqarı tək vüqarlıdır mənim adım..."

Səməd Vurğunu inkar edənləri onun özündən sonra Hüseyn Arif kəskin tənqidə uğratdı. O, həmin inkarın mahiyyət etibarilə nihilist niyyət daşıdığını bildirirdi:

Nihilist yatmayıb əli varaqda
Nələr uydururdu, nələr deyirdi
Lakin öz qadını başqa otaqda
"Aygün"dən parçalar əzbərləyirdi.

Hüseyn Arif "Yolda" poemasında əslində Səməd Vurğunu xalqın mənəvi simvolu kimi səciyyələnirdi. O özü Vurğunun şair varisi olduğunu yenidən təsdiqlədi. Zaman irəlilədikcə bu tükənməz mövzunun daha dərin açılacağına ümid bəsləməklə poemanı bitirmişdi:

Çoxdur açılmamış incə nöqtələr,
Xalq əziz oğlunu hey anacaqdır.
Vurğunun haqqında ən böyük əsər
Hələ indən belə yaranacaqdır.



Sonra Hüseyn Arif "Dilqəm" poeması yazmağı niyyət etdi. Məqsədini gerçəkləşdirmək üçün aşıq poeziyasının tarixi keçmişini araşdırdı. Əslində adı Yəhya bəy olmuş, amma nakam məhəbbətin Dilqəm etdiyi aşığın ağrılarını yaşadı. Şairin başladığı bu poema kədərli bir hekayətə çevrildi. Ona qədər şerinə xas olmayan qəm motivləri gətirdi. Demə, bu onu gözləyən dəhşətli kədərdən xəbər verirmiş. Poema yazılanda oğlu Arif gəncliyinin çiçəklənən illərini yaşayırdı. Ancaq əsər bitməmişdən Arifin gənc ömrü yarımçıq qaldı. Şair bu böyük dərdini şeirlər silsiləsində izhar etdi. Saysız dərdmənd insanlar bu sarsıdıcı qəmə şərik oldular. Bundan sonra Hüseyn Arif şerndə qəmli motivlər güclәndi. Taleyin sərt hökmü ilə şərtlənən bu vəziyyəti şeirinin səciyyəsi kimi düşündü:

Arif gedən gündən Hüseyn adlı
Bir kədər şairi gəldi dünyaya.

"Natəvan" poemasını Arifin xatirəsinə həsr etdi; taleyində Natəvan taleyinə bir bənzərlik aradı. Özünün üzüntülü əhvalını şeirdə bölüşməklə onu yüngülləşdirmək istədi. "Xüsusən poetik yaradıcılıq, – deyir Hegel, – bizi əzən hisslərdən azad etmək qabiliyyətinə malikdir..."

Hüseyn Arif öz altmış illiyini ömrünün belə sarsıntılı keçən zamanında qarşılamalı oldu. "Yaş altmışdır" başlıqlı şerində keçdiyi yolları, öz taleyini müdrik düşüncələrində yenidən mənalandırdı. Ömrün sevincli, kədərli anlarını xatirədə yaşadı; nəticə etibarilə, həyata inam hissini ucaltdı.

Hüseyn Arif yaradıcılığının əzəli qaynaqlarından biri təbiət idi. Doğma Azərbaycan təbiətinin möhtəşəm gözəlliyinə vurğunluq – onun poeziyasında çeşidli bədii təcəssümünü tapıbdır.

Ana torpağın şeriyyət dolu aləmini şair öz poetik taleyinin şərti kimi anladırdı:

Deyirlər: arabir şerimin səsi
Çəməni, çiçəyi gətirir yada.
Deyirlər: vaxt olur könül nəğməsi
Tufanı, şimşəyi gətirir yada.
Zəriflikdə güləm, sərtlikdə qaya,
Yoluma qar düşüb, şəfəq çilənib.
Deyirlər: gələndə mən bu dünyaya
Bülbül də oxuyub, qartal da dinib.

Hüseyn Arif təbiətdə gözəlliklər ahənginə sadəcə bir zövq mənbəyi olaraq baxmaqla məhdudlaşmırdı. Bir-biri ilə qarşılıqlı şərtlənən həmin ahəngi – varlığı yaşadan məqsədəuyğun qanun təsəvvür edirdi. Onun "Təbiət düşünür" şerində söylədiyi kəlam belə səslənir:

Gəlin təbiəti biz də düşünək,
O özü hər şeyi düşünən kimi!

Təbiət aşiqi, məşhur rəssamımız Səttar Bəhlulzadəyə ithaf etdiyi şeirini bu sözlərlə bitirdi:

Ana təbiətin əkiz oğluyuq,
Bizim qüdrətimiz təbiətdədir.

Hüseyn Arif təbiəti təsvir edəndə bəzən həqiqətən bir rəssam kimi onu canlandırır. "Şeir deyilmi" – buna gözəl örnək olaraq göstərilə bilər. Bu şeri şair qələmi, bəstəkar notları, rəssam fırçası bir vəhdətdə birləşəndə yaradıb. Yazın surətini daşıyır əsərdi bu, onda yaz himni çalınır. Onun hər sətrinə bahar nəfəsi, təbii poeziya aşılanıb. Poeziyada musiqi, şeirdə mənzərə rəsminin nümunəsidir bu əsər. Hüseyndə olan nadir mənzərə yaddaşı əsərə xüsusi kolorit verir. Burada rəsm edilən neçə parçanı kətana köçürmək olar...

Sənətdə təbiilik anlamının, real gözəllik hissinin təbiət başlanğıcından gəlməsi burda əyani görünür. Xalq ruhunun təbii qaynaqları, milli xarakterin ilk əsasları əslində bu başlanğıca bağlıdır. Bunun üçün şair sövq-təbii olaraq ona meyllidir. Sonsuz çoxçeşidli canlı həyatın ana təməlini burda arayır. Bu zəmində şerin özünün sonsuz mövcud olacağına inandırır:

Kim deyir şerin meydanı dardır;
Sonu görünməyən bir ilk bahardır.
Necə ki həyat var, şeir də vardır,
Həyatın nəfəsi şeir deyilmi.

Həyata inamla poeziyaya inamı vəhdətdə duymaq – sənətkarın üstünlüyüdür. "Həqiqi sənətkar üçün harada həyat var, orada poeziya da var".

Hüseyn Arif təbiəti bu qədər sevdiyi üçün onu çox qayğıkeşliklə qorumağa çağırırdı. Şairin fikrincə, təbiət ona zülm edənlərdən öc alır; bunun aqibəti dəhşətli olur. Şairin bu ruhda düşüncələri bu gün ekoloji tərbiyə üçün nə qədər ibrətamizdir!

Hüseyn Arif şairliklə yanaşı, Azərbaycan Aşıqlar Birliyinin rəhbəri vəzifəsində səmərəli fəaliyyət göstərirdi.

Dədə Qorqud yadigarı bu ulu sənətin oyanışı həm də onun adına bağlıdır. Sazlı-sözlü dünyamıza qovuşdu onun öz şair varlığı:

Çox verib imtahan Hüseyn Arif,
Çağlar zaman-zaman Hüseyn Arif,
Getməz qulaqlardan Hüseyn Arif,
Son aşıq sazını çalana qədər...

***Camal Mustafayev***





## AZƏRBAYCAN

Odlar yurdu şölə saçır,
Sönməz odu, alovu var.
Gündüzlər nur saçır Günəş,
Gecələr çilçırağı var.

Dosta möhkəm sədaqətli,
Qoynu bahar təravətli,
Beynəlmiləl təbiətli,
Bir diyardır Azərbaycan.

Boy atdıqca ildən-ilə,
Nəsillər verir əl-ələ,
Hünər dolu günləriylə
Bəxtiyardı Azərbaycan.

Öz odundan alovlanan,
Gələcəyə qanad çalan,
Milyon qışı yola salan
İlk bahardı Azərbaycan.

Bir nəğmədi, bir şeirdi,
Dinəndə Vurğun deyirdi,
Füzulidi, Üzeyirdi,
Şəhriyardı Azərbaycan.

Ocaq çatdım, odu, közü
Nəfəsilə alışdırıb
Babək ocaq çatan yerdə.
Qara batdım
Dava günün
Mərd Cavanşir
dizə qədər qara,

Buza batan yerdə.
Ay üzümə baxıb getdi,
ulduzlar da axıb getdi
Uyumadım, tək dan atdım
Giziroğlu şeşpərini atan yerdə.
At oynatdım,
Ağzı köhlən ağzı kimi
Qartalların qıy vurduğu
köpüklənən,
Selin, suyun qudurduğu.
Qoç Koroğlu, sınaq üçün
Qıratı oynadan yerdə.
Sevinci kədərə qatdım
Əli qanlı yağıları
Kərəm, Nəbi
Bir-birinə qatan yerdə.

Ürək sağlam, ayaq möhkəm,
Öz kökümün üstündəyəm,
Yatanda da yatacağam
Babalarım yatan yerdə.

Qəlbi dağlar baş-başadır.
O Şəkidir, bu Şuşadır,
Doğrudan da tamaşadır
Başdan-başa Azərbaycan.

Saf vicdanın, saf ürəyin,
Unudulmaz duz, çörəyin,
Hər məsləkin, hər diləyin
Varsın başa Azərbaycan.

Baxdım ana torpağıma
Aranıma, yaylağıma,
Min səs gəldi qulağıma
– Yaşa,
Yaşa, Azərbaycan!



**AZƏRBAYCANIN**

Axdı qulağıma dan söküləndə
Çoban bayatısı Azərbaycanın.
Üfüq qızaranda, Günəş güləndə
Başqadır səfası Azərbaycanın.

Aranı dolaşdım, dağı dolaşdım.
Bu yurddan, o yurda neçə yol açdım.
Qışın çilləsində zirvələr aşdım
Başımda sevdası Azərbaycanın.

Hər odlu sinədə bir geniş ürək
Öpdüm balaları balalarımtək.
Nə qədər mənimlə kəsdi duz-çörək
Cavanı, qocası Azərbaycanın.

Çaylar dərələrdən şütüyüb gedir,
Sellər palıdları döyüb titrədir.
Ürkək maralların görüş yeridir
Yamyaşıl talası Azərbaycanın.

Çölləri, düzləri çiçək-çiçəkdir,
Hər çiçək bir çeşid, bir təzə rəngdir.
Xınalar, boyalar içində təkdir
Xınası, boyası Azərbaycanın.

"Çiçi", "Pirəbədil" dillər əzbəri;
Toxudu xalqımın öz gözəlləri.
Gəzdi ölkələri, gəzdi elləri
İpəyi, atlazı Azərbaycanın.

Babalar zövqlə yaratdı, getdi,
Dəmiri qaynadıb, misi əritdi,
Şərqi heyran qoyub, Qərbi mat etdi,
Bəzəkli dolçası Azərbaycanın.

Tək deyil Nizami, o böyük insan,
Nəsimi ömrü də bir canlı dastan.
Çıxıb əsrlərin imtahanından
Yüz sənət ustası Azərbaycanın.

Füzuli həsrəti tutdu aləmi,
Yaşadı Vaqifin sevinci, qəmi,
Könülsüz könüllər fəth edərdimi
Qəzəli, qoşması Azərbaycanın?

Azmı göydən yerə od ələnibdir.
Şadlıq sükut edib, kədər dinibdir.
Bir dövrün hökmüylə bəstələnibdir
Bir ana laylası Azərbaycanın.

Daşlar naxış-naxış qaralı, ağlı,
Naxışlar necə də qollu-budaqlı.
Bir qalın kitabdı sirli, soraqlı
Hər qədim qayası Azərbaycanın.

Güllər alışdıqca ulduzlar kimi,
Şırşırlar oxuyur nəğməkar kimi.
Durur babalardan yadigar kimi
Cavanşir qalası Azərbaycanın.

Qəzəbi tufandır, sevinci dəniz.
Vicdanı boyasız, eşqi ləkəsiz.
Günəşlə yaşıddır, gündüzlə əkiz
Həyat simfoniyası Azərbaycanın.

Döyüşdə büdrəyib cəngdə pozulmaz,
Girsə hər meydana tək də pozulmaz.
Çətində boşalıb, bərkdə pozulmaz
Qardaşlıq dünyası Azərbaycanın.

Cəfər səhnəmizin zinəti oldu,
Üzeyir musiqi şöhrəti oldu.
Vurğun qələminin qüdrəti oldu,
Nəriman – dühası Azərbaycanın.



Başıma qaxıncmı, başımın dəni?..
Ağrılar, acılar sarsıtmaz məni.
Hələ indən belə yüz il Hüseyni
Yaşadır havası Azərbaycanın.

## AZƏRBAYCANIN SİMFONİYASI

Yaş ötdükcə tələsirəm
gəzmək üçün, görmək üçün.
Zirvədəki qar qalağı,
Dərədəki çisək üçün.
Gah yadıma göy taladan
ürküb çıxan maral düşür.
Gah qayada uçmaq üçün
qanad açan qartal düşür.
Mən də uçmaq istəyirəm,
yeri, göyü bir nəfəsə
Öpüb qucmaq istəyirəm.
Meşələri ağac-ağac,
ağacları budaq-budaq
Şəhərləri küçə-küçə.
Küçələri bina-bina
gəzib görmək istəyirəm.
Bura aran, ora yaylaq
Xəyalımda eniş-yoxuş, yaxın-uzaq.
Azərbaycan – Odlar yurdu,
Azərbaycan – ana torpaq.
Yaş ötdükcə tələsirəm
Tarixlərin
dərininə, dayazına
dalmaq üçün,
Əsrlərin sinəsindən
Keçdiyimiz yola, izə
Dönüb nəzər salmaq üçün.
Tariximiz sirlə dolu.
Hələ onun açılmamış

neçə-neçə düyümü var.
Deyilməmiş yüz söhbəti,
Duyulmamış min sevinci,
min qəmi var.
Oxumağa tələsirəm
babaların tarixini
kitab-kitab, varaq-varaq.
Azərbaycan – Odlar yurdu,
Azərbaycan – ana torpaq.
Nələr çəkdin
zaman-zaman
əl dalınca uzandı əl.
Yadlar gəldi qoşun-qoşun,
Seçilmədi yazın, qışın.
Zəlzələdən dağılantək
Dağıldı kənd, batdı şəhər,
Pozuldu bənd,
Yandı çəpər.
Alov yağdı göydən yerə
Axşam-axşam, səhər-səhər.
Səngərlərdə gəlib keçdi
ayın, ilin.
Əl dalınca uzandı əl,
Daşıdılar sərvətini,
Yad ellərə karvan-karvan.
Zaman-zaman
vaxtsız ölüm,
vaxtsız əcəl,
Vaxtsız xəzan...
Soldu çəmən, saraldı bağ.
Köks ötürdü
yana-yana
Bacı, qardaş,
Ata, ana, oğul, uşaq.
Azərbaycan – Odlar yurdu,
Azərbaycan – ana torpaq
Çəkilməmiş bədənindən



Pompeylərin sızıltısı
Sasanilər vurdu yara.
Neçə qanlı müsibətlər
Nizələrlə həkk olundu qayalara.
Çapdı sağı, çapdı solu
yad atlılar.
İz üstündən açıldı iz,
Yol üstündən çəkildi yol
Sınadıqca yarağını
İran,
Turan,
Ərəb,
Monqol.
Dəvəlilər, qatırlılar,
Qurd nəfəsli yad atlılar.
Kaman çəkib ox atdılar.
Neçə başı çiyinlərdən
qopartdılar.
Gah o yandan, gah bu yandan
Ox atdılar.
çox atdılar.
Tariximiz sirlə dolu.
Əzəl, axır –
Yazılanlar yazılacaq,
Azərbaycan – Odlar yurdu,
Azərbaycan – ana torpaq.
Ox atdılar,
Çox atdılar
Gah o yandan, gah bu yandan
Ancaq yenə
sadiq qaldı xilqətinə,
izzətinə, hörmətinə,
İtirmədən ləyaqəti,
insanlığı, nəzakəti
Ağsaqqallı dədə-baba,
ağ birçəkli nənə-ana.
Unutmadı, itirmədi

Üzündəki təbəssümü,
Qəlbindəki hərarəti.
Gizləmədi atlı gələn
qonağından
arpasını, samanını.
Gizləmədi xəstə gələn
qonağından
Öz sonuncu saxlancını,
dərmanını.
İtirsə də döyüşlərdə
şənliyini,
bayramını,
İtirmədi namusunu,
vüqarını
inamını.
Yorğanı yel, yastığı daş,
Gecələdi çöldə, düzdə
qayalara sığınaraq.
Azərbaycan – Odlar yurdu,
Azərbaycan – ana torpaq.

Göz dikmədik özgələrin
aranına, yaylağına
Aranımız, yaylağımız ola-ola.
Göz dikmədik özgələrin
torpağına, daşına biz.
Öz daşımız
torpağımız ola-ola.
Bir ürəyi iki yerə parçalayıb,
Bir ölkəni iki yerə
bölməmişik.
Bir qonşunun şərbətinə
acı qatıb,
bir kimsənin kədərinə
gülməmişik.
Fitnə-fəsad
bilməmişik.



Sözümüz söz, düzümüz düz,
cütümüz cüt,
Ökümüz hər öküzdən
adlı olub.
Çayımız çay, payımız pay,
duzumuz duz,
Çörəyimiz
hər çörəkdən
dadlı olub.
Süfrəmiz də geniş, açıq.
Dostumuz od,
diləyimiz isti, işıq.
Yad kəslərin hücumuyla
dağılsaq da neçə kərə,
sıxılsaq da neçə kərə,
Ancaq yenə baş qaldırıb
Yayılmışıq tüstü-tüstü,
Çoxalmışıq ocaq-ocaq.
Azərbaycan – Odlar yurdu
Azərbaycan – ana torpaq.

Əbəs yerə Cavanşiri
dönə-dönə anmamışıq.
Babək – deyə yanmamışıq.
Əbəs yerə ucaltmadıq
Koroğlunun heykəlini.
Əbəs yerə yaşatmadıq
neçə-neçə qəhrəmanın
arzusunu, əməlini.

Əbəs yerə dayanmırıq
abidələr önündə biz.
Hər daş qala,
kərpic hasar
doğma, əziz.
Bu dağlarda hər qalanın
öz şərəfli tarixi var.

Ağır düşmən hücumunun acısını
Dönə-dönə dadmasaydıq
Yüksəlməzdi bu qalalar.
Əvəzində təzə-təzə
şəhər salıb, ev tikərdik.
Bulaqlardan su gətirib,
gül əkərdik,
Dost qapısı açmaq üçün
eldən elə yol çəkərdik.
Olmasaydı o basqınlar
o qırğınlar, o bəlalar.
Yaranmazdı bu qalalar.
Dağlardakı hər qalanın
öz şərəfli tarixi var.
Bu qalalar əlimizlə
Nəsil-nəsil qorunacaq.
Azərbaycan – Odlar yurdu,
Azərbaycan – ana torpaq.

Unutmadıq olanları,
biz yenidən
keçmişləri soraqladıq,
Nizamini, Nəsimini,
Füzulini varaqladıq.
Cəsurları saldıq yada.
Alimləri,
şairləri unutmadıq.
Şirin dilli Vaqifləri,
Vulkan güclü
Sabirləri unutmadıq.

## QƏDİM ŞƏHƏR

Qaralmış üfüqlər qaşını çatır,
Sıxlaşır başımda ağır fikirlər.
Torpağın qoynuna sığınıb yatır –
Qəbələ adlanan qədim bir şəhər.



Nə yolları durur, nə küçələri,
Dayanıb hərəkət, kəsilib işıq.
Qala qapısından keçib içəri,
Bu gündən dünənə yaxınlaşırıq.

Açsa da ağzını od nəfəsli yay,
Gəzirik bilmədən yorğunluq nədir.
Yenə əvvəlkitək axıb gedir çay,
Təbiət – hər şeyə o, biganədir.

Susmuş qədim şəhər, susmuş ömürlük,
Nə alan, nə satan, nə bazar qalıb.
Canlı bir insanda, cansız bir üzük,
Böyük bir binadan bir divar qalıb.

Pullar səpələnib küncə, bucağa,
Sağımız, solumuz oyuq-oyuqdur.
Minillik bir küpə çıxır qabağa,
Bir qulpu tapılıb, bir qulpu yoxdur.

Çıxmışam seyrinə sirli aləmin,
Hər daş parçasının öz yazısı var.
Cəlb edir fikrini cavan alimin,
Saxsı qablardakı əlvan naxışlar.

Nəsillər dil açıb verir səs-səsə,
Burda illər nədir, əsrlər nədir...
Başımız nə qədər yüksəklərdəsə,
Kökümüz o qədər dərinlərdədir.

## ORA VƏTƏNDİR

Harda gözlərini açdın dünyaya,
Qaynayıb, qarışdın elə, obaya,
Harda könül verdin torpağa, suya,
Ora vətəndir.

Harda bir yurd salıb, bir yuva tikdin,
Həyətdə bir ocaq, bir çiçək əkdin,
Harda oğul nazı, qız nazı çəkdin,
Ora vətəndir.

Harda xeyrə qaçıb, şərə tələsdin,
Nə odda alışdın, nə yeldə əsdin,
Halal süfrə açıb, duz-çörək kəsdin,
Ora vətəndir.

## VƏTƏN DEMƏKDƏN

Düzlər bahar fəsli al geyinəndə
Sözlər öz-özünə axır ürəkdən.
Yenə axşam-sabah sazım dinəndə,
Bilin, doymamışam Vətən deməkdən!

Əzəldən vurulub ana torpağa
Min dəstə bağladım güldən, çiçəkdən.
Ötəndə bülbüllə qabaq-qabağa
Bilin, doymamışam Vətən deməkdən.

Qarışsın nəfəsim sərin yellərə,
Alın sorağımı əsən küləkdən.
Səsim yayıldıqca doğma ellərə,
Bilin, doymamışam Vətən deməkdən!

## SALAM, A CEYRANÇÖL!

Salam, Ceyrançölü, əzəl ovlağım,
Cığırlar, çəhlimlər, izlər dünyası...
Gözəl təbiətli, gözəl ovlağım,
Qolpunlar, yarğanlar, düzlər dünyası.

Salam, Candar gölü, itmə dumanda,
O başda ağaran ləpəmi, qarmı?



Qışda sinən üstü buz bağlayanda
Yaşılbaş sonalar darıxmayırmı?

Ay qoca Yaylacıq, ay ömrüm, günüm,
Yuxum qarışanda yuxun qaçdımı?
Sacdağı necəsən? Başına dönüm
Sacına baxıram, sacın yaşdımı?

Sular dövrəsində qalxan ağaclar
Niyə kövrəksiniz, yaşınız azmı?
Qoyunlu, quzulu yallar, yamaclar
Kəklikli qayalar, yaxşısınızmı?

Mən sənin özünəm, sən mənim özüm,
A buludlu zirvə, a yaşıl çəmən.
Oyan, a Durnalı, a duru gözlüm,
A Çatma, yadına düşürdümmü mən?

Göy Tomtu, əlində saxla əlimi,
Qollarım boynuna dolanmasınmı?
Yazda qızıl lalə qızıl dil kimi
Çiçək qonşusunu yalamasınmı?

Oxşayım ağotu, öpüm nərgizi,
Bu yurdda boy atıb yaşa dolmuşam.
A yonca, a yovşan, bircə gün sizi,
Unutsam, bilin ki, unudulmuşam.

Boz at, qulaqların oynar havada,
Kimin nəfəsidir duyduğun nəfəs?
Maşınlar yollara sığışmasa da,
Köhlən məhəbbəti silinə bilməz.

Salam, a Ceyrançöl, bir də görüşək,
Səni qorxutmasın saçımın dəni.
Ürək o ürəkdir, istək, o istək, –
Hüseyn Arifəm, yormazsan məni.

## NAXÇIVANDADIR

Yollar uzaq deyil, görməyən görsün,
Bağların baharı Naxçıvandadır.
Düzlərin sərvəti, çöllərin varı,
Dağların vüqarı Naxçıvandadır.

Şahbuzun hüsnünü eylədikcə yad,
Xəyalım bir anda açır qol-qanad.
Ruhuma doğmadır Culfa, Ordubad,
İllərin ilqarı Naxçıvandadır.

Mənasız keçirmə ömrü həyatda,
Canlı xatirədir hər xoş saatda.
Dincəl Badamlıda, qal Batabatda,
Elin etibarı Naxçıvandadır.

Başdan dilimizin olmuş əzbəri,
Könül mahnıları, ürək sözləri,
Cəlilin, Cavidin ayaq izləri,
Ölməz yadigarı Naxçıvandadır.

Dərədə suların həzin nəğməsi,
Zirvədə qartalın çağlayan səsi,
Ceyranın sürüsü, maralın dəsi,
Durnanın qatarı Naxçıvandadır.

Şerin, şeriyyətin qədrini bilən,
İnsanla sevinib, insanla gülən,
Dar gündə axtarıb, çətində gələn
Hüseynin dostları Naxçıvandadır.

## BORÇALI

Vaxtaşırı gəlib görmək istəsən
Heç deməssən nə uzaqdı Borçalı.
Xramçaydan bəri baxsan görərsən
Başdan-başa çılçıraqdı Borçalı.



Muğanlıdan, Qaçağandan nə deyim,
Kişi qızdan, ər oğlandan nə deyim.
Saraclıdan, Ağacandan nə deyim
Sazlı, sözlü bir ocaqdı Borçalı.

Başkeçidin ətəyi gül, başı qar,
Çiçəklərdən dəstə tutur ilk bahar.
Yaranışdan zirvə geniş, dərə dar,
Həm arandı, həm yaylaqdı Borçalı.

Dost yolunda əsirgəməz nə desən,
Harayına çatasıdı səsləsən,
Şirininə acı qatmaq istəsən,
Coşan seldi, yanan dağdı Borçalı.

Zəhmətilə daş-torpağa bağlıdı,
Bol məhsullu bağça-bağa bağlıdı.
Qazax ona, o, Qazağa bağlıdı,
Nə məğrurdu, nə xoşbəxtdi Borçalı.

Hüseyn Arif qonağındı bu gün də,
At çapmışam neçə toyda, düyündə.
Qədirbilən nəsillərin önündə,
Alnıaçıq, üzüağdı Borçalı.

## AVEYİN

Ulu babaların yurdu, yuvası,
Bilinməz neçədi yaşı Aveyin.
Təmiz təbiəti, təmiz havası,
Ülvidir torpağı, daşı Aveyin.

Enişli, yoxuşlu yollar keçibdir,
Şərbət əvəzinə ağı içibdir.
Qəm məskən bağlayıb, sevinc köçübdür,
Nələr çəkməyibdir başı Aveyin.

Tufan da oynayır, külək də əsir,
Nə qəribə sehir, nə qəribə sirr.
Göyü bulud alır, yeri çən kəsir,
Gahdan çatılanda qaşı Aveyin.

Göyəzən arxası, Gülül təpəri
Heyrandı hüsnünə Qazax elləri.
Qurumaq bilməyir illərdən bəri
Damcılı gözünün yaşı Aveyin.

## KÜR ÇAYIM

Nə qədər qoynunda xumarlanmışam,
Yayxana-yayxana gələn Kür çayım.
Sahil kölgəsinə bürünüb axşam,
Səhər şəfəqilə gülən Kür çayım.

Fəsildən-fəsilə bir görkəm alıb,
Meylini torpağa bağlayan Kürüm.
Payızla yorulub, qışla qocalıb,
Baharla gəncləşib çağlayan Kürüm.

Alışan düzlərin silib tərini,
Qalın meşələrdən keçən Kür çayım.
Nənələr doldurub sənəklərini,
Babalar suyundan içən Kür çayım.

Arabir keçmişi gətirib yada,
Şairtək xəyala dalan Kür çayım.
Gözəllər yuyunub, sığallananda,
Vaqifi sevdaya salan Kür çayım.

Nə gözəl durulur üfüqdə səhər,
Qıymaram günəşim sönə, Kür çayım.
Yeni cəlalından tutaraq xəbər
Seyrinə gəlmişəm yenə, Kür çayım.



## DURNALI

Başının üstündə günəşin nuru,
Ayağı altında düzlərin şalı.
Durna gözü kimi durudan duru,
Şair könlü kimi kövrək Durnalı.

Arabir yolunu çən-çisək kəsər,
Obadan ayrılıb, oymaqdan küsər.
Külək toxunanda titrəyib əsər,
Maral balası tək ürkək Durnalı.

Göylərin gözündən düşən yaş kimi,
Silkinib qalxanda yaşılbaş kimi,
Uzaqdan baxanda yanan qaş kimi,
Yerin sinəsinə bəzək Durnalı.

Açılır yaxası dan söküləndə,
Qızarır yanağı üfüq güləndə,
Bizim dədə-baba Ceyran çölündə
Hər güldən, çiçəkdən göyçək Durnalı.

Ey ana təbiət, ey ilk həmdəmim
Mənim səndən yaxın kimim var, kimim?
Seyrinə dalanda azalır qəmim,
Hüseyn Arifə dirək Durnalı.

## AĞSTAFANIN

Sığındım istəkli bir bala kimi
İsti qucağına Ağstafanın.
Dolandım səhərdən axşama kimi
Soluna, sağına Ağstafanın.

Ağrı nə gəzirdi ürəkdə, canda
Ağacdan atılıb, dikdən aşanda

Gərərdim sinəmi çən qarışanda
Odun, ocağına Ağstafanın.

Xəbərim yox idi başqa xəbərdən
Pendirdən, çörəkdən, çaydan, şəkərdən,
Balıq ovlamağa qaçardıq hərdən
O çay qırağına Ağstafanın.

Burda keçirmişəm odlu çağımı,
Tikanlar dalayıb əl-ayağımı,
Nə qədər vermişəm tər yanağımı
Qılınc sazağına Ağstafanın.

Cicimin üzünə toxundu üzüm
Hər zaman dilində söhbətim, sözüm,
Günəş yayılanda dikildi gözüm
O Gülül dağına Ağstafanın.

Bəzən yuyunmuşam yağış gölündə
Bildirçin qovmuşam Ceyran çölündə
Səfərə çıxmışam camış belində
Ceyran yatağına Ağstafanın.

Qələmələr vardı, çinarlar vardı
Sağ-solu su bolu qatar-qatardı,
Nəsə dəstə-dəstə pıçıldayırdı
Quşlar qulağına Ağstafanın.

Sübhün yayılanda ılıq nəfəsi
Coşardı hər kəsin eşqi, həvəsi,
Enərdi şamların sərin nəfəsi
Yaşıl ayağına Ağstafanın.

Yazda gül açardı ərik bağları
Yayda səsləyərdi buz bulaqları
Payız sarılardı qarpız bağları
Araba çağına Ağstafanın.



Əsədin, Mizənin gurlayan vaxtı
Zurnaçı Nikolun tərifi qalxdı
Kişilər yeridi, qadınlar axdı
Şadlıq yığnağına Ağstafanın.

Əziz müəllimlər Əmirxan, Aslan
Məmməd, Əmənullah, həlim, mehriban
Dəmiryol məktəbi döndü bir zaman
Kamal ocağına Ağstafanın.

Fikrimdə həm yası, həm də bayramı,
Gah sevinc ilhamı, gah qəm ilhamı,
Əlimlə tapşırdım Arif balamı
Ana torpağına Ağstafanın.

Qəlbimdə əbədi bu dağ, bu düyün
Görünür beləymiş vəfası ömrün
Hüseyn Arifi axtaran bir gün
Düşər sorağına Ağstafanın...

## NECƏ BİLƏRDİM

Qazaxda gözümü açdım dünyaya,
Dünyaya açılan gözüm Qazaxdı.
Qazaxda göz qoydum ulduza, aya,
O aylı, ulduzlu sözüm Qazaxdı.

Yer təmiz, göy təmiz, təbiət təmiz,
Palıdlar, vələslər qol-qanadımdır.
Yenigün kəndində açılan ilk iz
Həyata atılan ilk addımımdır.

Məclislər böyüdü, sazlı, aşıqlı,
Zurnaçı Nikolun səsilə doldu.
Kəsəmən, Salahlı, Çaylı, İşıqlı
Eşidib gördüyüm ilk kəndlər oldu.

Kişilər ad qoyub çatdı murada,
Deyənlər onlardan dastan deyərdi.
Abdalı, Həmidi gətirib yada,
Alsöyün deyərdi, Hajan, deyərdi.

Qədim Qarayazı, qədim haqqı-say,
Qara kötüklər də mənə əzizdir.
Dəli Kür beynimdə ən qüvvətli çay,
O boz köpüklər də mənə əzizdir.

Bir deyil, beş deyim arzum, diləyim,
Kağız xəbər tutsun, qələm eşitsin
Göyəzənmi deyim, Aveymi deyim
Damcılımı deyim, aləm eşitsin?

Səsini, sözünü ellərə yaydı,
Çaxdı şimşək kimi, qızdı od kimi.
Bu qədər sinəsi çağlamasaydı,
Bu qədər sənətkar yetirərdimi?!

Bir əli yaratdı, biri döyüşdü,
Çaldı cəngisini qoç Koroğlunun.
Kərəm Kərəm kimi dillərə düşdü,
Vaqifi Vaqifdir, Vurğunu Vurğun.

Nəsillər daş üstə təzə daş qoyur,
Hər söhbət bir dövrü gətirir yada.
Babam Balasöyün burda uyuyur,
Bura köçüb gəldi Arif balam da.

Məramı, məqsədi başqadır ömrün,
Bizə həyat da haqq, ölüm də haqdır.
Arifin ayağı altında bir gün
Hüseyn Arif də uyuyacaqdır.

Duyub qoxlamasam torpaq ətrini,
İşıqlı gündüzü gecə bilərdim,
Belə bilməsəydim onun qədrini
Dünyanın qədrini necə bilərdim?!



# OĞLUMA

## GETDİ

Bir gül bitirmişdi ilk bahar mənə,
Axşamdan sabaha durmadı, getdi.
Bir ürək vermişdi ruzigar mənə,
Həyatda iki gün vurmadı, getdi.

Şimşəktək havada alışıb keçib,
Möhnət şərbətini qəfildən içib,
Özünə bir könül həmdəmi seçib,
Bir şadlıq məclisi qurmadı, getdi.

Bəxt yatıb müsibət ayaq üstədi,
Kədər dalğa-dalğa, dəstə-dəstədi.
Düşmədi yatağa, deyək: – Xəstədi!
Atanı, ananı yormadı, getdi.

Hər kəsə məhəbbət bəsləyən Arif,
– Darıxdım, yanıma gəl! – deyən Arif.
Məni hamıdan çox istəyən Arif,
Bu dəfə halımı sormadı, getdi.

## MƏNİMİYDİ

Bir saat bir yerdə tutmazdım qərar,
Araz mənimiydi, Kür mənimiydi.
Ömrümün, günümün gəlhagəlində
İnci mənimiydi, dürr mənimiydi.

Səsim gah Qazaxda, gah Qarabağda,
Meşədə, çəməndə, çayda, bulaqda,
Meyvəli aran da, çiçəkli dağ da,
Elə bilirdim ki, bir mənimiydi.

Hüseyn Arifin bağrını deşdin
Harda qərar tutub, haraya köçdün?
Ay oğul, sən niyə qabağa düşdün
Səfər mənimiydi, yer mənimiydi.

## OĞLUMA

Bahar yola düşdü, yay gəlib keçdi,
Gedirəm payızdan mən qışa, oğlum.
Mənzil daraldıqca ömür köhləni
Səyirdir atını birbaşa, oğlum.

Uzaq elləri də bir-bir dolan gəz, –
Gəzməyən tanımaz, görməyən bilməz.
Ancaq ana Vətən əvəz edilməz.
Vurul bu torpağa, bu daşa, oğlum.

Yazda yaşıl geyər yaşıl budaqlar,
Payızda boşalar bağçalar, bağlar.
Meşələr, çəmənlər, çaylar, bulaqlar
Tamaşa yaranıb, tamaşa, oğlum.

Təbiət hər düzə bir zinət verib.
Hər qarlı zirvəyə bir surət verib.
Gör necə güc verib, hərəkət verib,
Tufana, doluya, yağışa, oğlum.

Odlu baxışında sevinc, hərarət,
Hər xoş təbəssüm də bir canlı sənət.
Bir səmimi ülfət, bir duzlu söhbət
Dəyər bir dünyalıq qaş-daşa, oğlum.

Nəzər sal izlərə, sirli aləmə –
Qəmdən sevincədir, sevincdən qəmə.
Oynadıb dilini yola, yol demə
Düşməmiş enişə, yoxuşa, oğlum.



Qoşulma yadların vurhavuruna,
İblislər bir gündə girər on dona,
İlişmə tərifin gizli toruna,
Alışma yalançı alqışa, oğlum.

Dənizə bənzətmə yağış gölünü.
Köz bilib tərpətmə ocaq külünü.
Heç zaman yanılıb açma könlünü
Könülsüz qohuma, qardaşa, oğlum.

Müqəddəs bir söz var həyatda: – İnsan!
Hər şeydən ucadır bir təmiz ad-san.
Əlli də yaşasan, yüz də yaşasan
Çalış bu dünyada mərd yaşa, oğlum.

Uzanan ömrüdür sözün sözümün.
Təzə işığıdır gözün gözümün.
Aranda davamın, dağda dözümün
Atan Hüseynə yaraşa, oğlum.

## DÜNYA NECƏ BOŞALIBDIR?

Nə gündəyəm, nə kökdəyəm,
Ağrılarım baş alıbdı.
Başı fikir, ürəyi qəm,
Gözlərimi yaş alıbdı.

Xəzan yeli vaxtsız əsir,
Yer tələsir, göy tələsir.
Yolu, izi payız kəsir,
Qapımızı qış alıbdı.

Dayan tufan, dayan külək,
Qoy dincəlsin yorğun ürək.
Arif getdi Hüseyn tək, –
Dünya necə boşalıbdı.

## ARXASI GETDİ

Bir budaq üzülüb qopdu ağacdan,
Bağrımdan bağrımın parası getdi.
Aldığım yaranın, çəkdiyim dərdin,
Təbibi, dərmanı, çarası getdi.

Nə yaman olurmuş oğul həsrəti,
Heç ata görməsin bu müsibəti.
Könlümdən könlümün sözü-söhbəti,
Gözümdən gözümün qarası getdi.

Hüseyn xəstədir qəm yatağında,
Buludlar toqquşur qaşqabağında.
Yaşımın əllini aşan çağında,
Arxamın dağ kimi arxası getdi.

## İSTƏRDİM

İstərdim oğlumun başında hər gün
Sevinib, şadlanıb, gülənim olsun.
Səhərdən axşama döyülsün qapım,
Evimə yüz gedib-gələnim olsun.

Yanaşı dolanaq qolum qolunda,
Oturam sağında, duram solunda,
Enişli-yoxuşlu ömrün yolunda
Sevinci, kədəri bölənim olsun.

Bir xoş arzu kimi qaldı bu arzu,
Beləymiş Hüseynə yazılan yazı.
Gözəl vətənimin gözəl bir qızı
İstərdim mənim də gəlinim olsun.

## BƏRİ

Titrəyir küləkdən kövrək budaqlar,
Söyüdlər saçını yolandan bəri.
Bozarıb bağçalar, quruyub bağlar,
Çiçəklər saralıb solandan bəri.



Bir qartal boynunu bükür qayada,
Bir gəmi boğulub, batır dəryada,
Bir şair inləyir Ağstafada,
Bir ata oğulsuz qalandan bəri.

Saçmı müqəssirdir,
dənmi? – Bilmirəm,
Dağmı bulanıbdır,
çənmi? – Bilmirəm.
Dünyamı dəyişib,
mənmi? – Bilmirəm
Mən Hüseyn Arif olandan bəri.

## ÇƏKİR

Ay Arif, başını qaldır bircə an,
Gör zavallı atan nə həsrət çəkir.
Açdığın qapıya boylanır anan,
Bacın Səhər, Zöhrə nə zillət çəkir.

Anıb ağlamağa gözmü qalıbdır?
Dinib, danışmağa sözmü qalıbdır?
Dünyada utanan üzmü qalıbdır,
Deyəm, tutduğundan xəcalət çəkir.

Hüseyn, ürəkdən yağ çəkilibdir.
Şamama pozulub, tağ çəkilibdir.
Sənətkara azmı dağ çəkilibdir,
Bir oğul dağı da təbiət çəkir?!

## KİMƏM MƏN

Bir binayam, kərpicləri sökülmüş,
Bir çələngəm, çiçəkləri bükülmüş,
Bir ağacam, meyvələri tökülmüş,
Yaranmışdan belə baxtı kəməm mən.

Bir çəmənəm, sağı, solu saralmış,
Bir zirvəyəm, keçidini qar almış,
Bir insanam, yeri, yurdu daralmış,
Dünya boyda möhnətəm mən, qəməm mən.

Bir palıdam, gövdəsindən yarılmış,
Bir qartalam, qanadından vurulmuş.
Bir ürəyəm, şah damarı qırılmış,
İndən belə necə deyim kiməm mən?!

## BİR DAĞ KƏLİ YARALADIM ZİRVƏDƏ

Bir dağ kəli yaraladım zirvədə,
Baş titrədi, ayaq əsdi, daş axdı.
Bir canlını candan saldı bir zədə,
İki gözdən iki damla yaş axdı.

Düşünmədim, anadır, ya baladır,
Ovçu atar ov bərədən keçəndə
Ala tula qanlı daşı yaladı,
O sönürdü tikanlığın içində.

Qabaqlaşdıq, sökülməmiş qızıl dan,
Mən silahlı, o silahsız bu yerdə.
Yarıyolda ayrı düşdü qatardan,
Mən günahlı, o günahsız bu yerdə.

Öz halına təkcə özü ağladı,
Kimi var ki, kim dayana yanında.
Dil uzadıb, nəm torpağı yaladı,
Sumu keçdi, xəyalından son anda?

Dodaq yanır, yanaq yanır, üz yanır,
Buludumu, dumanımı əyləsin?
Boylandıqca baxış yanır, göz yanır,
Bu yanğıya sellər, sular neyləsin?



Ağır-ağır dartıb bükdü dizini,
Muncuqladı kirpiklərdə donan tər.
İndən belə toz basacaq izini,
İndən belə nə yürüş var, nə səfər.

Birdən-birə elə çırpdı özünü
Sağ buynuzu qopub qaldı qayada.
Ey Hüseyn, müxtəsər et sözünü
Bu qan səni tutasıydı, tutdu da.

## VAXTSIZ KÖÇMƏSİN

Başqadır könlümdə eşqin həvəsi,
Nə qış düşündürür, nə bahar məni.
Açın radionu yayılsın səsim,
Dinləsin atalar, analar məni.

Bir anlıq təsadüf, bir anlıq tufan
Nələr törətməyib,
                    dərk edin barı.
Qoruyun qəzanın tikanlarından,
Çiçək balaları, gül balaları.

Nə çoxdur gündüzün, gecənin şəri,
Daddıq ağrısını hər müsibətin.
Bir misal da çəkim gəlmişkən yeri
Yaratmaq asandır, yetirmək çətin.

Qoruyun onları bağçada, bağda
Enişdə, yoxuşda, düzdə qoruyun.
Şirin nəğmələri isti dodaqda,
Qaynar gülüşləri gözdə qoruyun.

Yüzillik möhnətdir bir anlıq vaxt da,
Adi küləyin də hökmünü duyun.
Şamamanı tağda, qönçəni şaxda,
Körpəni qucaqda, qolda qoruyun.

Nə yaman çırpınır ürəyim yenə,
Qalxan ocağın da kül qorxusu var.
Demək istəyirəm, qoy deyim yenə,
Evin ev, çölün də çöl qorxusu var.

Sürücülər naşı, maşınlar şimşək,
Şütüyür bir yanda, yanır bir yanda.
Sərhəd keşiyində durduğumuz tək
Duraq keşiyində övladların da.

## YOX! – DEDİ

Könüldən nisgili pozmaq istədim,
Yazanda görüşdən yazmaq istədim,
İlk eşqin oduna qızmaq istədim,
Uğursuz məhəbbət mənə: – Yox! – dedi.

Qarlı zirvələrə qalxmaq istədim,
Dağlardan düzlərə baxmaq istədim,
Çaylara qoşulub axmaq istədim,
Bir gizli xəyanət mənə: – Yox! – dedi.

Arifəm səsimi yaymaq istədim,
Torpağın ətrindən doymaq istədim,
Bir oğul ləzzəti duymaq istədim,
Onu da təbiət mənə: – Yox! – dedi.

## ARZULARAM MƏN

Bir əlim getsə də, bir əlim durur,
Yarış meydanında hələ varam mən.
Bir gülüm itsə də, min gülüm durur,
Elə zənn etməyin son baharam mən.

Xəzan sarsıtmasın bağça-bağımı,
Külək oynatmasın çilçırağımı,
Tufan aparsa da bir budağımı,
Çox qollu-budaqlı bir çinaram mən.



Həyatda gah qalxır, gah enir ata,
Nə qədər sevinir, qəmlənir ata,
Bir bala ucundan bədbəxt bir ata,
Milyon balalarla bəxtiyaram mən.

Qanrılıb baxıram tariximizə,
Saysız yağılarla durduq üz-üzə,
Dözüm babalardan mirasdır bizə,
Məğrur kişilərə minnətdaram mən.

Köksünü irəli gərən dostlarım,
Hörmətlə qoluma girən dostlarım,
Mənə başsağlığı verən dostlarım,
Sizə cansağlığı arzularam mən.

## DEDİ

Bir övlad tüstüsü çıxdı başımdan,
Göylər göz yaşımı yerə sıx, dedi.
Ümidim, istəyim gözümdə qaldı,
Könül nəğməsini yarımçıq dedi.

Həyat başdan-başa bir bilməcədir,
İşıqlı gündüzüm zülmət gecədir.
Soruşan olmadı kefin necədir?
Görən köks ötürüb: – Ay yazıq! – dedi.

Hüseyn Arifəm, payım zəhərmiş,
Bu səfər nə yaman ağır səfərmiş.
Ata balasını necə sevərmiş,
Görüş deməyəni ayrılıq dedi.

## ÖLÜMƏ QURBAN OLUM

Həyat ətirli güldür,
Gülümə qurban olum.
Dağdı, dənizdi, göldü,
Gölümə qurban olum.

Coşub, çağlayan könül,
Açıb, bağlayan könül,
Gülüb, ağlayan könül,
Könlümə qurban olum.

Dağ sökülüb, – dedilər,
Bel bükülüb, – dedilər
– Arif ölüb, – dedilər,
Ölümə qurban olum.

## DÖZƏRDİM

Əzəl ovçuluğa saldım meylimi,
Tikanı tapdayıb, budağı əydim.
Aşırıb boynumdan qoşalüləni,
Meşələr qoynunda özünə bəydim.

Dolu da başlayıb, külək də əsib,
Dovşan da atılıb, qurd da tələsib.
Ağacda turacın üstünü kəsib,
Qayada kəkliyin xətrinə dəydim.

Azmı peşimanam öz əməlimdən,
Əbəs ələnməyib saçlarıma dən.
Xəlvəti açılan bir gülləylə mən
Məğrur dağ kəlinin qəddini əydim.

Sevinci yarıda verməzdim bada,
Ağrını, acını salmazdım yada,
Alagöz ceyranın bir dar məqamda
Ömrünü yarıda bitirməsəydim.

Hüseyn Arifəm, közə dözərdim,
Enişə, yoxuşa, düzə dözərdim,
Səksənə, doxsana, yüzə dözərdim,
Əllidə Arifi itirməsəydim.



## YAŞA BİR AZ DA...

Vaxt olur, başıma dünya daralır,
Heç nəyin üstündə qanım qaralır,
Sağı yağış döyür, solu qar alır,
Dəyişir gözümdə payız da, yaz da,
Deyirəm bəlkə də...
Elə bu zaman
Bir səs qulağıma axır uzaqdan:
Arifin xətrinə yaşa bir az da!

Vaxt olur, varlığım od tutub yanır,
Atamı düşünür, anamı anır,
Bir nadan sözündən qəlb yaralanır,
İçimdə inləyir kaman da, saz da,
Deyirəm bəlkə də...
Elə bu zaman
Bir səs qulağıma axır uzaqdan:
Arifin xətrinə yaşa bir az da!

Ey ümid şöləsi bir də cilvələn,
Gəl ey sevincimlə sevinib, gülən,
Acını, şirini dost kimi bölən
Baxıb gözlərimə baxıb söyləyir
Ata da, ana da, oğul da, qız da:
– Hər sözün dillərdə tərif olubdur,
İndi ki, Hüseyn Arif olubdur
Arifin xətrinə yaşa bir az da!

## DAYANMAZ

Bir qüvvə içimdən əydi başımı,
Bir alov sinəmi dağlar, dayanmaz.
Göz yaşımı deyim, könül yaşımı?
Gecəli, gündüzlü çağlar, dayanmaz.

Göylər yağış tökər, dolu səpələr,
Yeriyir dalğalar, qalxır ləpələr,
Keçməyin qabağa ay boz təpələr,
Mən dözən dağlara dağlar dayanmaz.

Ey əcəl, ümidim sənədir ancaq,
Gizləsin üzümü o qara torpaq.
Hüseyn Arifin taleyinə bax,
Dünyalar dərdimə ağlar, dayanmaz.

## OĞUL

Onsuz da həyatda xoşbəxt deyildim,
Bir dünya möhnətdim, kədərdim, oğul.
Kərəmi, Dilqəmi xatırlasam da,
Kərəmdən, Dilqəmdən betərdim, oğul.

Həftələr dolanıb qalır arxada,
Səhəri, Zöhrəni gətirib yada
Sənsiz arsız-arsız qaldım dünyada,
Sığmaz yüz kitaba bir dərdim, oğul.

Həyatda başadək deyib gülmədin,
Hüseyn Arifə yaxın gəlmədin
Sən mənim çiynimdə gedə bilmədin,
Of, sənin çiynində gedərdim oğul.

## BİR QIZ GÖRDÜM, TÜRK QIZI

Bir qız gördüm, türk qızı
Ya Pəridi, ya Gülgəz
Günəşi göydə deyil,
Onun baxışında gəz.

Hər noğuldan o şirin,
Hər çiçəkdən incədir.
Elə bil yaş budaqda
Oyanmış tər qönçədir.



İlahi vergisimi
Bu məlahət, bu ismət?
Gözəl bir qızdan ötrü
İsmət ən ülvi qismət.

Dilinə vurğun oldum,
Dili dilimdən mənim.
Ulusu ulusundan,
Eli elimdən mənim.

Fikir fikir dalınca
Ağım qaralı qaldı.
Bir gəlin həsrətiylə
Bağrım paralı qaldı.

Bir qız gördüm, türk qızı
Nurdan yoğrulmuş aydı.
Arif yadıma düşdü
Kaş Arif sağ olaydı.

## İNANDIM

Aman 76, sənin əlindən,
İnanmazdım, bu gözümə inandım.
Alov qalxdı dodağımdan, dilimdən,
İnanmazdım, mən özümə inandım.

Batmış sandım sərilәndə torpağa,
Sinə gərmək asandımı bu dağa?
Necə oldu qalxa bildim ayağa?
İnanmazdım, mən dizimə inandım.

Düz yolumu yanılaram, çaşaram,
Köks ötürüb, qəmli sözlər qoşaram.
Hüseyn Arif arsız-arsız yaşaram
İnanmazdım, mən dözümə inandım.

## QARDAŞIM RƏFİQ ZƏKAYA

*Könlümü görməyən ellərmi vardır,*
*Gözümdə çeşmələr çağlayan kimi.*
*Bağlarmı tapılar, tellərmi vardır,*
*Hüseyni Arifə bağlayan kimi.*

***Rəfiq Zəka***

Misralar alovlu, duyğular ulu,
Nə yaman yanmısan yanan könlümə.
Bir xalqa dağ çəkdi bir şair oğlu,
Aman harayladım, aman könlümə.

Çiskinli dərəyəm, dumanlı düzəm,
Ömrümün çırağı keçəndən bəri.
Vətəndə vətənsiz, evdə evsizəm,
Arifim dünyadan köçəndən bəri.

Qəza bir qapını bağlamayıbdır,
Bizim qapımızı bağlayan kimi.
Füzuli
Məcnuna ağlamayıbdır,
Hüseyn
Arifə ağlayan kimi.

## QALDI

Bir nəsil çiynimdə köçdü dünyadan,
Bir zamanın dadı dodaqda qaldı.
Atanın, ananın şəkli gözümdə,
Babamın havası qulaqda qaldı.

Yenigün kəndində qol-qanad açdım,
Yeridim, yıxıldım, yüyürdüm, qaçdım.
Çəpərdən adlayıb, bağı dolaşdım,
İsti, tər nəfəsim yarpaqda qaldı.

Oxşadı ruhumu çiçəyin ətri,
O başdan oyanan küləyin ətri,



Bulamanın tamı, çörəyin ətri
Cijimin çatdığı ocaqda qaldı.

Adımı kürəklə qara yazdığım
Yaylaqda ilk dəfə qarım qazdığım.
Bulaqdan dönəndə çəndə azdığım,
Qayğısız günlərim uzaqda qaldı.

Yorğunluq nə şeydir salmadım yada,
Kəklik yumurtası gəzdim yuvada.
Dizimin dərisi daşda, qayada,
Üzümün alovu sazaqda qaldı.

Qaranlıq əriyib, günəş doğanda,
Dərədə zülməti işıq boğanda,
Çiyələk toplayıb, moruq yığanda;
Tikanın yarası ayaqda qaldı.

Böyüdük, qocaldıq, azaldıq, artıq,
Qapını ilk gənclik döyəndə artıq,
Büzüb dodağını kövrək uşaqlıq
Əli çənəsində, qıraqda qaldı.

Dolandı axşamım, ötdü səhərim,
Sevincim, şadlığım, qəmim, kədərim.
Uzaq ölkələrə düşdü səfərim
Gözüm o dərədə, o dağda qaldı.

Gah Əmrah dilləndi, gah Sayad pəri
Alışdı Kərəmin sinə dəftəri.
Əsədin, Mirzənin zəngulələri
Yüz sazlı, söhbətli yığnaqda qaldı.

Hüseyn Arifəm, daha nə deyim,
Pozuldu növrağım, batdı diləyim.
Ata məhəbbətim, şair ürəyim
Arifi gözləyən torpaqda qaldı.

## BİR DƏ GƏLLƏM

Bu göyə, bu günəşə,
Bu aya bir də gəlləm.
Bu gölə, bu dənizə,
Bu çaya bir də gəlləm.

Vurğunam dağa, daşa,
Hər gədiyə, hər qaşa,
Bu payıza, bu qışa,
Bu yaya bir də gəlləm.

Oyan, nə bərk yatmısan,
Könüllər qanatmısan,
Sən dünyaya qayıtsan,
Dünyaya bir də gəlləm.

## SAXLADI MƏNİ

Ey enişli-yoxuşlu ömrün ömürsüz yolu,
Ey həyat yaranışdan qüssə dolu, qəm dolu,
İtirmək asandırmı yeganə, əziz oğlu?
Bu sınaq meydanında cürət saxladı məni.

Qapıdan kəsilmədi gediş-gəliş bir an da,
Dan yeri ağaranda, dan yeri saralanda,
Balalar balam kimi boynuma sarılanda,
Məhəbbət həyan oldu, hörmət saxladı məni.

Gah açıq nalə çəkdi, gah gizli yandı şair,
İçindən yaralanıb, qana boyandı şair.
Bir səs: – Gözlə özünü...
Bir səs: – Amandı, şair
Qayğı, təsəlli dolu söhbət saxladı məni.

Baharım qışa döndü, yerlər, göylər qaraldı,
Bulud bir də oynadı, şimşək bir də gurladı.
Adım babamın adı, batırmıram bu adı,
Dədə-baba dəyanət, qeyrət saxladı məni.



Könlümdə közərməmiş neçə qığılcım qalıb,
Bir şeir marağında min-min oxucum qalıb,
Qədirbilən kəslərə misilsiz borcum qalıb,
Vətənimə, xalqıma xidmət saxladı məni.

Yenə meylim səfərdə, yenə fikrimdə aləm,
Yenə Zalqızı Gülnaz, yenə yaralı Dilqəm,
Yenə önümdə kağız, yenə əlimdə qələm,
Zəhmətə qurban olum, zəhmət saxladı məni.

## SƏN BİR DƏFƏ...

Günlər sinəmə dağ çəkir,
Gedə-gedə,
gələ-gələ.
Gözündən odlu yaş tökür,
Salxım-salxım,
gilə-gilə.

Bu on ildə kiməm, nəyəm,
Hər gün sənsiz səninləyəm.
Nə istəyir məndən bu qəm,
Diş qıcayıb,
gülə-gülə.

Təzə açan güldün, oğul,
Nə vaxtsız töküldün, oğul.
Sən bir dəfə öldün, oğul,
Mən yaşaram ölə-ölə.

## İNTİQAM ALDIM

Aranda Ariflə açdım sabahı,
Ariflə dağların seyrinə daldım.
Dostlar məskənində, dostlar yanında
Ariflə dincəlib, Ariflə qaldım.

Anıb qeyrətini Qoç Koroğlunun
Əymədim qəddini şair oğlunun.
Ömrünü ömrümə köçürüb onun,
Adını adımla yanaşı saldım.

Hüseyn Arifəm, qüdrətim qələm
Əhdimdən, andımdan dönən deyiləm.
Dirildi Zal qızı, dil açdı Dilqəm,
Mən, belə ölümdən intiqam aldım.

## KÖÇMƏSİN

Bahar mövsümündə çeşmə başından
Lilpar oynamasın, yarpız köçməsin.
Durnalar köçəndə öz qatarından
Bir durna üzülüb, yalqız köçməsin.

Qonan bir zanbaq da cana od salıb,
Sönən bir ocaqda neçə göz qalıb.
Bir qönçə budaq da vaxtsız saralıb,
Bir insan həyatdan vaxtsız köçməsin.

Hüseyn Arifəm, nə çəkmədim mən
Birdimi, beşdimi saçlarımda dən?
Bir ata çiynində Yer kürəsindən
Bir oğul ayrılıb, bir qız köçməsin.

## DÖNMƏSİN

Övlad məhəbbəti ülvi məhəbbət,
Dilinin əzbəri odur hər kəsin,
Bir dəfə həyatda özündən deyən
Yüz dəfə qanrılıb övladdan desin.

İldırım şığıyıb, şimşək ensə də,
Dalğalar sahili söküb, yensə də,
Min ulduz qaralıb, göydə sönsə də
Bir övlad çırağı yerdə sönməsin.



Vaxtsız saçlarıma ələnsə də dən
Hüseyn Arifəm, istərəm ki, mən
Ata arxasında dağa bənzəyən
Ata sinəsində dağa dönməsin!

## ELƏ OLDU

Elə oldu güldü könül, güldü üz,
Çiçək açdı eşqim, andım dünyada.
Güldü dərə, güldü təpə, güldü düz,
Yeri, göyü cənnət sandım dünyada.

Günlər ötdü, aylar, illər dolandı,
Sevinc, kədər bir-birinə calandı.
Tufan qopdu, suyum birdən bulandı,
Elə oldu, elə yandım dünyada.

Duman çökdü, çən gölündə itdi dost,
Haray Arif, son mənzilə yetdi dost.
Getdi ata, getdi oğul, getdi dost,
Mən qalmaqla nə qazandım dünyada?!

## YAŞAYAR

Kamalın töhfəsi, eşqin bəhrəsi
Alovda bərkiyər, odla yaşayar.
Nəvənin babadan düşəndə bəhsi
Nəsil də yaşayar, zat da yaşayar.

Qəm yemə həyatın beşgünlük olsa,
Vaxtsız gülün köçüb, çiçəyin solsa.
Şərəf qorunulsa, şan qorunulsa,
Nəsil də yaşayar, zat da yaşayar.

Hüseyn Arifəm, könül həmdəmi
Bir xalqın sevinci, bir xalqın qəmi
Ömür var, torpağın üstdə gül kimi
Ömür var, torpağın altda yaşayar.

## NEYLƏYƏSƏN

Həftə ötdü, ay dolandı
Vədə çatdı, –
Neyləyəsən?!
Bar töküldü, meyvə yandı
Bağın batdı, –
Neyləyəsən?!

Üz çevirib göyə, yerə
Haray çəkmə əbəs yerə
Yarı yolda birdən-birə
Baxtın yatdı, –
Neyləyəsən?!

Ürəkdə ürəyin Arif.
Dilində diləyin Arif,
Döz yenə, Hüseyn Arif
Bu həyatdı, –
Neyləyəsən?!

## BU NECƏ DAĞMIŞ

Gəzib dolaşıram yuxulu kimi,
Bu necə zamanmış, bu necə çağmış.
Qövr edir davasız-dərmansız yaram,
Bu necə düyünmüş, bu necə dağmış...

Kədər qoşun-qoşun üstümə güldü,
Sevincin qul kimi boynu büküldü,
Dəymişi düşməmiş, kalı töküldü,
Bu necə bostanmış, bu necə bağmış.

Üfüqdür alışıb bağrını sökən,
Zirvədir şimşəkdən ağrılar çəkən.
Hüseyn olanda bilmədinmi sən,
Böyük dağa böyük qar yağacaqmış.



# TƏBİƏT ŞEİRLƏRİ

## TƏBİƏT DÜŞÜNÜR

Gəl çıxaq seyrinə uca dağların,
Çəmən olan yerdə xalça nə lazım,
Gözündən su içək buz bulaqların,
Lilpar olan yerdə dolça nə lazım.

Nə kaman götürək, nə tar, nə qaval,
Orda nəğmə də var, nəğməkar da var.
Yarıb buludları dinəndə qartal
O səsə bərabər bir səs harda var.

Gahdan yağış yağıb, külək əssə də,
Qoruyar çardaqlı qayalar bizi,
Ətrafı çən tutub, duman kəssə də
Bələdçi cığırlar aparar bizi.

Torpağın ətrini fikirləşəndə,
İpək tellərinə çiçək taxarsan.
Səhərlər yadına güzgü düşəndə,
Maral baxan gölə sən də baxarsan.

Titrəmə soyuğa, yanma sazağa,
Üşüsək, otlardan yorğan istərik.
Daş-kəsək toxunsa ələ, ayağa
Loğman çiçəklərdən dərman istərik.

Zülmət gecələrdə parlayan şimşək,
Yol üstdə göz qırpan mayak deyilmi?
Gəlin təbiəti biz də düşünək,
O özü hər şeyi düşünən kimi.

## SEVİN, DUYUN TƏBİƏTİ

İnsan gəlir, insan gedir,
Dəyişirik nəsil-nəsil.
Ana torpaq əbədidir,
Ana torpaq köçən deyil.
Dəyişsə də görkəmini,
Dəyişməyən xilqəti var.
Sinəsi gen, qoynu dərin,
Min sirri, min hikməti var.
Ay balalar, əbəs yerə
Başlamadım bu söhbəti –
Sevin, duyun, təbiəti!

Qayaları canlı tarix,
Yazılıdır, naxışlıdır.
Çal papaqlı dağları var,
Çiskinlidir, yağışlıdır.
Daşları var, babaların,
Arxasıdır, səngəridir.
Qartalların qərargahı,
İgidlərin ləngəridir.
Kim unudar ömür boyu,
Bu vüqarı, əzəməti?
Sevin, duyun, təbiəti!

Meşələri ətirlidir,
Palıd, vələs, çinar, zoğal.
Çeşmələrə ayaq açan,
Ürkək əlik, kövrək maral.
Kığ, baldırğan, yemlik, çaşır,
Can dərmanı, yaz küləyi.
Səhər-səhər at belində,
Mahnı deyən meşəbəyi.
Hər gölün öz yaraşığı,
Hər bulağın öz ləzzəti...
Sevin, duyun, təbiəti!



Dənizləri göz işləməz,
Süzər qayıq, üzər gəmi.
Karvan-karvan balıq keçər –
Hərəsinin öz aləmi.
Dalğaları ağ köpüklü,
Nəhənglərin yatağıdır.
Dağ çayları, dağ selləri,
Mayasıdır, dayağıdır.
Altı dolu, üstü dolu...
Öz mədəni, öz sərvəti
Sevin, duyun, təbiəti!

Neçə şair, neçə rəssam,
Baharına olub aşiq.
Yayında istisinə,
Könül verib alışmışıq.
Sarı telli gözəl payız,
Hər açanda qapımızı.
Öz neməti, öz varıyla,
Şadlandırıb oğlu, qızı.
Ürəklərdən silinərmi,
Qışın da qış məhəbbəti...
Sevin, duyun təbiəti!

Hansı fəsil tez yaranıb,
Hansı fəsil tez doğulub.
Bu zamanın yollarında,
Dörd fəsil, dörd qardaş olub.
Bahar əkər, yay becərər,
Payız yığar, qış qoruyar.
Yer üzündə hər qardaşın,
Öz əməyi, öz işi var.
Canımızın qüdrətidir,
Odun, suyun hərarəti.
Sevin, duyun, təbiəti!

Bulaqlardan asta için,
Daş atmayın ağaclara.
Toxunmayın kəkliklərə,
Ceyranlara, turaclara.
Yuva edir, uçurmayın,
Hər yumurta bir baladır.
Bir quş üçün adi çöp də,
Bir çəpərdir, bir qaladır.
Bir çay itsə bir ölkənin,
İtər xeyri, bərəkəti.
Sevin, duyun, təbiəti!

Təbiətin övladıyıq,
Təbiət ən böyük ana.
Öz döşündən süd verir o,
Milyon-milyon yaranana.
Mənalıdır əzəl başdan,
İşığı da, küləyi də.
Dumanı da, tüstüsü də,
Dolusu da, şimşəyi də.
Ay balalar, unutmayın,
Dərk edin bu həqiqəti –
Sevin, duyun, təbiəti!

## ANA TƏBİƏT

*Təbiət alimi, təbiət vurğunu akademik*
*Həsən Əliyevə ithaf edirəm*

Ən böyük anadır təbiət bizə,
Ən ulu, ən qədim həyat aşığı.
Ümmanlar səbridir, dağlar vüqarı,
Qayalar alnının sərt qırışığı.

Günləri, ayları basıb bağrına,
Açıb qollarını fəsillər üçün.



Döşündən süd əmib ötən nəsillər,
Düşünür gələcək nəsillər üçün.

Torpaq yorulsa da torpaqdır yenə,
Yerin açılmamış neçə qatı var.
Qatlar neft qatları, qızıl qatları,
Hər qatın nə qədər ehtiyatı var.

Qayğıyla doludur ana təbiət,
Onun meyvəsini dadmayan varmı?
Təbiət özü də qayğıya möhtac,
Qayğısız varlıq da qanadlanarmı?

Süzür təyyarələr, uçur maşınlar,
Küçələr boyunca benzin qoxusu.
Zavod tüstüləri qıvrılıb qalxır,
Tüstülər havada zəhər ordusu.

Ağır hücumuna tozun, dumanın
Ürəklər, ciyərlər necə dayansın?
Xəbərdar eyləyin boz səhraları
Palıdlar oyansın, şamlar oyansın.

Meşələr seyrəlib, sular azalıb
Duraq təbiətin keşiyində biz.
Tablaya bilərmi bircə an belə
Balıqlar dənizsiz, quşlar meşəsiz?

Neçə yol amansız hökmünü duyduq,
Çöllərdə, düzlərdə yağışın, selin.
Yaşıl səngər kimi yaşıl ağaclar
Kəssin qabağını küləyin, yelin.

Məsəl var: – Anadır evin dirəyi,
Bir dirək yıxılsa bir divar yatar.
Ana təbiəti itirsək, əgər
Bir ev yox, bir kənd yox, bir dünya batar.

## DEMİR

Milyon naxış vurur bahar torpağa,
Güvənib hüsnünə: – Baharam, – demir.
Zirvə buz bağlayıb, bürünür ağa,
Donur axşam-sabah: – Donuram! – demir.

Palıd sakit qalxıb, səssiz boy atır,
Söyüd dirçəlməmiş özünü dartır.
Gölməçə harayı qulaq batırır,
Ümman dilə gəlib: – Mən varam! – demir.

Çətin gün həyatın imtahanıdı,
Yaxşını, yamanı tarix tanıdı.
Sınsa da igidin qolu, qanadı,
Sındırıb özünü: – Sınıram! – demir.

Tufanlar qoynunda sınaqdan çıxan,
Sağında, solunda şimşəklər çaxan,
Başından yüz dəfə tüstülər qalxan
Dağ yanır, bir dəfə: – Yanıram! – demir.

## MEŞƏLƏR

Bulud qaynayanda qaşının üstə
Gözündən yaş töküb, ağlar meşələr,
Şimşək oynayanda başının üstdə
Yaşıl sinəsini dağlar meşələr.

Atıb qar donunu qış çəkiləndə,
Çılpaq budaqlardan buz töküləndə,
Qızıl gözlərilə bahar güləndə,
Sellər, sular kimi çağlar meşələr.

Qədim şöhrətidir vətənin, elin,
Ən böyük arzunun, eşqin, əməlin.
Çiçək mövsümündə amansız yelin
Uğursuz yolunu bağlar meşələr.



Yarpaqlar dil açıb ötəndə pəsdən,
Turaca yuvadır, marala məskən.
Söyüdlə daranıb, düşməz həvəsdən
Palıdla özünü yoxlar meşələr.

Düz çıxıb ilqara Hüseyn Arif
Düşməyib kənara Hüseyn Arif
Dönsə bir çinara Hüseyn Arif
Onu ömrü boyu saxlar meşələr.

## BULAQ

Yol qırağında bulaq,
Sızır qaya döşündən.
Bir tərəfi ağaclıq,
Bir tərəfi göy çəmən.

Burda ayaq saxlayır,
Hər gün nə qədər insan.
Kimsədən xəbər almır:
– Nəçisən?
 – Haralısan?

Hamı üçün sevimli,
Hamı üçün sərindir.
Təbiət – duyanların,
Bulaq – içənlərindir.

## BİR OVUC TORPAQ

Ovcumda torpaqdır, bir ovuc torpaq
Günəş boyda işıq, ümman boyda su.
Fəsillər boylanır salamlaşaraq,
Gah payız qoxusu, gah yaz qoxusu...

Çeşmələr qaynayır, gur çaylar axır,
Mələyir cüyürlər, kişnəyir atlar.
Ovcumun içindən güc alıb qalxır,
Meşələr, çəmənlər, bağlar, bağatlar.

Ovcumda torpaqdır, bir ovuc torpaq...
Qaya ətri gəlir, daş ətri gəlir.
Bir ovuc torpaqda genişliyə bax,
Dərələr, təpələr, dağlar dincəlir.

Seçilməz əvvəli, görünməz sonu,
Bir dünya məhəbbət, bir dünya inam.
Qürbət ocağının həsrət odunu
Bir ovuc torpaqla söndürüb babam.

Vətən nə zümrüddür, nə yaqut, nə zər,
Qızıl bu gün məndə, sabah səndədir,
Əbədi özüllər, ədəbi köklər
Bir ovuc torpağın üzərindədir.

Ovcumda duyduqca bu hərarəti
Gözümdə nə qədər ulduz yanıbdır.
Nizami kamalı, Babək qüdrəti,
Bir ovuc torpaqla mayalanıbdır.

Onu düşünürəm, fikrimdə aləm,
İlk eşqim, son andım bu günə kimi.
Bir ovuc torpaqdan dönən deyiləm,
Bir ovuc torpağa dönənə kimi.

## BAHAR NƏĞMƏSİ

Aşıb qarlı dağları,
Gəlir bəzəkli bahar.
Sinəsi qızılgüllü,
Qoynu çiçəkli bahar.



Qucur yamacı-yalı,
Açır min təzə xalı.
Göy döşlü, zər yaxalı,
Qızıl ətəkli bahar.

Quşlar verir xəbəri,
Gəzir kəndi, şəhəri.
Döyür pəncərələri,
Sərin küləkli bahar.

Ot qalxıb dizə çıxır,
Hər nə var üzə çıxır.
Maşınla düzə çıxır,
Dəmir biləkli bahar.

Cana gəlir çöl-bayır,
Çəmənlər ətir yayır.
Aləmə nur paylayır,
Günəş ürəkli bahar.

## BƏNÖVŞƏLƏR

*Bənövşə xatirinə*
*Kol dibinə iz düşdü...*
***İlyas Tapdıq***

İlk baharda narın qarı
Dəlib keçər bənövşələr.
İnci kimi damlaları
Bir-bir içər bənövşələr.

Meh toxunar üzlərinə,
Nur ələnər gözlərinə.
Kol dibini özlərinə
Məskən seçər bənövşələr.

Ürək ondan necə doya!
Dözməz yaza, qalmaz yaya.
Vaxtlı gəlib bu dünyaya,
Vaxtsız köçər bənövşələr.

## KÖK VƏ BUDAQ

Budaq yavaş-yavaş qalxdı yuxarı,
Gözündə getdikcə dəyişdi aləm.
Arabir boylanıb kökünə sarı
Dedi: "Sən alçaqda, mən yüksəkdəyəm".

Həyatın öz hökmü, öz qanunu var,
Bu qədər lovğalıq əbəsdir, əbəs.
Bir kökün üstündə yüz budaq yaşar,
Yüz budaq bir kökü saxlaya bilməz.

## ZİRVƏDƏ BUZ ÜSTDƏ ÖLÜR DAĞ KƏLİ

Elə ki, yorulur qulağı səsdən,
Gözündə daralıb, kiçilir yol, iz.
Elə ki, qocalıb, düşür həvəsdən
Zirvəyə çəkilir səssiz-səmirsiz.

Elə zirvəyə ki, buz qayaları
Orda sana gəlməz, hesaba gəlməz.
Aranda bir günə əriyən qarı
Günəş əsrlərlə əridə bilməz.

Yavaşca söykəyib buza üzünü
Yatır, nə inilti, nə ah, nə aman.
Beləcə dağ kəli yumur gözünü,
Beləcə dağ kəli köçür dünyadan.

Neçə daş yarası, daş nişanəsi
Durur, ayağında, dırnaqlarında.
Ağzından son dəfə çıxan nəfəsi
Qalır buza dönüb dodaqlarında.

Buynuzlar kəllədə qoldan yoğundur,
Görüb tufanları, görüb selləri.



Buynuzlar necə də buğum-buğumdur,
Buğumlar kəllədə ömrün illəri.

Ağladanı bulud, yoxlayanı çən,
Göylər axşam-sabah dolub-boşalır.
O sərt buynuzları dindirib hərdən
Qartallar, quzğunlar hay-haray salır.

Üstünə ələnən birəm-birəm qar
Ağarır saçlara düşən dən kimi.
Düzülür boynuna inci damcılar
Düzülür muncuqlar düzülən kimi.

Elə ki, vaxtını bilir dağ kəli
Dərəyə, təpəyə, döşə burulmur.
Zirvədə buz üstdə ölür dağ kəli
Torpağa yük olmur, daşa yük olmur.

## AY DAĞLAR

Soyuyur cığırım, üşüyür izim,
Budaqda titrəyən yarpaq görünür.
Dərəyə enirəm, qatlanır dizim,
Zirvəyə qalxıram, uzaq görünür.

Fəsillər dolaşıq düşüb elə bil,
Yaz başa varmamış, yay gəlib keçir.
Zamanın cilovu əlimdə deyil,
Həftə üzülməmiş, ay gəlib keçir.

Həmişə döşünə döyən şairin
Təbibdən, dərmandan söz salır bu gün.
Dünən qocalmaram deyən şairin
Qocalır, ay dağlar, qocalır bu gün.

## GÖRƏN DAĞLAR MƏNSİZ QƏRİBSƏYİRMİ?

Verirmi hökmünü axşam küləyi?
Soyuqdan donurmu xəzan çiçəyi?
Ocağı qaralmış ocaq yerinin
Kəsirmi üstünü payız çisəyi?
Şimşəkdən od tutub paralanırmı
Qaralmış göylərin bulud örpəyi?
Alırmı ağzına dar dərələri
Gah enib, gah qalxan duman dənizi?
Ot-alaq basıbmı bu vaxta kimi
Enişdə, yoxuşda açdığım izi?

Aymı daldalanır, günəşmi batır?
Əlikmi tövşüyür, maralmı yatır?
Qartalmı qıy vurub qalxır qayadan,
Məğrur dağ kəlimi qaşını çatır?
Atlımı yolunu azıb keçiddə?
Nə əlim yetişir, nə ünüm çatır,
Möhnət sınağından keçə bilmirəm,
Bir anlıq yuxu da mənə naz satır.
Dağlarsız neyləsin dağlar həmdəmi?
Dağlarsız nə yaman qəribsəmişəm,
Görən dağlar mənsiz qəribsəyirmi?

## TƏBİƏT GƏTİRİR

Çiçəklər incəlik, güllər zəriflik,
Sünbüllər bərəkət gətirir bizə.
Dərələr dərinlik, düzlər genişlik,
Zirvələr əzəmət gətirir bizə.

Qayadan-qayaya toxundu dizim,
Buz üstə alışdı kömürüm, közüm,
Enişlər ehtiyat, yoxuşlar dözüm,
Dalğalar dəyanət gətirir bizə.



Şimşəyin havada şimşək zəngi var,
Selin sel, çayın da çay ahəngi var,
Bir qövsi-qüzehin neçə rəngi var, –
Naxışlar şeriyyət gətirir bizə.

Bulud ölkəsində, çən diyarında,
Göylər darlıq edir göy atlarında.
Səyyar duyğuların qanadlarında
Üfüqlər hərəkət gətirir bizə.

Hüseyn, ömrümüz təkər üstədir,
Qocalıq dövr edir, gənclik dövr edir.
Gedəni təbiət aparıb gedir,
Gələni təbiət gətirir bizə.

## YARAŞSIN

Göy geyindir, göy çəmənə çıxanda,
Yar çəmənə, çəmən yara yaraşsın!
Bağa girsin lalə rəngli xələtdə,
Səhər-səhər laləzara yaraşsın!

Xal düşməsin ürəyinə, beyninə;
Qoy gəlməsin dünya qəmi eyninə;
Ağ günündə ağ geyinsin əyninə,
Qara gündə ona qara yaraşsın!

Ay Hüseyn! Ömrü bada verme heç,
Bu dünyanı başdan-başa dolan keç;
Elə axtar, elə öyrən, elə seç
Sevdiyin qız hər paltara yaraşsın!

## NƏ VECİNƏ

Əli çiçək, ayağı gül,
Teli ipək, darağı gül.
Üzü qönçə, yanağı gül,
Boya onun nə vecinə?!

Günəş əridə dağları,
Əriməz sinənin qarı.
Başı buluddan yuxarı,
Dərya onun nə vecinə!

Nə fələyə, fələk deyir,
Nə illərə boyun əyir,
Yerişindən yer titrəyir,
Qaya onun nə vecinə.



Hər sözü duzlu-məzəli,
Yüz işvəli, yüz qəmzəli,
Sərxoşdur, dünya gözəli,
Dünya onun nə vecinə.

## YÜK OLAR

Söz demə, söz dəyər ona,
Fikri bölük-bölük olar.
Gözəldir, göz dəyər ona,
Fərəhi beşgünlük olar.

İpək telə əl yaraşır,
Tül bədənə tül yaraşır,
Gül yanağa gül yaraşır,
Güllər gülər, güllük olar.

Çəkmə arana dağlını,
Başlama gecə nağlını,
Özünə saxla ağlını,
Ağıl gözələ yük olar.

## GÖZƏLLƏRƏ

*(Zarafatyana)*

Gözəllər, söyləyin bu necə işdi,
Qiyməti şöhrətə, ada verdiniz?
Kədəri yaxının üstünə atıb,
Sevinci aparıb yada verdiniz?

Hər saxta gülüşə, hər yalan sözə,
Aldanıb düşdünüz dolaşıq izə.
Sonralar möhnətlə gəlib üz-üzə,
Ömrü közə tutub, oda verdiniz.

Buza döndü qələm, bozardı kağız,
Arxamı qış kəsdi, qarşımı payız.
Yüzünüz bir şair yaratmadınız,
Biriniz yüz şair bada verdiniz...

## SƏN DƏRSƏ GƏLMƏYƏNDƏ

Düşür yadıma hərdən
Məktəb həyatində mən
Yoluna göz dikərdim,
Qəlbim sızlardı birdən
Sən dərsə gəlməyəndə.

Durub-durub anardım,
Gizli-gizli yanardım.
Neçə dostun içində
Özümü tək sanardım
Sən dərsə gəlməyəndə.

Zəng səsi ucalardı,
Uşaqlar söz alardı...
Gözlərim boş masanda,
Fikrim çöldə qalardı
Sən dərsə gəlməyəndə.

Dözməyib buna, bəzən
Düşüb gah da həvəsdən,
Nə danım həqiqəti,
Qaçardım mən də dərsdən
Sən dərsə gəlməyəndə.

## GÖZLƏRƏM

Əzizlədim dönə-dönə,
Dönüb yenə əzizlərəm.
Yönün bəri düşər deyə,
Yolu, izi təmizlərəm.



Ovutmaq üçün ürəyi,
Bu sevgini, bu istəyi,
Torpaqda qızıl çiçəyi,
Göydə ulduzu izlərəm.

Söz var, qaşla, gözlə dedin,
Söz var, onu sözlə dedin,
Hüseynə: – Gözlə! – dedin
Ömür gözləsə, gözlərəm.

## SƏN MƏNİMLƏ GET

Ətirli bağçaya, şehli çəmənə,
Lilparlı bulağa sən mənimlə get,
Arabir dənizin dalıb seyrinə,
Yaxına, uzağa sən mənimlə get.

Gəzək obaları, gəzək elləri,
Hər kəndə, şəhərə sən mənimlə get.
Gəl bölək sevinci, bölək kədəri,
Həm xeyrə, həm şərə sən mənimlə get.

Haranı bəyənib seçəsi olsam,
Oraya, ey sənəm, sən mənimlə get.
Bir gün bu dünyadan köçəsi olsam,
Tək onda deməryəm sən mənimlə get.

## MƏN İNANMADIM

Dedilər: – Əhdini danır o ceyran;
Dedim: – Yalan olar! – Mən inanmadım.
Dedilər: – Qış gəlir, qayıt bu yoldan,
Əsdi yel, yağdı qar, mən inanmadım!

Dedilər: – Gözləmə o gülyanağı,
Dedim: – Ürəyimə çəkməyin dağı.
Dedilər: – Toyudur, bir axşam çağı,
Dindi saz, ötdü tar, mən inanmadım!

O vaxtdan ruhumu təklik sıxsa da,
Başqa bir gözəli salmadım yada.
Müqəssir sən oldun, çünki dünyada
Heç kəsə sonralar mən inanmadım!

## NƏ DEYİM

Qayıdıbdır fikir, xəyal içində
O fikirli dayanana nə deyim?..
Ayrılıqmı saçlarına salıb dən,
Peşimandır, peşimana nə deyim?

Uzun olur məhəbbətdə imtahan,
Nələr gəlib, nələr keçir xəyaldan.
Can söyləyib, can eşitdik bir zaman,
Heç bilmirəm mən o ana nə deyim.

Necə duydum hikmətini aləmin,
Tarixi var hər sevincin, hər qəmin.
Barış! – deyir dodaqları körpənin,
Siz söyləyin, indi ona nə deyim.

## YALAN OLAR, BU BOYDA YOX!

Qan üstündən qan eylədin,
Hamsını pünhan eylədin,
Könlümü talan eylədin,
Talan olar,
bu boyda yox!..

Deməlimi necə deyim,
Gündüz deyim, gecə deyim?
Keçdi ömrüm heçə deyim,
Olan olar,
bu boyda yox!



Dost dostdan halıdır, – dedin
Həyat səfalıdır, – dedin
Dünya vəfalıdır, – dedin
Yalan olar,
bu boyda yox!

## SÖYLƏ, YADINDAMI?

Söylə yadındamı o axşam çağı?..
Dinməyən mən oldum, dinən sən oldun.
İlk eşqin ocağı alovlanmamış
Sönməyən mən oldum, sönən sən oldun.

Doymamış sabahın tər nəfəsindən,
Sevdalı quşların təranəsindən,
Sözündən, əhdindən, iradəsindən
Dönməyən mən oldum, dönən sən oldun.

Pozuldu ilqarın, dəyişdi andın,
Torpaqda alışıb, havada yandın.
Axır gözlərinlə görüb inandın
Enməyən mən oldum, enən sən oldun.

## GÜNƏŞMİ ODLUDUR, SƏNMİ ODLUSAN

Baxıram səmaya, ay uzaq deyil,
İstəsəm mən ona çataram bu an.
Bəs sənə nədəndir əlim yetməyir,
De aymı uzaqdır, sənmi uzaqsan?

Baxıram ümmana, o dərin deyil,
İstəsəm sirrini öyrənərəm mən.
Bəs nədən qəlbini duya bilmirəm,
Ümmanmı dərindir, sənmi dərinsən?

Baxıram günəşə, yanmayır canım,
Dünyada hər şeydən güclüdür insan.
Nə üçün gözlərin əridir məni,
Günəşmi odludur, sənmi odlusan?

## LƏZZƏT ÇƏKİR

Qızaranda üfüq, söküləndə dan,
Meh öpür yanaqdan, üz ləzzət çəkir.
Qaya kölgəsində, çeşmə başında,
Ocaq tüstülənir, köz ləzzət çəkir.

Həyat bir ustaddır öz əsəri var
Könüldə nə qədər dərdi-səri var.
Adi kəlmənin də öz kəsəri var,
Alim kəlamından söz ləzzət çəkir.

Çox gəzdin elləri Hüseyn Arif,
Qoxladın gülləri Hüseyn Arif,
Sözün müxtəsəri Hüseyn Arif,
Gözələ baxanda göz ləzzət çəkir.

## MƏNİM

Nəfəsi gül qoxulu,
Bahar ətirlim mənim.
Sinəsi sözlə dolu,
Sirli, sehrlim mənim.

Fikri, xəyalı düzgün
Hüsnü, camalı düzgün
Əqli, kamalı düzgün,
Dərin fikirlim mənim.

Gözdən inci süzmə gəl,
Yad hökmünə dözmə gəl,
Ümidini üzmə gəl,
Dərya səbirlim mənim.



## SOYUQ DƏYƏR SƏNƏ

Sonasan, qıymaram gölə,
Göldə soyuq dəyər sənə.
Gül yanında dönmə gülə,
Güldə soyuq dəyər sənə.

Uyma özgə əməlinə,
Qoşulma qıza, gəlinə.
Düşərsən yaman dilinə,
Dildə soyuq dəyər sənə.

Bu nə arzu, bu nə dilək,
Alışıram ürək-ürək.
Tül bədənə tül nə gərək,
Tüldə soyuq dəyər sənə.

Çəkmə darağa telini,
Kəmərlə sıxma belini,
Əldə saxlama əlini,
Əldə soyuq dəyər sənə.

Hüseyn Arif, bu nə sirr?
Vədə ötür, vaxt tələsir.
Könlümə köç, külək əsir
Çöldə soyuq dəyər sənə.

## QOYMAYIN

Meşələr, qoymayın itsin bulaqlar,
Çeşmələr pozulsun, çaylar pozulsun.
Nəğmələr, qoymayın sussun dodaqlar,
Qayalar, qoymayın qartal yorulsun.

Lalələr, qoymayın düzlər boş qala,
Buludlar, qoymayın göylər boşalsın.
Çiçəklər, qoymayın bülbül lal ola,
Gözəllər, qoymayın şair qocalsın.

## YORULDUM

Düzlər keçdim, dağlar aşdım aramsız,
Nə aranda, nə yaylaqda yoruldum.
Keçidləri, dolayları yoxladım,
Nə yaxında, nə uzaqda yoruldum.

Ayaqlarım keçdi daşda, qayada,
Nə enişdə, nə yoxuşda yoruldum,
İsti, soyuq heç varmadım fərqinə,
Nə boranda, nə yağışda yoruldum.

Bir söz dedin,
ümidimi itirdim,
Geri döndüm, yaman halda yoruldum.
Nə çox, nə az,
beş addımdır aramız,
Sizdən bizə gələn yolda yoruldum.

## DEDİM, DEDİ

Dedim: – Telin nə gözəldir!
– Yox-yox, ona dəymə! – dedi.
Dedim: – Nə vaxt gəlim sizə?
– Qapımızı döymə! – dedi.

Dedim: – Nədir bu işvə-naz?
Dedi: – Yeri, şerini yaz!
Dedim: – Ay qız, belə olmaz.
– Get oğlan, baş əymə! – dedi.

Dedim: – Qövr eləyir yaram.
Dedi: – Sənlə yoxdur aram.
Dedim: – Axı, sənətkaram,
– Çox özünü öymə! – dedi.



## OLMASIN

*Sevən ala sevdiyini dünyada,*
*Mən şah olsam belə divan eylərəm.*
***Aşıq Kərəm***

"Sevən ala sevdiyini dünyada"
Belə dedi, yanıq Kərəm belə, bax.
Əsli sevdi, Kərəm sevdi nə fayda?
Keşişdəki fitnəyə bax, felə bax.

Əsli yandı, Kərəm yandı bu dağdan,
İki canlı iki ovuc kül oldu.
Çox keçmədi baş qaldırıb torpaqdan,
İki könül iki zərif gül oldu.

Gül gül ilə qovuşmağa başladı,
Ata olan xəbər tutub bir anda.
Onu sağa, bunu sola tuşladı
Qara keşiş qara tikan donunda.

"Sevən ala sevdiyini dünyada"
Ürək gözlə, baxış yaşla dolmasın,
Əsli olsun, Kərəm olsun, arada
Qara keşiş, qara tikan olmasın.

## BİR ADƏTDİR ŞAİRLƏRDƏ SEVGİLİM!

Yadımdadır yanında ilk zaman mən
Danışmayıb dərin fikrə gedərkən,
Kədərlənib soruşardın: – Nə oldu,
Nədən yenə nitqin belə tutuldu?
Deyərdim ki, düşmə dərdə, sevgilim!
Vəcdə gəlib öz qəlbini dinləmək
Bir adətdir şairlərdə, sevgilim!

Gecə yarı dincəlməyib yataqda,
Asta-asta gəzinəndə otaqda,

Kədərlənib soruşardın: – Nə oldu,
Səhər deyir, dincəlsənə nədir bu?
Deyərdim ki, düşmə dərdə sevgilim!
Vaxtlı-vaxtsız yuxusundan ayılmaq
Bir adətdir şairlərdə, sevgilim.

İllər ötdü, dəyişmisən daha sən,
Oxuyursan ürəyimi gözümdən.
– Yazım! – deyə mən dinəndə nə zaman
Öz əlinlə dəftərimi açırsan,
Gah axşamdan otursam da sübhədək,
Düşməyirsən daha dərdə, sevgilim!
Bilirsən ki, belə hallar əzəldən
Bir adətdir şairlərdə, sevgilim!

## DARIXDIM SEVGİLİM, DARIXDIM YAMAN

Moskva genişdir, Moskva gözəl,
Tərifə layiqdir onun hər yeri.
Burda min-min ürək, burda min-min əl
Yaratmış nə qədər sənət əsəri...
Lakin fikrim məni çəkir Bakıya
Öz evim-eşiyim çıxmır yadımdan.
Darıxdım sevgilim, darıxdım yaman!

Bahardır, söykənib yarpağa yarpaq,
İnsanla sevinir, gülür çöl, bayır.
Ötən qız-gəlinlər içində, ancaq
Gözüm səni gəzir, səni arayır.
Hanı səhər-axşam dəmlədiyin çay,
Bütün yorğunluğum çıxa canımdan,
Darıxdım sevgilim, darıxdım yaman!

Uşaqlar gözümün qabağındadır,
Arifin gülüşü hey düşür yada.
Şirin musiqi tək qulağımdadır



Səhərin, Zöhrənin hay-harayı da.
Ailə həsrəti ağır olurmuş
"Darıxma!" yazsan da mənə hər zaman,
Darıxdım, sevgilim, darıxdım yaman!

## TAPDIM-İTİRDİM

Ayrıldım, ayrılmaq istəməsəm də,
Bir həyat neməti tapdım-itirdim.
Məni qınamayın acı desəm də –
Şəkəri, şərbəti tapdım, itirdim.

Varmı mənim kimi dərd çəkən aşiq,
Dönüb zülmət oldu gözümdə işıq,
Hanı o şirin dil, o xoş danışıq,
Hər sözü-söhbəti tapdım-itirdim.

Üstümə gülməsin yaxınım, yadım,
Şair çağrılsa da həyata adım,
Necə indən belə yazım, yaradım,
Şeri, şeriyyəti tapdım-itirdim.

## HEYİFİM GƏLDİ

Oğrun-oğrun baxdın yana,
Gözünə heyifim gəldi.
Busə verdin bir nadana,
Üzünə heyifim gəldi.

Yaman yerdə can darıxdı,
Ağrılar qəlbimi sıxdı,
Dilindən bir yalan çıxdı,
Sözünə heyifim gəldi.

Bağ saralıb, çəmən solub,
Göy dərələr çənlə dolub,
Hüseynə olan olub,
Özünə heyifim gəldi.

## SƏNSƏN

Qırılan qələmim, yanan kitabım,
Yazısı saralmış varağım sənsən.
Dağılan hasarım, atılan qapım,
Gözümdə qaralan çırağım sənsən.

Sinəmdə dövr edib qopan tufanım,
Üşüyən ürəyim, alışan canım,
Alovdan qovrulan yazıq aranım,
Dumandan ağlayan yaylağım sənsən.

Köməşən ayağım, tutulan dizim,
Saralan yanağım, solan bənizim,
Qar bağlayan yolum, buz tutan izim,
Közü külə dönmüş ocağım sənsən.

Tükənən istəyim, bitən sevincim,
Çəkilən marağım, ötən sevincim.
Tapılan kədərim, itən sevincim,
Gövdədən üzülən budağım sənsən.

Möhnət dalğa-dalğa, qəm axın-axın,
Hüseynin gününə, ayına baxın;
Könlümə həyatda yaxından yaxın,
Ömrümə uzaqdan uzağım sənsən.

## LƏZGİ QIZI

O tər yanaqların qızaran zaman
Süzülə-süzülə gözlərin gülür.
Sanki Şah dağının çəmənzarından
Çiçəklər toplanıb, çələng hörülür.

Açanda yaxanı ağ təmiz əllər,
Ağ sinə dağların ağ zirvəsimi?!
Çiyninə tökülən qızılı tellər
Payızın qızılı hədiyyəsimi?!



Dinlədim səsini çay qırağında,
Bu səs şırşırların şaqraq səsimi?!
Ətirli nəfəsin səhər çağında
Şeh dolu çəmənin gül nəfəsimi?!

Başına çəkəndə mavi örpəyi
Mavi göylərdimi yellənən bu dəm?
Sən göy geyinəndə, bu gözəlliyi
Bahara dəyişib, yaza vermərəm.

Gözəllik – hərarət, gözəllik – atəş
Gözəllik – ilhamdır, ruhdur, diləkdir.
Gözəl qız səmada parlayan günəş,
Torpaqda boylanan təzə çiçəkdir.

Üzün bozaranda hökmün qətidir,
Qəzəb dalğaları qalxar dərindən.
Zəhmli baxışlar sərtdir, itidir,
Ləzgi babaların xəncərlərindən.

Səadət hər ömrə gülməz cahanda,
Bilmirəm nahaqsan, bilmirəm haqsan.
Yüz qəlbi küsdürüb, yaralasan da,
Bir qəlbi dindirib, oxşayacaqsan.

Zamanın köhləni yeyindən yeyin,
Başımın üstündən illər ötüşdü.
Heyif, ləzgi qızı sənin gəncliyin
Hüseynin qocalan vaxtına düşdü!

## ELƏ BUNA GÖRƏMİ?..

Sən zirvəyə baxardın, zirvədəki qalaya
Qartallar qonub hərdən başlardı hay-haraya.
Mən çaya göz qoyardım, dərəyə enən çaya –
Bəlkə ona görə də sən zirvə, mən çay oldum.

Sən günəşi süzərdin dan yeri söküləndə,
Günəş yerdə gülərdi baxışların güləndə.
Mən ayı seyr edərdim çən, çiskin çəkiləndə
Bəlkə ona görə də sən Günəş, mən Ay oldum.

Sən Əslini sevərdin, mənsə Yanıq Kərəmi.
Sən Tellini anardın, mən yaralı Dilqəmi.
Ey ilk, son məhəbbətim, elə buna görəmi
Nə sən mənə qovuşdun, nə mən sənə tay oldum.

## OLLAM

Səninlə nur saçar əqlim, kamalım
Sənsiz göydə bulud, dağda çən ollam.
Səninlə açılar fikrim, xəyalım
Gülməsən kədərli, gülsən şən ollam.

Az deyil dostluğun qədrini bilən,
Dosta dost kimi bax, dost kimi dillən.
Ancaq düşmənimlə düşmən olma sən,
Dözən hər döyüşdə təkcə mən ollam.

Ayları, illəri salsam da yola,
Yaşaram könlümün öz arzusuyla,
Bir zərrə şəfəqlə, bir damcı suyla
Bir qarış torpaqda bir çəmən ollam.

Sınaq meydanında seçilər insan,
Enişlər, yoxuşlar gəlməsin asan
Bircə sən adını təmiz saxlasan,
Mən ölən günəcən Hüseyn ollam.

## BİRİ SƏNSƏN, BİRİ MƏN

İki körpə su içir
Bir çeşmənin gözündən –
Biri sənsən, biri mən.
İki uşaq yollanır



Məktəbə səhər tezdən –
Biri sənsən, biri mən.
İki gənc toy eləyir,
Qəlblər vurur fərəhdən –
Biri sənsən, biri mən.
İkisi tutub gedir
bir körpənin əlindən –
Biri sənsən, biri mən.
İki bəxtəvər qoca
Əyləşib söhbət edir
Ömrün ilk günlərindən –
Biri sənsən, biri mən.

## XATIRLA MƏNİ

Sevirəm çəməndə gülü, çiçəyi,
Gələndə ilk bahar xatırla məni!
Öpsün alınları dağlar küləyi,
Güləndə ruzigar xatırla məni!

Torpağı bəzəsin bənövşə, nərgiz,
Ruhuma doğmadır hər cığır, hər iz,
Geniş sinəsini açsın göy dəniz,
Dinəndə dalğalar xatırla məni!

Fəsillər dolanıb, ötdükcə zaman,
Vaxt olur həyatda dəyişir insan.
Mən səni unudan deyiləm inan,
Sən də, ey gözəl yar, xatırla məni!

## İNCİYƏRƏM MƏN

Yaz fəsli çəməndə üzün gülməsə
Hər güldən, çiçəkdən inciyərəm mən.
Azca yanağının rəngi dəyişsə,
Bu çəndən, çisəkdən inciyərəm mən.

Dolan, gəz elləri cavan yaşında,
Yanında cəm olsun yar-yoldaşın da.
Dağılsa tellərin bulaq başında
Dağlarda küləkdən inciyərəm mən.

Həm sevinc görmüşəm yolunda, həm qəm,
Yüz dəfə hökmünü dəyişib aləm.
Arabir yanılıb xətrinə dəysəm
Sinəmdə ürəkdən inciyərəm mən.

## KEÇİB

Gözünə baxıram, durudan duru,
Duruluq gözünə bulaqdan keçib.
Üzünə baxıram, işıqlı, nurlu,
Nur günəşdən qopub, çıraqdan keçib.

Ətirli güllərdə ətirli bağlar,
Qızıl lalə kimi qızıl yanaqlar.
İçindən alışıb, yanır dodaqlar
Ürəyin istisi dodaqdan keçib.

Əlin hərarəti elə şirindir,
Gəlişin, gedişin elə şirindir.
Səsin ona görə belə şirindir
Sənə bu şirinlik Qazaxdan keçib.

## BİRİ MƏNƏM, BİRİ KİM?

Bir məqamda üç cağlayan görmüşəm,
Biri mizrab, biri pərdə, biri sim.
Bir aləmdə üç çağlayan görmüşəm,
Biri mənəm, biri sənsən, biri kim?

Qartal olsam qanadımı salardım,
Palıd olsam, böyrü üstə qalardım.



Bir dağ olsam, yanıb külə dönərdim.
Günəş olsam bir nəfəsə sönərdim,
İnsan idim yavaş-yavaş əridim.

Gözdən uzaq, qəlbə yaxın olan yar,
Bu dünyada üç sinəsi dağlı var –
Biri mənəm, biri sənsən, biri kim?

Günəş olsam birdən-birə sönərdim,
İnsan idim, yavaş-yavaş əridim.

## SƏNİ UNUDA BİLMƏRƏM

Ay dolanar, il dolanar
Səni unuda bilmərəm.
Könül yanar, can odlanar
Səni unuda bilmərəm.

Yaz üzülə, payız keçə,
İstər gündüz, istər gecə
Necə gözəl gəlib keçə
Səni unuda bilmərəm.

Sözün saxladı sözümü,
Gözün ovladı gözümü
Unutmayınca özümü
Səni unuda bilmərəm.

## ARASINDA

Sən gəzərsən, a bəxtəvər
Çiçəklə gül arasında.
Mən qalmışam səhər-səhər,
Alovla kül arasında.

Gülüşündən gül çilənir,
Yanaqların qönçələnir.
Tər bədənin cilvələnir
İpəklə tül arasında.

Dost aralı, yad yaxındı,
Kim gedib kimə sığındı.
Hüseyn Arif, nə qırğındı
Gözlə könül arasında.

## AY OĞUL

Ötən çağını düşünək,
Gələn çağını, ay oğul.
Möhnət solumu qurudub,
Həsrət çağımı, ay oğul?

Bəxt ulduzu axdı ömrün,
Ümidini yıxdı ömrün.
Qarasımı çoxdu ömrün,
Görən ağımı, ay oğul?

Arifi nələr ağrıdır,
Eniş çətin, yoxuş ağır.
Ata dağını ağırdır,
Oğul dağını, ay oğul?..





## QARTAL QANADI

Gördü ala qarğa bir axşamçağı,
Qartal yaralanıb ağır gündədir.
Qopub qayalardan iti caynağı,
Sərilib torpağa can üstündədir.

– Aha, yaman yerdə düşdü yadıma,
Başını bədəndən üzərəm! – dedi.
Onun qanadını öz qanadıma,
Calayıb göylərdə süzərəm, – dedi.

Ucalmaq qarğaya qismət olmadı,
Yox, belə şeylərdən kar aşarmı heç?
Qarğa ürəkliyə qartal qanadı,
Ay ellər, siz deyin, yaraşarmı heç?!.

## DAHA YAXŞIDIR

Torpağın bulanıq min-min suyundan,
Bir duru bulağı daha yaxşıdır.
Yüz söyüd gövdəsi xatırlayınca,
Bir palıd budağı daha yaxşıdır.

Yoxlayıb həyatı duydum dərindən,
Götürdüm yükümü xeyir-şərindən.
İnsanın bicindən, hiyləgərindən,
Heyvanın axmağı daha yaxşıdır.

Uzaq ol meydanda dil savaşından,
Oğrunca atılan cahil daşından.
Donuz kəlləsindən, dana başından,
Ceyranın ayağı daha yaxşıdır.

Namərd məclisində sözünü gözlə,
Dursan kül yanında gözünü gözlə.
Tülkü quyruğundan özünü gözlə,
Qartalın caynağı daha yaxşıdır.

Hüseyn, qəm yeyib kədərlənmə sən,
Artıb çoxalsa da saçlarında dən.
Çaqqalın kef çəkib gəncləşməsindən,
Şirin qocalmağı daha yaxşıdır.

## İNANMA

Gizli pıçıltılar gəzdi arada,
Qızılın qiyməti artacaq bu il.
O dedi,
bu dedi.
Dedim: – İnanma.
Arvad söhbətidir, həqiqət deyil.

– Ətin də, südün də artır qiyməti,
Sonralar talonla tapılacaqdır.
– Arvad söhbətidir, arvad söhbəti,
Bu da uydurmadır, bu da nahaqdır.

Gəzdi pıçıltılar eldə, obada,
Filanın yerinə filankəs gəlir.
– Arvad söhbətidir, dedim, inanma,
Onu kim danışır, onu kim bilir?

Gəzdi pıçıltılar eldə, obada,
Qonşular göz dikib torpağımıza.
Bu dedi, o dedi, dedim, inanma,
Arvad söhbətidir, salma ağıza.

Necə deyilmişdi elə də oldu,
Haqqı malalayıb, olanı danma.
İndi hünərin var, ay atam oğlu,
Arvadların kitabına inanma.



## MİN ŞÜKÜR

Tüstü məni elə boğdu şəhərdə,
Dağın, daşın dumanına min şükür.
Külək qopdu, toz torpağa qarışdı,
Çölün, düzün tufanına min şükür.

Ağrı canı yandıranda, yaxanda,
Başım üstdə dəli şimşək çaxanda.
Dərman içdim, bu dərmana baxanda,
Nənələrin dərmanına min şükür.

Nədən belə dəyişibdi təbiət,
Nə meyvədə o şirinlik, o ləzzət.
Bir məclisdə şərbət gəldi, nə şərbət,
Tərəkəmə ayranına min şükür.

Ürəyimdə nə bir nisgil, nə bir ah,
Sahil boyu gəzişirdim bir səhər.
Adam çıxdı qabağıma, ay Allah,
Qabandağın qabanına min şükür.

Hüseyn Arif, nə deyəsən bu anda,
– Yandım! – deyir yanmayan da, yanan da.
Alim gördüm, bu alimin yanında,
Ceyrançölün çobanına min şükür.

## SƏN DƏ SUS

Asta tərpət ayağını, əlini,
Yaxşı susur, yaman susur, sən də sus.
Vaxtlı-vaxtsız işə salma dilini,
Qanmaz susur, qanan susur, sən də sus.

Palıd qopur bircə anın içində,
Gözdən itir dağ-dumanın içində.
Yar-yoldaşın, el-obanın içində,
Enən susur, qalxan susur, sən də sus.

Bilirsənmi kim izləyir, kim güdür,
Kor yapalaq qızıl quşu ürküdür.
Güman etmə bu tülkü o tülküdür,
Pələng susur, aslan susur, sən də sus.

Xeyri nədir, yeri, göyü soraqla,
O kitabı, bu kitabı varaqla.
Öz-özünə ha gurulda, ha çağla,
Dərya susur, ümman susur, sən də sus.

Dar məqamda nə ordular basılıb,
Qancırğadan qanlı başlar asılıb.
O yerdə ki, bir-birinə qısılıb,
Qartal susur, tərlan susur, sən də sus.

Nə kamala, nə vicdana güvənmə,
Saf ürəyə, sağlam cana güvənmə.
Bu dəvaya, o dərmana güvənmə,
Görürsən ki, loğman susur, sən də sus.

Qəm ürəyə, fəğan dilə yazıldı,
Sevinc bəmə, möhnət zilə yazıldı.
Hüseyn Arif, yazı belə yazıldı,
Zaman susur, dövran susur, sən də sus.

## BU DÜNYA DÜZƏLSƏ...

Uzanır axşamdan sabaha qədər
Pünhani pıçıltı, xudmani söhbət.
Bilmirəm dost kimdi, düşmən hansıdı,
Bu necə məhəbbət, bu necə nifrət?!

Zamana bulanıb, vaxt qarışıqdı,
Hər şey göz önündə açıq-saçıqdı.
Qapı nə örtülü, nə də açıqdı
Atüstü ehtiram, atüstü hörmət.



Bu nə haqq-hesabdır, bu nə üsuldur,
Verməyə tələsir alıcı quldur.
Katibi maşında bir "saldat" tutur,
Qəribə vəzifə, qəribə xidmət...

Uçuruq şan-şöhrət havasına biz,
Baxmayıb ağına, qarasına biz
Elə haram qatdıq mayasına biz,
Bu dünya düzəlsə atama lənət.

## XALQSIZ XALQ ŞAİRLƏRİ

Bir həyat şairi var.
Bir də vaxt şairləri.
Eldən, gündən xəbərsiz
Saray, taxt şairləri.

Biri haqqa daş atar,
Biri kölgədə yatar,
Kim sevib, kim yaşadar
Bu bədbəxt şairləri.

Biri var, üzdəniraq
Haça dil, hazıryaraq
Qapı-baca, künc-bucaq
Əl-ayaq şairləri.

Hüseyn Arif, nə xəbər
Nə qədərmiş, nə qədər
Başsız başa keçənlər
Xalqsız xalq şairləri.

## ƏBƏDİ SƏADƏT

Qartalı dostları saxlayıb bir an,
Dedilər: – Qəribə gəlhagəldi bu?
Sərçə, kitab yazıb ala qarğadan,
Bir ayın içində namizəd oldu.

Hazırdır toyuğun "elmi əsəri"
Onu da böyüdüb qaldıracaqlar.
Sən elə süzürsən tutub göyləri,
Hərənin bir adı, bir rütbəsi var.

Qartal gülümsəyib söylədi bu dəm:
– Uçmaq ilk eşqimdir, ilk niyyətimdir!
Öz qartal adımı yaşada bilsəm,
Bu mənim əbədi səadətimdir.

## HƏMZƏ

Sən ömründə
bir dəfə
yanıldın, ay Koroğlu.
Qırı verib əlindən
Elə bil Çənlibeldə
tək qaldın, ay Koroğlu.
Dəlilər məlul-müşkül,
Gizli-gizli Nigarın
Ala gözləri doldu.
Eyvazın nərəsinə
Ayıldın, ay Koroğlu –
Döyüşə atılanda
Bilirdin bərk ayaqda
Titrəmə var, lərzə var.
Hansı yolda qasırğa
Hansı dərədə qovğa,
Hansı döşdə şir yatıb,
Hansı düzdə gürzə var.
Bilirdin meydandakı
Bəydir, xandır, paşadır
yadlar çiyin-çiyinə
Düşmənlər baş-başadır...
Qılınc-qalxan, nizə var,



Bilirdin Giziroğlu
Arxadan nişan almaz.
Mərdlə mərd arasında.
Mərddə mübarizə var.
Qırı verib əlindən
Dürü alanda bildin
Dünya o dünya deyil,
Dəyirmanda Həmzə var.
Ordular qanırmayan
Qəhrəmanın qolunu
Qanırdı bircə Həmzə,
İndi neçə Həmzə var –
Özü də necə Həmzə.

## QOCA NAZİR

Doğrudan da, zor kişidir, zor ağa,
Arxasında zor dayı var, zor qağa.
Yığdığını yer tapmayır yığmağa.
Aldığını gec alınır ki, gec alınır.

Müavinlər kötəklənər, kütləşər,
Rəislərin ürəyinə xal düşər.
Addımbaşı buna böhtan, ona şər,
Bir nəfər də ucalmır ki, ucalmır.

Arvad köçdü, qız qarıdı, özü saz,
Beləsinə payız da yaz, qış da yaz.
Təzə xanım, təzə işvə, təzə naz,
Şikarından o qalmır ki, o qalmır.

İllər ötdü, qərinələr qocaldı,
Dağda palıd, bağda çəpər qocaldı.
Aman allah, katibələr qocaldı,
Qoca nazir qocalmır ki, qocalmır.

## ALİM VAR...

Alim var, kosmosa tutub üzünü,
Parlaq ulduzların batır içində.
Alim var, qırx ildir yumub gözünü,
"Poçt qutusu"nun yatır içində.

Alim tanıyıram, qoca Qafqazın
Çeşmə tək durulub dibindən çıxır.
Alim var, sol əli Salman Mümtazın,
Sağ əli Hümbətin cibindən çıxır.

Alim var, görəndə gözlərin gülür,
Deyirsən: – Nə gözəl, nə mehribandır.
Alim var, dinəndə ətin tökülür,
Alim tanıyıram, Allah amandır!..

## QARTALLA SÖHBƏT

Dağlara getmişdim qoca dağlara,
Ürək təzələndi, ruh təzələndi.
Getmişdim vüqarlı, uca dağlara,
Bir qartal qıy vurub havadan endi.

İstəklilər kimi, əzizlər kimi
Bəzən qartalla da dərdləşir insan.
Bir də hərarətlə sıxıb əlimi
Dedi: – Dağlar oğlu, xoş buyurmusan.

Bura öz evindir, öz məskənindir,
Ruhuna doğmadır cığırlar, izlər.
Dindirmək istəsən tək məni dindir,
Sözlər eşidərsən, qəribə sözlər...

Fili apardılar sığallayaraq,
Şir də yaman yerdə çaş-baş qalıbdır.



Artistin fəndinə, əməlinə bax
Pələng qağanı da bəndə salıbdır.

Bir dəfə geriyə addım atmayan,
Əzəl gəzdiyi tək gəzə bilirmi?
Çöllərdə, düzlərdə qərar tutmayan,
Sirkdə qərar tutub dözə bilirmi?

Hərə bir tor atıb, bir tələ qurur,
Dəyişir varlığın xilqəti, rəngi.
Qamçıyla oturub, qamçıyla durur.
Qayalar pələngi, daşlar pələngi.

Necə söyləyəsən yaxına, yada,
Belə oyunlardan kar aşarmı heç?!
Tülküylə, çaqqalla bir meydançada
Təlxəklik pələngə yaraşarmı heç?!

Saxta gülüşlərdən, tərpənişlərdən,
Çoxları başadək xoşlanacaqmı.
Gah da öz-özümə deyirəm görən,
Kəməndlər bizə də tuşlanacaqmı?..

Başımız üstündə sıxlaşdı bulud,
Həyəcan içində ayağa qalxdım.
Çökdü aramıza bir anlıq sükut,
O məni seyr etdi, mən ona baxdım.

Düşündüm alnımı ovuşduraraq,
Dərk edə bilməyən, qoy dərk etməsin.
Cəsarətə ümid, cürətə maraq
Ana təbiətə inam itməsin.

Minnətçi olmadım həyatımda mən,
Oldumsa, üzümə aşkara deyin.
Bircə xahişim var, pələngi sirkdən,
Hüseyni iclasdan azad eyləyin.

## YORĞUN VAXTIDIR

Oynama Qızlarxan,
Elə oynama,
Könül qubarlanar,
tutqun vaxtıdır.
Çiçək yanaqların ətir saçsa da,
Mənim çəmənimin solğun vaxtıdır.
Son bahar hökmünü verəndən bəri
Dağa qar ələnir,
çovğun vaxtıdır.
Vələslər, cökələr bükmüş boynunu,
Sellərin, suların durğun vaxtıdır.
İsmayıl Şıxlının qocadan qoca,
Hüseyn Arifin
yorğun vaxtıdır.

## DEMİRƏM, DEYİRƏM!

Demirəm, bəsindir məhdud bir həyat,
Zövqsüz, ilhamsız dolasan yaşa.
Demirəm, qınına çəkilib pas at,
Dünyada dünyadan xəbərsiz yaşa.

Demirəm, bir küncdə çürüsün ömür,
Təkcə özünə bax, özünü dindir.
Demirəm, nəyinə lazımdır Luvr,
Eyfel qülləsinin mənası nədir?!.

Demirəm, Berlini, Bağdadı gəzmə,
Şərqin Şərq, Qərbin də Qərb aləmi var.
Biləsən nə qədər Yer üzərində
İnsan sevinci var, insan qəmi var.

Demirəm, Motsartı, Baxı dinləmə,
Tək sədəfli sazın yapış telindən.



Vurğundan dedinsə, Bayrondan demə,
Bunu deməmişəm, demərəm də mən.

Deyirəm, xəbərin varmı, de sənin
Mil necə dəyişib, Muğan necədir?
Seyrinə daldınmı de Daşkəsənin,
Lənkəran necədir, Salyan necədir?

Deyirəm, ömründə atlı, piyada,
Bir körpü üstündən keçdiyin varmı?
Bir yol Dəli dağı gətirib yada,
Ceyran bulağından içdiyin varmı?

Seçə bilərsənmi görsən bir dəfə
Qarağat kolundan pambıq kolunu?
Yolunu saldınmı Ağdam tərəfə?
Tapa bilərsənmi Qaxın yolunu?

Qədim Qarabağda Yetim segahı
Elin məclisində dinləmisənmi?
Kərəmin fəryadı, Dilqəmin ahı,
Ruhunu yaxıbmı bu vaxta kimi?

Düşünmək istəsən dərindən düşün,
Zatına bələdik, çox da şişmə sən.
Özünü özgəyə tanıtmaq üçün
Dəyişib rəngini özgələşmə sən.

## QOCALIQ

Nə eşqi, ülfəti gətirər yada.
Nə hüsnü, camalı anlar qocalıq.
Vaxtsız haray çəkən xoruzlar kimi
Gündə bir bağçada banlar qocalıq.

Nə xeyri, qaç, yüyür, dalından çatar,
Ayağından qapar, qolundan tutar.

Gecəli-gündüzlü qəsdinə yatar,
Hər yerdə üzünü danlar qocalıq.

Əzəldən nə qanıb, nə də qandırıb,
Abad könülləri yaxıb-yandırıb.
Hüseyn Arifə nəsə qandırıb,
İsmayıl Şıxlını yanlar qocalıq.

## ÜZÜYOLA ŞAİR

Dostum! – deyə xatırlama onu sən
Keç başından başa bəla şairin,
Axşam-sabah "böyüklərin" yanında
Dili şirin, üzüyola şairin.

Açılmayan qapılara iz açar,
Kirpikləri tərpənməmiş göz açar,
Neçələri hünərindən söz açar
Qolu yekə, özü bala şairin.

Müxənnətdir, körpüsündən keçilməz
Ağıllıdır quyusundan içilməz,
Kişiliyi, qadınlığı seçilməz,
Bir gün dayı, bir gün xala şairin.

İçi boşdur şoran yurdun qozu tək,
Zəhlə tökər torpaq yolun tozu tək,
Damağını özü yalar quzu tək,
Yaman çatıb ağzı bala şairin.

Gəl Hüseyn, ürəyini sıxma sən,
Şimşək olub, hər meydanda çaxma sən,
Əbəs yerə qabağına çıxma sən,
Özü orta, bəxti əla şairin.



# ÜMUMİ ŞEİRLƏR

## XALQIMA

Sən rəngi bozarıb, ətri qaçmayan,
Bir əlvan çəmənsən,
mənsə bir çiçək.
Sən məğrur səsini dünyaya yayan
Bir coşqun ümmansan,
mən bir damla tək.

Sən dərin göylərin günəşi, ayı,
Yurdumda alışan bir çırağam mən.
Sən min bir zirvədən qalxan dağ çayı,
Qoynuna tələsən bir bulağam mən.

Sən nurlu gündüzsən üfüq qucaqlı,
Yenicə oyanan bir səhərəm mən.
Sən qədim tarixsən sirli, soraqlı,
Yarımçıq yazılı bir dəftərəm mən.

İsti nəfəsinlə qızınmışam mən,
Sevincim də oldu, qəmim də oldu.
– Hüseynə çörəyim halaldır! – desən
Şairə ən böyük mükafatdı bu.

## ŞAİRİ

Bahar fəsli addım-addım saxlayar,
Göy çəmənlər, yaşıl bağlar şairi.
Sellər, sular qulağında çağlayar,
Dilləndirər buz bulaqlar şairi.

Qoxlamamış tüstüləri, közləri,
Yoxlamamış keçidləri, izləri,
Çiçək-çiçək tanıyıram düzləri,
Düz soraqlar, çöl soraqlar şairi.

Ceyranayaq köhlənini minəndə,
Ağ zirvədən göy meşəyə enəndə,
Palıd açar sinəsinin önündə,
Çinar öpər, tut qonaqlar şairi.

Bir töhfədir təbiətə gözəllik,
Dönüb canlı şeriyyətə gözəllik.
Çəkiləndə bir xəlvətə gözəllik,
Bulud kimi qəm qucaqlar şairi.

Qapı açıq, süfrə açıq, qəlb açıq.
Qapı hörmət, süfrə çörək, qəlb işıq.
Ana vətən yaranışdan bir aşıq,
Əziz tutar, əziz saxlar şairi.

Ömür də var, ölüm də var binadan,
Ya gec, ya tez sönməlidir hər yanan.
Soruşsalar Hüseyni bir zaman
Dağlardadır, deyin, dağlar şairi.

## TƏLƏSMƏ

Bağlar, gözüm barınızdan doymayıb,
Qonağını ötürməyə tələsmə.
Dağlar, gözüm qarınızdan doymayıb,
Duman, çiskin gətirməyə tələsmə.

Gəlib keçə neçə həftə, neçə ay,
Həmdəmimdir doğan Günəş, batan Ay,
Qıjıltına alışmışam, coşan çay,
Səfərini bitirməyə tələsmə.

Gözəl bahar, çox gözlədim mən səni,
Göy ətəkli, ağ düyməli çəməni.
Ətir dolu, çiçək dolu süfrəni
– Vaxtdır! – deyə götürməyə tələsmə.

Tutub qalan olmasaq da dünyanı,
Bir dünyadır ömrümüzün hər anı.



Aman əcəl, yaşayanı, yananı
Son mənzilə yetirməyə tələsmə.

Eniş bizim, yoxuş bizim, düz bizim,
Qayalarda öz hənirtim, öz izim.
İndən belə nə taparsan, əzizim,
Hüseyni itirməyə tələsmə.

## YAŞAYA BİLSƏM

Yel döyür, sahilə yan alır qayıq,
Mən də gedəyəcəm, geci-tezi var.
Bizim də qapını açar ayrılıq
Nə fərqi, harada basdıracaqlar...

Şairi kədərlə yada salmayın,
Namərdəm, bir an da dərdə əyilsəm.
Məni boz torpaqdan xəbər almayın, –
Bir insan qəlbində yaşaya bilsəm.

## İNSAN

Bilir, sovuşduqca illər, fəsillər
Bir çıraq başacan işıq salmayıb.
Bilir, yer üzündə bu vaxta qədər
Heç kəs bu dünyanı tutub qalmayıb.

Çalışır, düşünür hər gün, hər saat
İnsanda eşqə bax, təbiətə bax.
İnanır, ədəbi deyildir həyat
İnanmır, ölümə, inanmır ancaq.

## DEYƏRLƏR

Çiçəklər, çiçəklər qürrələnməyin,
Bir axşam gül fəsli bitdi deyərlər.
İlk bahar köçünü başa vurmamış,
Son bahar yüyürüb yetdi deyərlər.

Qar altda təngiyib, bozaranda qış
Arandan yaylağa tələsir yağış.
Şirin qaqqıltıdan göylər doymamış
Durnalar səf çəkib, ötdü deyərlər.

Quruyur ağacım, solur çəmənim,
Dəyişir gözümdə yurdum, məskənim.
Bir gün həsrətimi çəkənlər mənim
Hüseyn gəlmişdi, getdi deyərlər.

## AYRILIQ

Dərya səbrim damla-damla,
Şüşə könlüm sınıq-sınıq.
Üzü dönmüş, heç olmasa
Bu günümdə qarşıma çıx.

Haradaydım hara atdın,
Hara gəldi ora atdın.
Kənardan kənara atdın
Sən bir tufan, mən bir qayıq.

Hüseyn Arif, bumu, toyun?..
Sevinc kədərlə qol-boyun.
Ömür müvəqqəti oyun,
Ölüm – əbədi ayrılıq.

## DAYANIBDIR

Qapımın ağzını kəsib son bahar,
Onun arxasında qış dayanıbdır.
Bir uşaq həyətdə atılıb-düşür,
Əldə qar topundan daş, dayanıbdır.

Boz koma üstündə yumru daş da var,
Sağında, solunda ağ-ağ naxışlar.
Kənardan bir ala qarğaya oxşar,
Deyərsən: – Bir yorğun quş dayanıbdır.



Baxıram bozarmış Gülülə sarı
Elə bil tükənib səbri, qərarı.
Sallanır budaqdan buz salxımları,
Sərvlər gözündə yaş dayanıbdır.

Yeriyir sabahın çəni, çiskini,
Çən-çiskin çöllərin qəzəbi kimi.
İri ağ kötük də, ağ ayı kimi,
Mənimlə üzbəüz tuş dayanıbdır.

Nə deyim gərdişə, Hüseyn Arif,
Salma dilə-dişə, Hüseyn Arif,
Yaş enir yetmişə, Hüseyn Arif,
Torpaqda ayağım boş dayanıbdır.

## VAXTIDIR

Qönçə açır, gül bəzənir,
Ceyran keçir, çöl bəzənir,
Sona çimir, göl bəzənir
Dünyanın dünya vaxtıdır.

Gözəlliyi sevək, seçək,
Çeşmənin gözündən içək.
Ağ köpüklər ləçək-ləçək,
Dəryanın dərya vaxtıdır.

Zirvələrə çəkildi qış,
Ətəklərdə narın yağış.
Çəmənə bax, naxış-naxış,
Boyanın boya vaxtıdır.

Adamların xətri gözəl,
Ağacların çətri gözəl,
Kəkotunun ətri gözəl,
Qayanın qaya vaxtıdır.

Hüseyn Arif, bu nə maraq,
Açılaram varaq-varaq.
Könlümün uşaqdan-uşaq,
Yaşımın baba vaxtıdır.

## XƏBƏRSİZ

Elə ki, son bahar verir hökmünü,
Sonalar ayrılır göldən xəbərsiz.
Çiçəklər sarılıb, güllər sovuşur,
Çəməndən xəbərsiz, çöldən xəbərsiz.

Şimşək göydə çaxıb zülməti yarır,
Pələngin canını üşütmə sarır.
Daşlar dilə gəlib haray qoparır
Tufandan xəbərsiz, seldən xəbərsiz.

Sular buz bağlayıb donur sazaqdan,
Tüstü qıvrım-qıvrım qalxır uzaqdan.
Yarpaqlar üzülüb enir budaqdan
Küləkdən xəbərsiz, yeldən xəbərsiz.

Alışdım min dəfə, yandım min kərə
Özüm də bilmirəm nə deyim ömrə?!
Yar-yoldaş yanında göz görə-görə
Saçlara dən düşür ildən xəbərsiz.

Əzəldən vurulub ana torpağa
Çevirdim üzümü arana, dağa.
Günlər Hüseyni də çəkir sınağa
Obadan xəbərsiz, eldən xəbərsiz.

## MƏN QORXARDIM

Mən qorxardım tufandan,
Sinəsi sal qayalı
Sahillər olmasaydı.



Mən qorxardım xəzandan,
Nəfəsi gül qoxulu
Fəsillər olmasaydı.

Mən qorxardım kədərdən,
Ürəkdən qəh-qəh çəkib,
Gülənlər olmasaydı.

Mən qorxardım ölümdən,
Dünyaya məndən sonra
Gələnlər olmasaydı.

## DÜNYA FİKİR DÜNYASIDIR

Heç bilmirəm başımdakı
Hansı eşqin xülyasıdır.
Əhvalımı kim soruşub,
Halımı kim duyasıdır?!

Yarı yolda gəmim durur,
Qəm əridir, möhnət yorur.
Ləpə döyür, dalğa vurur,
Dərya hicran dəryasıdır.

Gəl qınama Hüseyni sən,
Başım bulud, ayağım çən
Mənə fikir çəkmə deyən,
Dünya fikir dünyasıdır.

## ŞAİRƏM

Göylər kimi sinəsini gen açıb,
Yerlər kimi coşub-daşan şairəm.
Çəkilmədim otaqların küncünə,
Düzlər keçib, dağlar aşan şairəm.

O yuvanı, bu yuvanı seçmədim,
Yurddan-yurda, eldən-elə köçmədim.
Üzdən baxıb, üzdən yanıb keçmədim,
Düz öyrənib, düz danışan şairəm.

Axşam-sabah yollarımda gözünüz
İndi nədir Hüseynə sözünüz?!
Mən nə deyim, görürsünüz özünüz
Qocaldıqca cavanlaşan şairəm.

## DÜNYANIN

Turac qurar yuvasını budaqda,
Qartal qonar qayasına dünyanın.
Meşənin buz sərinliyi bulaqda,
Boya çatmaz boyasına dünyanın.

Yaz açılır çöllər, düzlər güllənir,
Bulud axır, yerlər, göylər tüllənir.
Meh toxunur, göy yarpaqlar dillənir
Uyumuşam laylasına dünyanın.

Çəmənindən neçə çələng hörmüşəm,
Bağçasından qızıl alma dərmişəm.
Ulduzları gəlib girən görmüşəm
Gecə yarı röyasına dünyanın.

Bal ətirli nəfəsindən kim doyar?
Bülbüllərin nəğməsindən kim doyar?
Babadağın zirvəsindən kim doyar?
Dalan dalsın dəryasına dünyanın.

Hüseyn Arif, olanları sal yada,
Aylar ötüb, illər səni yorsa da.
Namərd demə, namərdliyi varsa da,
Qatan qatıb mayasını dünyanın.



## BİR DƏ MƏN

Çox şey əriyəcək... çox şey dünyada,
Dəmir də, polad da, daş da, qaya da.
Bir qış öz hökmünü dəyişən deyil,
Bir payız bir bahar, bir yay,
bir də mən.

Qaranquş susacaq, qartal susacaq
Dağ kəli susacaq, maral susacaq.
Başadək ötəcək öz nəğməsini
Bir dəniz, bir bulaq, bir çay,
bir də mən.

Külə çevriləcək nə qədər ocaq,
Qaralacaq işıq, sönəcək çıraq.
Həyatda əbədi nur saçacaqdır,
Bir Günəş, bir ulduz, bir Ay,
bir də mən.

Mənə də əlini çəkər təbiət,
Yurdumu, yuvamı sökər təbiət,
Sazımla, sözümlə əbədiyyətə
Çevrilə bilməsən bir ömürdə mən.

## MƏN OLAM

Bir də dalam təbiətin seyrinə,
Günəş ola, səhər ola, mən olam.
Göy ləpələr ağ köpüyə bürünə,
Qayıq ola, Xəzər ola, mən olam.

Qulağımda qıjıldayır dəli Kür,
Bu torpağın otu dərman, daşı dürr.
Bir dünyadır, toylu-yaslı bir ömür,
Sevinc ola, kədər ola, mən olam.

Meh oyana, Dan ulduzu göz aça,
Səyyar kamal zirvə-zirvə iz aça.
Ulu tarix həqiqətdən söz aça,
Zəhmət ola, hünər ola, mən olam.

Göy sünbüllər saçaqlana, tellənə,
Ağ salxımlar şirələnə, yellənə,
Bir şerimdə milyon könül dillənə,
Sənət ola, əsər ola, mən olam.

Qayaaltı... buz bulağın cəlalı,
Meşə qoynu... yaşıl tala, göy xalı,
Bir guşədə səsdən-küydən aralı,
Qələm ola, dəftər ola, mən olam.

Çiskin kecə, bülbül bağa qayıda,
Ceyran düzə, Maral dağa qayıda.
Ötən çağım bir anlığa qayıda,
Arif ola, səfər ola, mən olam.

## UNUDULARMI

Deyirəm: – Görəsən bu ad günümdə,
Dağ kəli yadına məni salarmı?
Bərədə üstümə atılıb ceyran,
Qayada könlümü qartal alarmı?

O gölüm, o çeşməm, o çayım mənim,
Onlarsız nə günüm, nə ayım mənim,
Çatanda pələngə harayım mənim
Yerimi, yurdumu xəbər alarmı?

Necədir qüzehdə ağaran qarım?
Ətəkdə yellənib əsən çinarım?
Yığılın başıma, ay palıdlarım,
Bu qədər dost gözü yolda qalarmı?



Yarpızla, lilparla deyib gülməsəm,
Sevinci, kədəri yarı bölməsəm,
Uzaq ulduzları yaxın bilməsəm
Şerim o yerlərə qanad çalarmı?

Böyüklə, kiçiklə həmsöhbət olan,
Canında tükənməz hərarət olan,
Gücü xalq, dayağı təbiət olan
Bir şair həyatda unudularmı?

## İNSAN

Qalxanda, fərəhindən
Toy-bayram edir insan.
Enəndə qəm sazını
Çalıb inlədir insan.

Gah açıb gülə dönür;
Gah yanıb külə dönür,
Gah sakit gölə dönür, –
Bilmirsən nədir insan.

Dincəlməyir bir an da,
Yay dağda, qış aranda,
Həyatı anlayanda
Həyatdan gedir insan.

## İSTƏRƏM

Yaz fəsli daşları sellər aşanda,
Göllər çalxalanıb, çaylar daşanda,
Yarpaqlar titrəyib, pıçıldaşanda
Səsimi səslərə qatmaq istərəm.

Üfüqlə uzanıb, buludla axıb,
Şəfəqlə qızarıb, şimşəklə çaxıb,
Cüyürlə boylanıb, maralla baxıb,
Ceyranla yorulub yatmaq istərəm.

Əyilən dumanda, sürünən çəndə,
Çiçəklər islanıb, güllər çiməndə,
Keçirib gecəni bir göy çəməndə
Səhərin şehinə batmaq istərəm!

Yığılsın başıma deyib-gülənlər,
İsinsin eşqimlə qədirbilənlər.
Bir ömrün ocağı sönənə qədər
Həyatda min ocaq çatmaq istərəm!

## ÜRƏKDİR

Canın hərarəti, ömrün neməti,
Sinənin sönməyən közü ürəkdir.
Odur sevməyən də, odur sevən də,
Seçən hər əyrini, düzü ürəkdir.

Minbir nəğmə deyər bu gözəlliyə,
Çiçəkli torpağa, ulduzlu göyə.
Hər gülün rəngində məna var deyə
Seyr edən çəməni, düzü ürəkdir.

Göl kimi dayanar, sel kimi gələr,
Bəzən yerə enər, bəzən yüksələr,
Onsuz nə söz gülər, nə sənət gülər,
Güldürən sənəti, sözü ürəkdir.

Od kimi qoynundan keçər odların,
Çəkilməz önündən boranın, qarın.
Əzəldən dostluğun, əhdin, ilqarın
Mayası ürəkdir, duzu ürəkdir.

Mən oldum vurğunu bir gülnəfəsin,
Bir şirin gülüşün, bir şirin səsin.
Eşq ilə yaşayıb, yaradan kəsin
Adı Hüseyndir, özü ürəkdir.



## KİMİ

Gözümü zirvədən çəkən deyiləm,
Qartal qanadını salana kimi.
Üzülüb cərgədən qalan deyiləm,
Palıd böyrü üstə qalana kimi.

Təbim çeşmə-çeşmə qaynamaq istər,
Çəmənlə qarışıb, qaynamaq istər,
Xəyalım şəfəqlə oynamaq istər,
Aranı çən-çiskin alana kimi.

Çox verib imtahan, Hüseyn Arif,
Çağlar zaman-zaman, Hüseyn Arif.
Getməz qulaqlardan, Hüseyn Arif,
Son aşıq sazını çalana kimi.

## SIĞMAZ

Axtarmaq eşqilə alovlanan kəs,
Kənddə qərar tutub, şəhərə sığmaz.
Gətirməz fikrinə vaxtı-vədəni,
Gecəyə, gündüzə, səhərə sığmaz.

Dincələr kölgədə, günəqarşıda,
Enişlər, yoxuşlar durar qarşıda.
Vətən torpağının bir qarışı da,
Beşgünlük, ongünlük səfərə çıxmaz.

Çəməndə nə qədər bənövşə, nərgiz,
Otlar bir-birindən ətirli, təmiz.
Göydən ulduzları səsləməyək biz, –
Yer göyə sığmayıb, göy yerə sığmaz.

Qış bir yana çəkər, bahar bir yana,
Ömrü başa vurar od yana-yana.

Sahilsiz zülmətin dərya qoynuna
Günəşdən ayrılan bir zərrə sığmaz.

Tapılan bir inci itməz həyatda,
Doğma səs qulaqdan getməz həyatda,
Sənin də dastanın bitməz həyatda,
Bir xalqın söhbəti bir ömrə sığmaz.

## MƏNİ

Heyranam Tiflisə uşaq çağından,
Bir də o yerlərə yetirin məni!
Aşırıb səhərlər Sənan dağından,
Güllərin qoynunda itirin məni.

Göy otun üstündə kəsin quzunu,
Kabab sulanmamış səpin duzunu,
Kaxet çaxırıyla kəl buynuzunu
Doldurub bir hala gətirin məni.

Yayılsın ətrafa conquri səsi,
Doğmadır ruhuma gürcü nəğməsi,
Düşəndə axşamın sərin kölgəsi,
Kürün körpüsündən ötürün məni.

Çayın sahilində yaşıl bağça-bağ,
Hər evdə-eyvanda təzə çilçıraq.
Sevirəm Tiflisi, sevirəm, ancaq
Öləndə Qazaxda götürün məni.

## QAZAXDA

Ceyran çölü qoyun-quzu qoxulu,
Fəsillərin naxışımı Qazaxda?
Qarayazı çiçək dolu, gül dolu,
Yaşıl bahar yağışımı Qazaxda?



Bəd ayaqda dönməz üzü Gülülün,
Sinəsində çoxdu sözü Gülülün,
Dan güləndə gülən gözü Gülülün
Ürkək Maral baxışımı Qazaxda?

Qapısında gediş-gəliş kəsilməz
"Qonaq" sözü əzəlindən müqəddəs
Yel əsəndə yarpaqlardan qopan səs
Təbiətin alqışımı Qazaxda?

Qızmar yayda buz qalalar sökülür,
Sellər, sular dərələrə tökülür,
Bir məcrada Ağstafa, Xram, Kür
Dəli çaylar yarışımı Qazaxda?

Sıra-sıra sal qayalar çataqlı,
Daş pilləleri, daş izli, daş yataqlı.
Dədə Avey – dədə Qorqud soraqlı,
Əsrlərin sirdaşımı Qazaxda?

Dayanmışam qarşısında yenə mən
Bu axşam da sağı duman, solu çən
Tufanlara əyilməyən Göyəzən
Bir tayfanın başdaşımı Qazaxda?

Hüseyn Arif, nə qərarmış bu qərar
Daha səni kim düşünər, kim arar?!
Bir atanın ürəyimi o məzar,
Bir şairin göz yaşımı Qazaxda?

## VAR MƏNİM

Yığılmır yollardan fikrim, xəyalım,
Görən bu çöllərdə kimim var mənim?
Sazda "Kərəmi"yə qoşulan səsim,
Kamanda inləyən simim var mənim.

Kəsilib qapıdan gedib-gələnim,
Yox mətləb qananım, qədir bilənim.
Dumanlar içində yorğun köhlənim,
Tufanlar qoynunda gəmim var mənim.

Hüseyn, nə oldu qönçə niyyətim?
Daşlara toxundu ilk məhəbbətim.
Özgəni güldürən sözüm, söhbətim,
Özümü ağladan qəmim var mənim?

## VAR İMİŞ

Nə qədər bulanıq sular görmüşəm,
Nə qədər dumanlı xilqət var imiş.
Qarlı zirvələrdə quzğun tamahı,
Çənli dərələrdə zülmət var imiş.

Dünənki canavar, bugünkü tülkü,
Sabah şirə dönsə, gəl çək bu yükü.
İpək əvəzinə murdar it tükü,
Bazarda qəribə qiymət var imiş.

Toz qondu solumda, sağımda mənim,
Tufanlar oynadı dağımda mənim,
Hüseynəm, yaxşı ki, xalqımda mənim,
Dəyanət, sədaqət, hörmət var imiş.

## BAĞLIDIR

Eniş, yoxuş bir-birinin davamı,
Dağ dərəyə, dağa dərə bağlıdır.
Ölüm, həyat yanaşıdır əzəldən,
Şər xeyirə, xeyir şərə bağlıdır.

Nur ələnib, bağça-bağa yeriyər,
Göy dənizə, boz torpağa yeriyər.
Bir ümmanda neçə dalğa yeriyər,
Neçə yürüş, bir səfərə bağlıdır.



Dağlar açar sinəsini selilə,
Düzlər yayar mahnısını yelilə.
Təbiətin min sehirli telilə
Ay Günəşə, Günəş Yerə bağlıdır.

Gahdan gülər, gahdan ağlar fikrimiz,
Qanad açar, qanad bağlar fikrimiz.
Misralarda coşub çağlar fikrimiz,
Şeir fikrə, fikir şerə bağlıdır.

Yaşamadı qorxa-qorxa, Hüseyn,
Güvəndikcə doğma xalqa, Hüseyn.
İnanmıram yaddan çıxa, Hüseyn, –
Şair ömrü ömürlərə bağlıdır.

## ŞEİR DEYİLMİ

Məndən təzə şeir xəbər alan dost,
Bəs yazın gəlməsi şeir deyilmi?!
Gəzməyə çıxanda – çölün, çəmənin
Üzünə gülməsi şeir deyilmi?!

Yenə gözüm qalıb bağçada, bağda,
Min-min gül açıldı aranda, dağda.
Eyvana əyilən çarpaz budaqda
Bülbülün nəğməsi şeir deyilmi?!

Seyr elə hüsnünü göydə durnanın,
Qayada kəkliyin, göldə sonanın.
Aynabənd otaqda gəlin anamın
Şirin layla səsi şeir deyilmi?!

Dərədə moruq dər, döşdə çiyələk,
Gah yağış xoş gəlir, gah sərin külək.
Yaş ötür, doymayır dünyadan ürək, –
Yaşamaq həvəsi şeir deyilmi?!

Kim deyir şerin meydanı dardır?
Sonu görünməyən bir ilk bahardır.
Necə ki, həyat var şeir də vardır, –
Həyatın nəfəsi şeir deyilmi?!

## DÜNYANIN

Bir yolun üstündə min-min yol düşüb,
Dəyişib cığırı, izi dünyanın
Min yol pəhləvanın burdu boynunu
Bir dəfə əsmədi dizi dünyanın.

Nə meşə, nə bağça, nə dəniz qalır
Nə gecə dayanır, nə gündüz qalır.
Dağın əvəzinə dərə, düz qalır
Gahdan dağa dönür düzü dünyanın.

İldırım şığıyıb gələndə dilə
Otu qora verir, samanı yelə
Yarandığı gündən özünə belə
Vəfasız yaranıb özü dünyanın.

Bilməyirsən birdən nə büsat qurur,
Yayın nəfəsiylə yaza od vurur.
Bülbülü bayquşdan əzəl susdurur
Qudurub, qızanda gözü dünyanın.

Çiçəklər qoynunda tikanlar yatır,
Aşkara zəhəri şərbətə qatır.
Binalar ucalır, binalar batır,
Qərinələr görüb üzü dünyanın.

Nizami kamına yetmədi getdi,
Füzuli başadək ötmədi getdi
Vaqiflə, Vurğunla bitmədi getdi
Bitməz Hüseynlə sözü dünyanın.



## ŞAİRİYƏM MƏN

Biri dedi, gül-çiçək,
Boya şairiyəm mən.
Biri dedi, daş-kəsək,
Qaya şairiyəm mən.

Duyub, tutmadan xəbər
Uydurub axşam-səhər
Biri dedi, çal-çəpər,
Paya şairiyəm mən.

Göydə yersiz yanmadım,
Yeri göysüz anmadım.
Odda suyu danmadım
Dərya şairiyəm mən.

Sevinci coşub-daşan,
Qayğısı başdan aşan,
Dünyayla dünyalaşan
Dünya şairiyəm mən.

## DÜŞÜNMƏK, DÜŞÜNMƏK İSTƏYİRƏM MƏN

Bağla qapıları, bağla, sevgilim,
Qapansın bir anlıq pəncərələr də;
Sən də ayağını saxla, sevgilim,
Qoy dursun nə varsa – durduğu yerdə.
Vurğunu olsam da hər şirin səsin,
Hələlik qulağım səs eşitməsin.
Fikirlər, duyğular aləmindəyəm,
Ürəkdir sinəmdə yalnız dillənən,
Düşünmək, düşünmək istəyirəm mən.

Uşaq da deyiləm, ömür yarıdır,
Bəlkə də mənzilə bir şey qalmayıb?!

Bu gün qızam – deyən sabah qarıdır.
Bir də ki, dünyada kim qocalmayıb!
Ya vaxtlı, ya vaxtsız o şey ki, haqdır
Yetişib yaxandan yapışacaqdır.
Əcəl dedikləri qara yel kimi
Neçə ki, əsməyib başımın üstdən,
Düşünmək, düşünmək istəyirəm mən.

Yazdığım əsərlər qabağımdadır,
Yarımçıq qoyduğum şeirlər də var.
Tərif də, tənqid də qulağımdadır,
Başımda dolaşıq fikirlər də var,
Biri yaxşı deyər, biri pis deyər,
Biri də çox sözü ürəksiz deyər.
Olar əl çalan da, əl çalmayan da.
Bunlara aldanıb çıxma izindən,
Düşünmək, düşünmək istəyirəm mən.

Özüm də bilmirəm, ah, neçə kərə
Yerimdən oynadıb hər gülüş məni,
Uyub orda-burda deyilənlərə
Mən az yanılmadım dostu, düşməni.
Çox olub yolumdan sapıb azdığım,
Namərdə inanıb, yada qızdığım.
Sonra eşitdiyim tikanlı bir söz
Keçib güllə kimi əlli yerimdən...
Düşünmək, düşünmək istəyirəm mən.

Yüz dağdan ağırdır bir kiçik kədər;
Yanıb qaralmayan haram var mənim!
Dostların xətrinə dəydiyim qədər
Sinəmdə sağalmaz yaram var mənim.
Gah yersiz incitdim yarı-yoldaşı,
Axdı gizli-gizli gözümün yaşı.
Bir qəlbə toxunmaq asan gəlməsin
Min kəndə, şəhərə od eləməkdən.
Düşünmək, düşünmək istəyirəm mən.



Enişli-yoxuşlu bu yollarda bax
Varmı topuq çalıb büdrəməyən kəs?
Yazıq o kimsədir həyatda, ancaq
Yazdığı səhvini pozmaq istəməz.
Vəfalı sevgilim, mən yanılsam da,
Barı sən yanılma heç vaxt dünyada,
Odur qapıları bağla deyərək,
Sakit otağıma çəkilib hərdən
Düşünmək, düşünmək istəyirəm mən.

## YAVAŞ-YAVAŞ

Həftə başa varır, ay gəlib gedir.
İtirib nurunu göz yavaş-yavaş.
Soyuyur məclisim çeşmə başında,
Qaralır ocaqda köz yavaş-yavaş.

Qəm yağır günəşin solğun telindən,
Daş qopur dağların sərxoş selindən.
Payız yarpağı tək xəzan yelindən,
Dağılır sinəmdən söz yavaş-yavaş.

Fikir ağartmasa saçda dən olmaz,
Can yorğun düşəndə ürək şən olmaz.
Hüseyn! Həmişə sən deyən olmaz,
Zamanın hökmünə döz yavaş-yavaş.

## SEVİRƏM

Külüng qalxır, külüng enir,
Birdən susur, birdən dinir.
Qaya qopur, daş ələnir,
Fərhad mən səni sevirəm.

Dözdün qara, dözdün yelə,
Düşdün çətinə, müşkülə.
Əyilmədin, sınsan belə,
Polad, mən səni sevirəm.

Tər bənövşə yarır qarı,
Boylanır Günəşə sarı.
Qartal şığıyır yuxarı,
Qanad, mən səni sevirəm.

Dan sökülür, əsir külək,
Sığallanır çəmən, çiçək.
Mahnı qoşur coşan ürək,
Ustad, mən səni sevirəm.

Yol enişdi, yol yoxuşdu,
Burda bərkdir, orda boşdu.
Bir igid quş kimi uçdu,
Boz at mən səni sevirəm.

Olub qəm də, olub dəm də,
Nələr gördük bir aləmdə.
Dünya, səndən incisəm də
Həyat, mən səni sevirəm.

## BİZ AYRI DÜŞƏLİ

O günlər yuxuydu, yoxsa həqiqət,
Bəlkə bir düyünlü sirr idi, getdi.
O arzu, o ümid, o söz, o söhbət
Dodaqdan süzülən dürr idi, getdi.

Şırşırlar oyandı, çağladı dağlar,
Çiçəklər boylandı, bəzəndi bağlar.
Biz ayrı düşəli bir qərib bahar,
Yanımdan xəbərsiz yeridi, getdi.

Buludlar üfüqə çəkildi lay-lay,
Zəmilər biçildi, buğdalar tay-tay
Biz ayrı düşəli bir alovlu yay
Çölləri, düzləri bürüdü, getdi.



Bulaqlar boynunda üşüdü yarpız,
Yarpaqlar budaqdan endi aramsız.
Biz ayrı düşəli bir yorğun payız,
Sarı çuxasını sürüdü, getdi.

Axdı damcı-damcı buz salxımları,
Sellər yaraladı bürcü, hasarı.
Biz ayrı düşəli bir qışın qarı
Gözümün içində əridi, getdi.

Könlümdə dörd fəslin qəmi, nisgili,
Möhnətin sonu yox, qəmin sahili,
Yetmiş – vida ili, ayrılıq ili,
Ömrün illərindən biriydi, getdi.

## TAPILMAZ

Buraxma fürsəti, buraxma əldən,
Göydə qərar tutub, yerdə tapılmaz.
Harayla, harayın qalar içində,
Xeyirdə görünüb, şərdə tapılmaz.

Nə çiçəkdən soruş, nə otdan soruş,
Nə sudan xəbər al, nə oddan soruş,
Nə yardan, yoldaşdan, nə yaddan soruş,
Namərdə səs verib, mərdə tapılmaz.

Ömrün səfərini bitirmə vaxtsız,
Karvanı mənzilə yetirmə vaxtsız,
Hüseyn Arifi itirmə vaxtsız,
O elə şairdi, bir də tapılmaz.

## TORPAĞA QOŞULDUM

Torpağa qoşulub gəzdim dünyanı,
Mənasız keçmədi ömrün bir günü.
Torpağa qoşulub duydum həyatda
Zəhmətin ətrini, eşqin hökmünü.

Torpağa qoşuldum, qoşuldu mənə,
Zəmilər, tarlalar, düzlər, zirvələr.
Daşlardan süzülən çeşmələr kimi
Süzüldü könlümdən odlu nəğmələr.

Ümmanlar qoynunda üzəndə belə
Dərələr, təpələr keçdi fikrimdən.
Üfüqdən-üfüqə süzəndə belə
Torpaqdan gözümü ayırmadım mən.

Nə qədər diriyəm, bu ana torpaq
İlk andım, ilk eşqim, ilk ocağımdır.
Öləndə torpağa qarışmağım da
Torpağa qoşulub yaşamağımdır.

## SÖZDƏ VURĞUN, SAZDA MİRZƏ

Aşıq dostum, deyim sənə,
Sözdə Vurğun, sazda Mirzə.
Qoy eşitsin ellər yenə,
Sözdə Vurğun, sazda Mirzə.

Dilimizin qüdrətidir,
Ağzımızın ləzzətidir,
Yurdumuzun şöhrətidir,
Sözdə Vurğun, sazda Mirzə.

Demə, səsim batasıdır,
O aləmə çatasıdır,
Hüseynin ustasıdır,
Sözdə Vurğun, sazda Mirzə.

## SƏMƏD VURĞUNA

Yetmişə yetmədi ömrün səfəri,
Matəmə büründü altmışın da.
Açanda qapını bahar səhəri
Yumuldu gözlərin əlli yaşında.



O axın fikrimdə yaşayır hələ,
Bayramın nə ağır günlərə düşdü,
İşıq qaranlıqla, kədər fərəhlə
Ayrılıq görüşlə bir yerə düşdü.

Ölümün yandırıb-yaxdı dostları,
Ürək qarla dolu, boranla dolu.
Bağlaya biləydim bircə gün, barı
Səni bu dünyadan aparan yolu.

Yazdı xəyalından gəlib-keçəni
Şair olmayan da, şair olan da.
Ağladı, gündüzə qatıb gecəni
On yasda bir dəfə ağlamayan da.

Dodaqda söhbətin, könüldə adın,
Yenə kitabların ellərdə gəzər.
Əli qələm tutan Vaqif övladın
Yurdunda alışan çırağa bənzər.

Çıxdım sorağına xəbər verən yox,
Özüm də bilmirəm nə edim, ustad?
Harda yaxınlaşıb sıxım əlini,
Harda o səsini eşidim, ustad?

Nə göydən haray var, nə yerdən aman,
Sükuta bürünüb Fəxri xiyaban.
Yazda da, qışda da onun yanından
Bir dəfə salamsız ötmədim, ustad!

Duyduqca gücünü, qüdrətini mən
Başdan uca tutdum şöhrətini mən,
Dosta dost yarandım, düşmənə düşmən,
Yadlar ayağına getmədim, ustad.

Dur yenə qolumu salım qoluna,
Dolanım sağına, dönüm soluna.
Sənin məktəbinə, sənin yoluna
Heç zaman xəyanət etmədim, ustad.

## ONİLLİK HƏSRƏT

Onillik həsrətin ağrısı canda,
Qəbrinə bir daha başım əyildi.
Sən vaxtsız bizimlə vidalaşanda,
Oğlumun bir yaşı tamam deyildi.

İzi silinmədi ötən anların,
Aylar dolandıqca gör nələr etdi...
Səni öz çiynində aparanların
Sonra neçələri çiyində getdi.

Oyansan (əlbəttə, bir xəyaldır bu)
Fəxri xiyabanda köks ötürərsən.
Mehdi sirdaşını, Yusif dostunu,
Bülbülü yanında yatan görərsən.

Arabir bədənim düşür lərzəyə,
Dünyanı tutası deyiləm ki, mən.
Bir anlıq gözlərin açılsın deyə,
Keçərəm ömrümün neçə günündən.

Hanı o təmkinin, o etibarın,
Ayrılıq hökmünü kim belə yazdı?..
Bəlkə sağ olsaydın, qələm dostların
Yersiz bir-birini yaralamazdı...

Nihilist ürəkdən salam vermədi
Gahdan üzəvarı salam versə də.
Əzəlki fikrini dəyişdirmədi,
Sonrakı cildini dəyişdirsə də.

Elinə, gününə ağzını büzən
Yalandan kürsüdə yanıb alışdı.
Yuxarı çəkildi ayaqda gəzən
Xalqı tanımayan xalqdan danışdı.



Bir də gileylənmək əbəsdir bu dəm,
Xalq desəm, aslanlar ayağa qalxar.
Düşməni döyməyə yumruq istəsəm,
Qayalı Qoşqar var, daşlı Kəpəz var.

Görmüşəm namərdin hər fitnəsini,
Boşda üzə çıxar, bərkdə gizlənər.
Batırmaq istəsəm bayquş səsini
Qarlı Şah dağından min qartal dinər.

Sədaqət gözlənib, hörmət umulmaz
Özünü hamıya şirin salandan.
Atalar sözüdür: "Döyüşçü olmaz
Döyüş meydanında tez boşalandan".

Yenə bahar olur, gül ətir saçır,
Yenə də gedirik şəhərə, kəndə.
Şeir məclisində səndən söz açır
Səni görməyən də, səni görən də.

Güldük sevincinə, yandıq ağrına,
Gəzir nəğmələrin dildə, dodaqda.
Sənin kitabını basır bağrına
Birinci sinifə gedən uşaq da.

Ölərmi hünərlə yaşayan insan –
İlləri illərə calanır ömrün!
Bakının ən böyük meydançasından
Möhtəşəm heykəlin yüksəlir bu gün.

Dünən Səməd Vurğun od kimi qızdı,
Bu gün Səməd Vurğun xatirələrdir.
Dünən Səməd Vurğun şeirlər yazdı,
Bu gün Səməd Vurğun kənddir, şəhərdir.

Bir qaynar bulaqdan axan suyuq biz,
Gücümüz torpağın gücü qədərdir.
Sən gedən yolların yolçusuyuq biz,
Sənə bənzəmək də böyük hünərdir.

Fəxri xiyabanı seyrə gələndə
Gözümdən qor töküb, od salıram mən.
Qarşında diz çöküb əyiləndə də
Yerdən göyə qədər ucalıram mən!

## GÖZƏL GÜNLƏR QABAQDADIR

*Əmirxan müəllimə*

Doymaq olmur bu dünyadan,
Könül hər vaxt soraqdadır
Göylər dərin, sular sərin,
Mənim gözüm torpaqdadır.

Gah kənddəyəm, gah şəhərdə,
Səsim qalxır pərdə-pərdə.
Məhəbbətim ürəklərdə,
Nəğmələrim dodaqdadır.

Vaxt dolanır, vədə çatır
Qara tellər ağa batır,
İllər bizi dala atır,
Gözəl günlər qabaqdadır.

## SƏNİ DÜŞÜNƏNDƏ

*Təbiət vurğunu, təbii sənət dostum*
*Səttar Bəhlulzadəyə ithaf edirəm.*

Səni düşünəndə nə iclas, nə zəng,
Nə də bir kabinet düşür yadıma.
Səni düşünəndə yüz boya, yüz rəng,
Al-əlvan təbiət düşür yadıma.

Çiçəklər qaynaşır naxışlarında,
Şehlə sırğalanan güllər görürəm.
Buludla bulanan baxışlarında
Şəfəqlə durulan səhər görürəm.



Hardasa söyüdlər sallanır suya,
Hardasa hələ çən, hələ yağışdı.
Hardasa meşələr getmiş yuxuya
Hardasa payızdı, hardasa qışdı.

Unudur yükünü könül bir anlıq,
Düzlərin havası düşür yadıma.
Qırxbulaq, Şahnabad, Ləzə, Xınalıq,
Qartallar yuvası düşür yadıma.

Fırçanın hökmünə, hikmətinə bax,
Otağa göl gəlib, bulaq gəlibdir.
Kiçik bir guşəyə neçə böyük dağ,
Neçə dərin dərə qonaq gəlibdir.

Səni düşünəndə gəlirəm dilə,
Ruhlanıb torpağın tər nəfəsindən.
Gözümün düşməni xəbislər belə,
Çəkilir gözümün düşərgəsindən.

Of, yenə yarama duz səpələndi,
Zorla saxlayıram əlimi, neynim.
Daşmı parçalandı, qayamı endi,
Dinc qoya bilmirəm dilimi, neynim?!

Hər tülkü özünü sanıb bir pələng,
Yekəlik eşqilə coşub-çağladı,
Neçə dildən zirək, ağıldan seyrək,
Nadandan söz açıb, kitab bağladı.

Birini yuxarı çəkdilər nəsə,
Önündə yüz keçid, yüz yaşıl işıq.
Biri "məktub" oldu, biri "mədrəsə",
Dərd alıb, qəm satıb, kefə baxmışıq.

Pas atmış dəmiri tutdular zərə,
Qızıl qiymətində başa keçdi mis.
Bu özündən razı özülsüzlərə,
Bir deyən olmadı: – Kimlərdənsiniz?

Qanqalı nərgizə tay etdilər ki,
Sənət aləmində yenilikdi bu.
Maralı donuza bənzətdilər ki,
Sirri açılmamış dərinlikdi bu.

Meydanda nə qədər fırıldaqçı var,
Hələ dayanmayıb mübarizəmiz.
Təzə qoltuqlarda köhnə falçılar,
Nə qədər baş-başa gəlməliyik biz.

Vaxtlımı doğulduq, vaxtsızmı olduq,
(Bir də qəm gətirən bu söhbət nədir)
Ana təbiətin əkiz oğluyuq,
Bizim qüdrətimiz təbiətdədir.

Cansız canlılardan incimə sən də,
Çətin yaddan çıxıb unudularsan,
Həqiqi sənətdən söhbət düşəndə,
Səni düşünürəm,
Yaxşı ki, varsan.

## TORPAQ

Qucağında nanə, reyhan,
Lalə, nərgiz olan torpaq,
Yaşı qədim, özü cavan,
Ətri təmiz olan torpaq.

Döşdə bulud, zirvədə çən,
Əskilməyir gəlib keçən.
Göy sinəsi meşə, çəmən,
Qoynu dəniz olan torpaq.

Düzlər varı, dağlar tacı,
Xəzan görsə yox əlacı.
Kimə şirin, kimə acı,
Kimə əziz olan torpaq.



Gah qış olub, gah yaz olub,
Həm açılıb, həm tutulub.
Sevinclə bir yaşa dolub,
Qəmlə əkiz olan torpaq.

Hər qonağın bir vaxtı var,
Ya çox qalar, ya az qalar.
Bir gün səni yola salar,
Bir gün mənsiz olan torpaq.

## ANAMI XATIRLADIM

Çən ötdü, çisək köçdü,
Güllər açıb gülüşdü,
Sevgilim yada düşdü,
Bağlara baxanda mən.

Döşdə dincimi aldım,
Sübhün seyrini daldım.
Babamı yada saldım,
Dağlara qalxanda mən.

Qarlı zirvələr aşdım,
Haraları dolaşdım.
– Ana! – deyə dil açdım,
Canım darıxanda mən.

## ANALAR

Elə ki, balalar gəlir dünyaya,
O gündən hey ölçüb-biçir analar.
Mahnı da oxuyur, şeir də deyir
Bəstəkar analar, şair analar.

Dözür hər əzaba o bilə-bilə.
Yaşayır, sirrini salmadan dilə.
Vaxt olur, qaldırıb ağını belə
Şərbət əvəzinə içir analar.

Unudub illərin yorğunluğunu,
Həyatda dincliyi, evdə yuxunu:
Sevincin azını, qəmin çoxunu,
Yükün ağırını seçir analar.

Alnında zamanın açdığı qırış
Başına qar töküb, qar ələyir qış.
Odun istisindən aralanmamış
Suyun soyuğundan keçir analar.

Özüm də bilmirəm, Hüseyn niyə
Başımın tüstüsü çəkilir göyə?
Torpaqmı anasız qalmasın deyə
Torpağın qoynuna köçür analar?

## ANA

Heyifdir, anasız olmasın uşaq,
Başından min boran, qar gəlib keçər.
Qurumaz, çəkilməz gözünün yaşı,
Gecəsi, gündüzü zar gəlib keçər.

Əmi, dayı qucağına götürməz,
Qohum, qonşu ona nəzər yetirməz.
Ata da cibində alıb gətirməz
Nə qədər əlindən var gəlib keçər.

Sanarsan yanağı solğun xəzəldir,
Nəşəsiz yaşamaq ömür gödəldir.
Hüseyn, hər şeydən ana gözəldir,
Bəs niyə könlündən yar gəlib keçər.

## QIYMASIN

Tufan qalxıb söyüdləri əysə də,
Nə palıda, nə çinara qıymasın.
Xəzan yeli son bahara qıysa da,
Baş aparıb ilk bahara qıymasın.



Daş kəsməsin çeşmələrin yolunu,
Sel atmasın çiyələyin kolunu.
Qızaranda təbiətin gül donu
Düşən dolu çəmənzara qıymasın.

Bir dünyaya milyon oğul, qız gəlir,
Sevinc gəlir, kədər gəlir, naz gəlir.
Əsil şair az yaranır, az gəlir, –
Vaxtsız ölüm sənətkara qıymasın.

Könül dinib, meşələri gəz deyər,
O budağa, bu budağa söz deyər.
Göy ot qalxıb çölü, düzü bəzəyər,
Döş çəmənə, zirvə qara qıymasın.

Hüseynəm, könül verdim həyata,
Məqsədinə kim çatmaya, kim çata.
Bir ananı əvəz etməz yüz ata –
Ana torpaq analara qıymasın.

## SADƏ ADAMLARA MİNNƏTDARAM MƏN

Bir nazir sağında, rəis solunda
Quruyub qalmadım müqəvvalar tək.
Sadə maşın sürən bir dost yolunda
Yatmadım, dərələr, düzlər keçərək.

Bir özündən razı qudurğan kəsin
Soyuq məclisində sağlıq demədim.
Bir sadə daş yonub, kərpic kəsənin,
Yanından salamsız ötüb getmədim.

Sadə bir aşıqla ülfət bağladım,
Yüz nağıl eşitdim, yüz duzlu dastan.

Mərifət gözləyib, ağıl ümmadım
Elmsiz "Elmlər doktorları"ndan.

Başqadır cəlalı təbiətimin
Aran düzlərində, dağ döşlərində.
Açıldı sabahı şeriyyətimin
Sadə bir çobanın gülüşlərində.

Bir sadə neftçilə çiyin-çiyinə,
Buruqlar qoynunda coşub-daşmışam.
Bir sadə, turşməzə meşəbəyinə
Könül də açmışam, söz də qoşmuşam.

Sadə kolxozçuya olmuşam qonaq
Rahat nəfəs alıb, dincəlmək üçün
Kiçik bir addım da atmadım heç vaxt
Kiməsə, hardasa xoş gəlmək üçün.

Nə üzüm qaradır, nə dilim qısa,
Çıxsam da alovlar, odlar içindən.
Mərdliyim, saflığım az-çox qalıbsa
Sadə adamlara minnətdaram mən.

## QOCALAR

Gah çəliyə dirsəklənib dayanır,
Gah daş üstə dincin alır qocalar.
Gah əlini saqqalına aparıb
Dərin-dərin fikrə dalır qocalar.

Ağrıyanda özü doyar özündən,
Yaş süzülür, qəm ələnər gözündən.
Uşaq kimi uşağın da sözündən,
Tez tutulub, tez daralır qocalar.

Yaxın başa, yad ayağa çəkəndə,
Biri bağa, biri dağa çəkəndə,



Gəlin sola, oğul sağa çəkəndə
Ümidini daşa çalır qocalar.

Cavanlığın qoxusunu itirib,
Tay-tuşların çoxusunu itirib,
Gecə yarı yuxusunu itirib,
Sübhə kimi oyaq qalır qocalar.

Qayalarda harayları, ünləri,
Sevincləri, qəzəbləri, kinləri,
Buludlara axıb keçən günləri
Buludlardan gəlib sorar qocalar.

Aylar, illər sovuşsa da yel kimi
Sehirlidir xatirələr aləmi.
Xatırlayıb Koroğlunu, Kərəmi
Söhbət açıb, məclis qurar qocalar.

Qızmar yayda ayrılmayır sərindən
Qəlyan çəkib, köks ötürür dərindən
Bir-birinə dirsəklənib yerindən
Ağır-ağır qalxıb durur qocalar.

Can neyləsin, hökmü verən zamandı,
Gözdən düşüb, sandan çıxmaq yamandı.
A yoldaşlar, a qardaşlar, amandı,
Göynətməyin, kövrək olur qocalar.

Əsən külək, yarpaq tökən budaqdı,
Döyən yağış, sönüb keçən ocaqdı,
Necə deyim, ikigünlük qonaqdı,
Axşam açıb, sabah solur qocalar.

Ey Hüseyn, gənclik hara, sən hara!..
Dolu gəlir, sür köçünü kənara.
Qocalıqmı çəkən səni onlara,
Qocaları yada salır qocalar.

## MEŞƏBƏYİ

Kef üstündə kefimizi
Gəldi, sordu meşəbəyi.
– Buyur! – dedik, atdan enib,
Bardaş qurdu meşəbəyi.

Qamçısını atdı sola,
Çantasını çəkdi dala.
Şirin-şirin, bala-bala
Bizlə vurdu meşəbəyi.

İsti kabab, təzə fətir,
Doymaq olmur, yenə gətir.
Bığlarını arada bir
Eşib burdu meşəbəyi.

Altmışı verib yelə
Düşməyibdir ruhdan hələ.
Qarşıdakı bir gözələ
Göz də vurdu meşəbəyi.

Yatdı biri – keflənərək,
Birini də yıxdı külək.
Hüseynlə axıradək
Möhkəm durdu meşəbəyi.

## AY MİRZƏ DAYI!

*Aşıq Mirzə Bayramova*

Mən beşikdə ikən telli sazınla
Laylamı sən çaldın, ay Mirzə dayı.
Yenə dilləndirdin "Yanıq Kərəmi"
Canıma od saldın, ay Mirzə dayı.

Ağır toylar gördün, nişanlar gördün,
Mahaldan-mahala atını sürdün.



Gəlinlər gətirdin, qızlar köçürdün,
Çox nəmərlər aldın, ay Mirzə dayı.

Sənət meydanında imtahan olur,
Hüseynin əhvalı pərişan olur.
Səsin tutulanda könlüm qan olur,
Sən niyə qocaldın, ay Mirzə dayı?

## XALQDAN SORUŞ

Gül saralar, çiçək solar,
Xəzan nədir?
Bağdan soruş
Cığır itər, iz yox olar,
Qarı, buzu dağdan soruş.

Qəribədir ömrün yolu,
Döyər yağış, tökər dolu.
Bərkə dözməz əlin solu
Ağır yükü sağdan soruş.

Hər torpaqda coşmaz bulaq,
Hər sinədə yanmaz ocaq,
Alim kimdir?
Kitaba bax,
Şair kimdir?
Xalqdan soruş.

## O DEYİB, ELƏ DEYİB...

"Ömür keçdi, gün keçdi
Cavan olmam bir də mən" –
Bir söz min dilə düşdü
Bir şairin dilindən.
Qocalıb, qəribsəyib,
Gedib, ona nə deyim!

O deyib, elə deyib,
Mən niyə elə deyim?
Alovdur sinəmdəki,
Kül olmaram yerdə mən.
Qocalan deyiləm ki,
Cavan olam bir də mən.

## QOCALAN DEYİLƏM

Solsa da tər çiçəklər
Heç vaxt solan deyiləm.
Yorulsa da küləklər
Mən yorulan deyiləm.

Oylağımdır dağ-dərə,
Ötmərəm əbəs yerə.
Qədir bilməyənlərə
Yoldaş olan deyiləm.

Fil üzülüb qalsa da,
Qartal qanad salsa da,
Hər palıd qocalsa da
Mən qocalan deyiləm.

## BƏDƏL OLMARAM

Birinin ayağı uçardı göydə,
Birinin arxası yerə dəyərdi.
Qan-tərə batardıq "Dirə döymə"də,
Dost dostu qayışla döyəcləyərdi.

İstidən, soyuqdan tutmazdıq xəbər,
Bir qəlbin bir dünya sevinci vardı.
"Gizlənqaç" oynardıq qarışanda şər, –
Biri gizlənərdi, biri tapardı.



Ülfət bağlamışdıq yalla, yamacla,
Qayadan sıçrayıb, çaydan keçərdik,
"Top-top"la, "Qov-tut"la, "Çiling-ağac"la,
Çöllərdə, düzlərdə mətinləşərdik.

Batıb bulanardıq toza, palçığa,
Neçə yaz, neçə yay, neçə də payız.
Elə ki başlardıq "Qaçaq-qaçağ"a
Kəndi götürərdi hay-harayımız.

– Mən Gizir oğluyam, kim məndən? – deyə.
Biri qılıncını daşa çəkərdi.
– Mən qoç Koroğluyam, kim məndən? – deyə
Biri tez özünü başa çəkərdi.

– Mən Qaçaq Kərəməm, kim məndən? – deyə
Biri at belində coşub-daşardı.
Bir Bədəl də vardı – mən kimdən? – deyə
Gah ona, gah buna yaxınlaşardı.

Bədəl, yazıq Bədəl "Mən kimdən?" – deyə
Gah Gizir oğluna pənahlanardı.
Bədəl, yazıq Bədəl "Mən kimdən?" deyə
Gah da Koroğlunu arxa sanardı.

Hərdən onları salıram yada
Ötüb dolandıqca aylar, fəsillər.
Uşaqlıq illəri qaldı arxada,
Uşaqlıq illəri... qəribə illər.

Əbəs ələnməyib saçlarıma dən,
Toqquşur fikirlər, əməllər yenə.
Bir xalqın adından "Mən kimdən?" deyən
Bədəllər tapılır, bədəllər yenə.

Bilirəm yerimi bu həyatda mən,
Elimə, obama əngəl olmaram.
Dönüb torpaq ollam torpaq altda mən,
Qalıb torpaq üstə Bədəl olmaram.

## TƏLƏSİRƏM

Bu bulaqdan su içməmiş,
O bulağa tələsirəm.
Yurddan-yurda, eldən-elə,
Dağdan-dağa tələsirəm.

Göldən-gölə nəzər salıb,
Çaydan-çaya tələsirəm.
Qışda yazı fikirləşib,
Yazda-yaya tələsirəm.

Ceyran kimi ayaq açıb,
Düzdən-düzə tələsirəm.
Əldə qələm axşam-sabah
Sözdən-sözə tələsirəm.

Gündən-günə, aydan-aya,
İldən-ilə tələsirəm.
Bir deyən yox, bu dünyadan
Hara belə tələsirəm...

## HARAM OLSUN

Aşıq dostum, başla zilə,
Qoyma əl-əldən üzülə.
Elə dillən bir sözünlə
Min könüldə bayram olsun.

Keç "Cəngi"yə, "Sarıtel"ə,
Kökdən-kökə, teldən-telə.
Aydan-aya, ildən-ilə,
Sənətə ehtiram olsun.

Bülbül oxur, qaz vaxtımı,
Saz danışır, caz vaxtımı,
Saxta işvə-naz vaxtımı
Bunla necə aram olsun.



Cavanlığım indi hanı,
Ağrı-acı tapsa canı,
Neylərəm dava-dərmanı,
"Qaraçı" çal, çaram olsun.

Hüseyn Arif, daha nə qəm,
Əldə qələm, dildə Dilqəm.
Unudulsa yanıq Kərəm,
Nəsillərə haram olsun.

## İSTƏMİRƏM

Gecəyarı...
göz qoyuram təbiətə,
Nə hərəkət, nə danışıq, nə çal-çağır,
Nə söz deyim, nə ad verim bu möhnətə.
Göydən yerə bulud-bulud yuxu yığır.

Yatağında nəfəsini dərir dəniz,
Təmtəraqlı qağayılar mürgüdəmi?
Sahil səssiz, küçə səssiz, həyət səssiz,
Nəhəng bina, qalın divar mürgüdəmi?

Xəyal məni çəkib gedir ovlaqlara,
Ana maral, bala ceyran yuxudadır.
Tarla hara, zəmi hara, sükut hara,
Böyük-kiçik, qoca-cavan yuxudadır.

Üfüqlərin seyrinəmi dalır çəmən,
Bir şəfəqdən qopub gələn nemət üçün.
Dağın qaya qulağımı o diklənən,
İşıq üçün, nəğmə üçün, söhbət üçün.

Kəsib duman bürüyəndə zirvələri,
Əliklərmi köks ötürüb yazıqlaşan.
Uzananda qaranlığın kölgələri,
Arzularmı, əməllərmi uzaqlaşan?

Hanı sübhün şeh qoxulu, şeh nəfəsi,
Belə vaxtda qol boşalır, göz qamaşır.
Bircə anlıq uyuyanda Yer kürəsi,
Bir əsrlik gücdən düşüb ağırlaşır.

Gecələrin kəs ömründən, gündüzə qat,
Səssiz-küysüz dövran sürmək istəmirəm.
Oyan Günəş, açıl səhər, çağla həyat,
Mən dünyanı yatmış görmək istəmirəm.

## BİRİ MƏN

Dağa çıxdım, yanılmadım sağ-solumu,
Buz göynətdi ayağımı, qolumu,
Birnəfəsə üçü kəsdi yolumu,
Biri duman, biri çiskin, biri çən.

Dədə yurdun çilçırağı kəsildi,
Dost evindən dost ayağı kəsildi.
Ömrümüzə üçü yağı kəsildi,
Biri həsrət, biri nisgil, biri qəm.

Nə Murovam, nə Murğuzam, nə Qoşqar,
Nədən belə yürüş etdi başa qar!
Evimizdə üç dilbilməz uşaq var,
Biri nəvə, biri nənə, biri mən.

## VAXTIDIR

Çıraqlar qaralır, ulduzlar sönür,
Dərəyə çən dolub çisək vaxtıdır.
Təbiət dəyişir, ruzigar dönür,
Çöldə qar ələnir, külək vaxtıdır.

Çalınır dağlarda şimşəyin zəngi,
Elə bil hardasa başlanır cəngi.
Yaşıl yarpaqların saralıb rəngi,
Qalın meşələrin seyrək vaxtıdır.



Fikirli qayalar bilmirəm nədir?
Sular qulağıma nəsə nəql edir.
Gecə uzandıqca uzanıb gedir,
Gündüzün ömrünün gödək vaxtıdır.

Getdi anam, atam, getdi tutarım,
Sovuşdu çəmənim, soldu baharım.
Dəyməyin xətrimə, ay balalarım,
Yaralı könlümün kövrək vaxtıdır.

## DEYİBLƏR

O ocaq da, bu ocaq da eynidir,
Saz-söhbət də, səs-soraq da eynidir.
Bu dil o dil bir dodaqda eynidir,
O tərəfə, bu tərəfə əyiblər.

O dəftərə, bu dəftərə bölündük,
Baxa-baxa, görə-görə bölündük.
Bir ürəkdik, neçə yerə bölündük,
Neçə yerdən dağlayıblar, döyüblər.

Ana torpaq nə oğullar yetirdi,
Haqq danışdı, haqq əmrini bitirdi.
Ulu Kərkük meh ətrini gətirdi,
Çöllər, düzlər əlvan-əlvan geyiblər.

Mən nə deyim bu dünyanın səbrinə,
Azmı dözdük əzabına, cəbrinə.
Toxunmayın Füzulinin qəbrinə,
Ömür köçər, qəbir köçməz deyiblər.

## EYLƏDİ

Təbiət birini kobuddan kobud,
Birini zərifdən zərif eylədi.
Birini camalla çəkdi zirvəyə,
Birini kamalla təltif eylədi.

Hərə bu dünyada gəzdi eynini,
İşlətdi başını, yordu beynini.
Bayquş boz qanqala saldı meylini,
Bülbül qızılquşu tərif eylədi.

Sevincə də baxdım, qəmə də baxdım,
Sevinc də baxtımdı, kədər də baxtım,
Tək sevinc olsaydı, kim olacaqdım,
Qəm məni Hüseyn Arif eylədi.

### DEYƏ-DEYƏ

Çaylar daşır, daşlar aşır,
Bir-birini döyə-döyə.
Şah bulaqlar şaqqıldaşır,
Bir-birinə dəyə-dəyə.

Bu zirvədə parıltılar,
Qarlı döşdə xarıltılar.
Şimşək çaxdı gurultular,
Sığışmadı yerə-göyə.

Sona köçüb, göldən gedir,
Ətir uçub güldən gedir.
Sağlığımız əldən gedir.
– Sağlıq olsun, – deyə-deyə.

### QOYMAYIN

Meşələr, qoymayın itsin bulaqlar,
Çeşmələr pozulsun, çaylar pozulsun.
Nəğmələr, qoymayın sussun dodaqlar,
Qayalar, qoymayın qartal yorulsun.

Lalələr, qoymayın düzlər boş qala,
Buludlar, qoymayın göylər boşalsın.
Çiçəklər, qoymayın bülbül lal ola,
Gözəllər, qoymayın şair qocalsın.



### YETİŞMƏMİŞ

Külək qalxıb haray salır,
Maral gölə yetişməmiş.
Gün darıxır, qaş qaralır,
Köç mənzilə yetişməmiş.

Can alışıb qora dönür,
Yaş yanağa yetişməmiş.
Qara tellər, qara dönür,
Əl darağa yetişməmiş.

Yollar, izlər buz bağlayır,
Vaxt çilləyə yetişməmiş.
Həştad bizi yaxalayır,
Yaş əlliyə yetişməmiş.

### DEMƏK OLMAZ

Yüz il ömr eləsə qartal dünyada,
Unut birdəfəlik, onu anma sən.
Vaxtsız yorulmasa daşda, qayada,
Heç vaxt pələngi də pələng sanma sən.

Şimşək tez sönməsə, o şimşək deyil,
Qış qarsız keçəndə, qış demək olmaz.
Ürək alışmasa, o ürək deyil,
Ağarmayan başa baş demək olmaz.

### ÖZÜM DƏ BİLMİRƏM

Baharım tərsinə, qışım tərsinə,
Kimin söhbətini kimə deyim mən?..
Səhər "Cəngi" üstə köklənən sinə,
Axşam qəmli-qəmli ötən neyəm mən.

Xeyir yetişməmiş yolu kəsir şər,
Şərbət dadılmamış hazırdır zəhər.
Bir anım həsrətdir, bir anım kədər,
Özüm də bilmirəm, kiməm, nəyəm mən.

Nə fərqi ucalıb ulduza çatsam,
Tərifə bürünüb, təbrikə batsam.
Arifin ayağı altında yatsam,
O zaman zirvədən zirvədəyəm mən.

## AXTARAR SƏNİ

Ağ gölün qaşından endin Göyçəyə,
Zodda qarşıladı Ağayar səni.
Doğma balası tək basdı bağrına,
Saz-söhbət qoxulu bir diyar səni.

Getdin qulluğuna qul Ələsgərin,
Usta Abdullanın, Mirzə Bəylərin.
Məhəmmədhüseyn tək sinədəftərin,
Yolunda yormadı ruzigar səni.

Çatdın Qızılvəngə sökülə ndə dan,
Ağladı gözündə qədim qəbristan.
Alıdan, Həcərdən söz düşən zaman,
Boğdu həsrət səni, intizar səni.

Qurbanın, Abbasın düşdün izinə,
Əmrahın, Qasımın gəldin sözünə.
Xeyli var, cəzb edib səni özünə,
Nakam Dilqəm kimi sənətkar səni.

Nə qədər canında can var, Hüseyn,
Həyata borcunu qaytar, Hüseyn.
Axtar babaları, axtar, Hüseyn,
Bir gün də nəvələr axtarar səni.



## VƏDƏSİNDƏ

Ağrı cana hopub dizə enməmiş,
Ağırı, yüngülü ölç vədəsində.
Saça qırov qonub, qar ələnməmiş,
Bir könül həmdəmi seç vədəsində.

Ürəkdə saxlama ürək sözünü,
Boğma kül altında, boğma közünü.
Necəsən açıqda göstər özünü,
Sınaq meydanından keç vədəsində.

Fərəhim, hüsnünü görən xoşlanır,
Buxaq ətirlənir, tel naxışlanır.
Sənin gül mövsümün təzə başlanır,
Mənim çəmənimin köç vədəsində.

## QƏLBİM ORDA DÖYÜNÜB, FİKRİM ORDA DOLANIB

Harda şəfəq parlayıb,
Harda günəş boylanır.
Qəlbim orda döyünüb,
Fikrim orda dolanır.

Harda bir ev yüksəlib,
Harda bir ocaq yanır.
Qəlbim orda döyünüb,
Fikrim orda dolanır.

Harda təzə bağ düşüb,
Təzə ağac sulanır.
Qəlbim orda döyünüb,
Fikrim orda dolanır.

Harda torpaq oyanıb,
Harda həyat canlanır.
Qəlbim orda döyünüb,
Fikrim orda dolanır.

## AĞRIMA, ÜRƏYİM

Ömrün nə vaxtdır titrəyə qələm,
Yazıb-pozmalıyam mən indən belə.
Davaya, dərmana dözə bilmərəm,
Ağrıma, ürəyim, ağrıma hələ.

Həyatın nə qədər imtahanı var,
Sığmayır kağıza, sığmayır dilə.
Neçə qohum toyu, dost nişanı var,
Ağrıma, ürəyim, ağrıma hələ.

Keçsin ayım, günüm mübarizədə,
Gərdikcə sinəmi, tufana, selə.
Ruhuma doğmadır mey də, məzə də,
Ağrıma, ürəyim, ağrıma hələ.

Dağıtmaq istərəm dumanı, çəni,
Oyanıb obaşdan bahar yeliylə.
Dağların zirvəsi gözləyir məni,
Ağrıma, ürəyim, ağrıma hələ.

## GÖRÜNMƏZ

Göyü bulud alar, üfüq daralar,
Bağı xəzan dalar, yarpaq saralar.
Yerdə çöp alışar, torpaq qaralar,
Sinədə dağ yanar, közü görünməz.

Zirvə buz bağlayar, döşə qış düşər,
Dərəni su ovar, düzə daş düzər.
Üzə yel toxunar, gözə yaş düşər,
Qəlbdə tufan qopar, izi görünməz!

Hüseyn, sən hara, rahatlıq hara?!
Dənizdə dalğalar verməyir ara.
Fikir qar ələyər qara saçlara,
Əməli görünər, özü görünməz!



## AYRILIQ

Gah sellər, sulartək coşub-çağlayar,
Gah dönür alova, oda ayrılıq.
Enişli-yoxuşlu ömrün yolunda,
Düşər vaxtlı-vaxtsız yada ayrılıq.

Çıxmaq asan deyil imtahanından,
Həsrət dünyasının qəm meydanından.
Bəzən yüz çirkinin ötüb yanından,
Verər bir gözəli bada ayrılıq.

Azmı qismət olub yaxşılar pisə,
Açmayıb sirrini zaman heç kəsə.
Qananı qanmazdan ayıra bilsə,
Qoy var olsun bu dünyada ayrılıq.

## SAXLAYA BİLMƏZ

Söyüddən bir paya düzəltdi bağban,
Çəpərin ömrünü uzatmaq üçün.
Bir ucu güc aldı gündən, havadan,
Bir ucu torpağa işlədi hər gün.

Öpdü bahar fəsli su ayağını,
Ətrini səhərin ətrinə qatdı.
Tikanlar didsə də göy yarpağını,
Qalxıb hər tərəfə qol-qanad atdı.

Nəhayət, içindən pozdu çəpəri,
Onun qollarını bağlamaq olmaz.
Ağactək böyümək istəyənləri,
Payatək çəpərdə saxlamaq olmaz.

## QƏZƏL

Keçirmə vaxtını, ey dost, mərifət olmayan yerdə,
Rəzalət hökmü fərmandır, həqiqət olmayan yerdə.

Dalınca min nəfər gəlsə, özünü arxalı sanma,
Dəyanət olmayan yerdə, mətanət olmayan yerdə.

Küləkdən bir əsər yoxsa, keçib getməz duman, çiskin,
Ümidlər, arzular puçdur cəsarət olmayan yerdə.

Yalanmış sevdayi-aləm, zəhər daddım gül əllərdən,
Şəkər, şərbət də boş şeydir, məhəbbət olmayan yerdə.

Özüm də istəməzdim bil, itirdim əhdə ümidi,
Hüseyn, bərkə çox düşdüm sədaqət olmayan yerdə.

## YAXŞI Kİ

Yaxşı ki, qartalın fəsadı yoxdur,
Qayalar zirvədə qana batardı.
Yaxşı ki, dəvənin qanadı yoxdur,
Daxmalar uçulub, damlar yatardı.

Yaxşı ki, bayquşun zil səsi yoxdur,
Səslər boğulardı cılız səsində.
Yaxşı ki, həsrətin tüstüsü yoxdur,
Göz-gözü görməzdi Yer kürəsində.

## ÇÖRƏK

Çörək müqəddəsdir eldə, obada,
Əsrlər boyunca unudulmayıb.
Odu ayaqlayıb ötən olsa da,
Çörəyin üstündən keçən olmayıb.



Odur süfrəmizə yaraşıq, bəzək,
Açmış qapımızı nə qədər qonaq.
Biz çörək vermədik çörək istəyək,
Biz çörək verdik ki, çörəkli olaq.

## ŞEİR

De kimə lazımdır, nəyə gərəkdir,
Dostların könlünə yatmayan şeir?
Fəhlənin ruhunu qanadlandırıb,
Alimin ağlına batmayan şeir.

Yaysın dağ ətrini, dəniz ətrini,
Qızılgül, göy sünbül, nərgiz ətrini.
Yaşarmı torpağın təmiz ətrini,
Göylərin ətrinə qatmayan şeir.

Yaxında alışıb, uzaqda yansın,
Tüstüdə boğulub, ocaqda yansın.
Kitabda alışıb, varaqda yansın,
Bu evdən o evə çatmayan şeir!

## BƏNZƏR

Nə qədər qız qızdır ata evində,
O məğrur dayanan bir dağa bənzər.
Lakin gəlin olub geri dönəndə,
Hər şeydən sıxılan qonağa bənzər.

Ömrə darlıq edər ömür qəfəsi,
Ötürər köksünü görsə hər kəsi.
Tükənər sevinci, sönər həvəsi,
İstisiz, tüstüsüz ocağa bənzər.

Dolaşar dilində söhbəti, sözü,
Çillə qırovu tək ağarar üzü.
Xəlvəti, aşkara yaşarar gözü,
Gözündən bulanan bulağa bənzər.

Deyirsən, çiçəkdir solub bahardan,
Deyirsən, ceyrandır düşüb tutardan.
Deyirsən, durnadır qalıb qatardan,
Deyirsən, insandır yumağa bənzər.

Əbəs başlamadım bu gileyləri,
Dünyanın dünyadan yoxdur xəbəri.
Arifsiz Hüseyn aylardan bəri,
Nə xəstəyə oxşar, nə sağa bənzər.

## XƏBƏR YOX

Neçə il torpağı yaralayıb bel,
Torpaq o torpaqdır, beldən xəbər yox.
Neçə yol zirvəni paralayıb sel,
Dağda da həmən dağdır, seldən xəbər yox.

Qurbağa gölü də coşub, cağlayıb,
Çör-çöp də yığılıb yolu bağlayıb.
Neçə yol qayanı yel ayaqlayıb,
Qaya yerindədir, yeldən xəbər yox.

Azmı vaxtlı-vaxtsız tutuldum daşa,
Dözdüm əziyyətə, düşdüm savaşa.
Hüseyni el sevib, el çəkir başa, –
Qurulan fitnədən, feldən xəbər yox.

## BİLƏNDƏ Kİ...

Elə dikmə ulduzlara gözünü,
Ulduz səndən, sən ulduzdan uzaqsan.
Meşə bilib, meşə sanma özünü,
Sabah qalxıb, axşam qopan budaqsan.

Nur ələnib hər gədiyə, hər qaşa,
Milyon naxış vurulubdu dağ, daşa.
Dünya evi yaranışdan tamaşa,
Bircə şeyi unutma ki, qonaqsan.



Ay Hüseyn, demə nədir bu yoxuş,
Bu yollarda neçə ömür yorulmuş.
Ayrılıqdan daha çətin olurmuş,
Biləndə ki, bir gün ayrılacaqsan.

## AMAN, AĞRI!

Aman, ağrı, ürəyimdən yapışma,
Orda şər qarışır, orda dan atır.
Sevinci hesabsız, kədəri sonsuz,
Biri həsrət çəkir, biri naz satır.

Arzudur, əməldir, qoldur, qanaddır,
Kükrəyib çağlayan canlı həyatdır.
Gecəli-gündüzlü bir kainatdır,
Gahdan Günəş doğur, gahdan Ay batır.

Orda qərar tutub Hüseynin özü,
Aranı, yaylağı, dərəsi, düzü.
Zal qızı Gülnazın bitməmiş sözü,
Dilqəmin yaralı dastanı yatır.

## SORUŞ

Dedim: – Yol, nə uzandın?
Uzanıb, nə qazandın?
Dedi: – İncimə məndən,
Bunu yoxuşdan soruş.
Dedim: – Yoxuş, nə oldu?
Ayaqlarım yoruldu.
Dedim: – Mənə nə var ki,
Torpaqdan, daşdan soruş.
Dedi: – Torpaq, nədir sən
Belə tərslik edirsən?..
Dedi: – Bu ağırlığı
Qardan, yağışdan soruş.

Dedim: – Qar, dincəl bir az,
Yolu bağlamaz olmaz.
Dedi: – Bu vəziyyəti
Qış gəlib, qışdan soruş.

Yol güldü, yoxuş güldü,
Qar güldü, yağış güldü.
Üstümə birdən-birə
Payız güldü, qış güldü,
Dedilər: – Ay Hüseyn,
Qınama təbiəti,
bu sirri, bu hikməti
Yaş ötüb, yaşdan soruş.

## BABALAR

Bir suyun başında məskən salaraq,
Bir yurdda min ocaq çatdı babalar.
Sellər kükrəyəndə, məğrur səsini
Çayların səsinə qatdı babalar.

Bir olub həyatda könül həmdəmi,
Bir bölüb sevinci, bir bölüb qəmi.
Dosta dost dedilər ölənə kimi,
Yadlara əbədi yaddı babalar!

Enişi-yoxuşu, düzü bir olub,
Məramı, məqsədi, üzü bir olub.
Bərkdə də, boşda da sözü bir olub,
Şərəfli, şöhrətli, adlı babalar.

Alışdı istiyə, dözdü sazağa,
Bağladı meylini suya, torpağa.
Düşmən hay salanda qalxdı ayağa,
Qılınclı, qalxanlı, atlı babalar.



Güləşdə buğanın boynunu burub,
Havada kəkliyi gözündən vurub.
Ürkək elikləri piyada yorub,
Ceyranlar dalından çatdı babalar.

Zirvədə alnını oxşadı külək,
Dərədə üstünə ələndi çisək.
Arabir qayada dirsəklənərək,
Qartalla baş-başa yatdı babalar.

Buludla dərdini bölən dağlara,
Şəfəqlə şadlanıb, gülən dağlara.
Yəhərli, yüyənli köhlən dağlara,
Cığır kəməndini atdı babalar.

Səngərdə doğulub, keşikdə durub,
Bir kəmər qaşına on naxış vurub.
Vaxtında yaradıb, vaxtında qurub,
Vaxtında yığışıb getdi babalar.

Qurbanı, Abbası, Əmrahı anıb,
Kərəmlə alışıb, Dilqəmlə yanıb.
Tütəklə uyuyub, sazla oyanıb,
Kamanla dil açıb ötdü babalar!

Xəyalın, kamalın qüdrətinə bax:
Əngin üfüqlərdən gətirir soraq.
Gün kimi aləmə şölə saçaraq,
Ay kimi gizlənib, batdı babalar.

## YAŞ ALTMIŞDIR

Uşaqlıq quş kimi uçdu əlimdən,
Cavanlıq car çəkib, köçdü elimdən.
Nə deyim, nə yazım öz taleyimdən,
Bu nə qovhaqovdur, bu nə qaçışdır,

Saçlara baxıram, hanı o saçlar?
İllərə baxıram,
Yaş altmışdır!

Otuzda, teldəki dən nədir?
Bildim.
Qırxda, çiskin nədir? Çən nədir?
Bildim.
Əllidə, yorğunluq mən nədir, bildim,
Gedirəm, düz qaçır, döş uzaqlaşır.
Meşə o meşəmi, göl o göldümü?
Təbiət neyləsin,
Yaş altmışdır!

A maral, qanrılıb, boylanma gendən,
A cüyür, gözümün qaçma önündən.
Dağ kəli, yanında xəcalətəm mən,
Yuxunu pozanda yuxum qarışdı,
Gəlin halallaşaq ovçu dostlarım.
Mən ovçu deyiləm,
Yaş altmışdır!

Vaxtın hökmü belə, sözü belədir,
Sifəti belədir, üzü belədir.
Ömrün yolu belə, izi belədir,
Arxada yazdısa, qarşıda qışdır.
Enişdə, yoxuşda gözlə özünü,
Yəhərdən bərk yapış,
Yaş altmışdır!

Hava sabah isti, axşam sərindir,
Dünən dayaz olan bu gün dərindir.
Yerə ayağını asta bas indi,
Sağında tikandır, solunda daşdır.
Qaçma hər məclisə, uyma yad kəsə,
Çox düşün, az danış,
Yaş altmışdır!



Kimsə sinəsinə döyməz həyatda,
Başatək bəxtini öyməz həyatda.
Tapılan itənə dəyməz həyatda,
Sevinc bir naxışdır, qəm bir naxışdır,
Günəmi güvənim? Gün günün eyni,
Yaşamı sığınım?
Yaş altmışdı!

Hərə bir peşəni seçdi dünyadan,
Suallar sorğular keçdi dünyadan,
Neçə dost çiynimdə köçdü dünyadan.
Alın ayrılıqdan qırış-qırışdır,
Tökür yarpağını zirvədə palıd,
Əsir xəzan yeli,
Yaş altmışdır!

Ariflə ulduzum qaraldı, getdi,
Çəmənim, çiçəyim saraldı getdi.
Üstümü əbədi qar aldı, getdi,
Bu başqa iztirab, başqa təlaşdır,
Ay oğul hardasan, başına dönüm,
Xəbərin varmı ki,
Yaş altmışdır?!

Dəli çaylar kimi təbim daşardı,
Xəyalım aşılmaz dağlar aşardı.
Bir göz gözlərimə baxıb yaşardı,
Özümdə deyiləm, bu nə baxışdır,
Əzizim, o yaşı götür o gözdən,
Mənim nə günahım,
Yaş altmışdır!

Karvanım ötmədi səssiz-səmirsiz,
Harayım birümman, ünüm bir dəniz.
Ay ata, ay ana baş qaldırın siz,
Qohumlar yığışır, dostlar qaynaşır.
Görən aşıq Alı niyə ləngidi?
Bir cəngi istərəm, "Yaş altmışdır!"

Ürəklə sazımı çaldım əzəldən,
Ürəklə dilimdə dil açdı Vətən.
Ürəklə yurd saldım ürəklərdə mən,
Yüz sözüm, söhbətim elə tanışdır.
Qopub milyon qəlbdən, milyon dodaqdan,
Bir səs qulağıma axdı uzaqdan.
Həmişə bahardır Hüseyn Arif,
A şair, demə ki, yaş altmışdır!

## QAYIT, UŞAQLIĞIM

Qayıt, uşaqlığım, qayıt bir anlıq,
İtən günlərimi tapmaq istərəm.
Minim axşamüstü qarğı atımı,
Yollardan yollara çapmaq istərəm.

Qayıt, uşaqlığım, qayıt bir anlıq,
Yeriyib, yıxılıb, qaçmaq istərəm.
Səhərlər çiynimdə məktəb çantası,
Sinif otağını açmaq istərəm.

Qayıt, uşaqlığım, qayıt, bir anlıq,
Mən səni bağrıma basmaq istərəm.
Nənəmin saxlancı ala çatıyla,
Ağacdan yelləncək asmaq istərəm.

Qayıt, uşaqlığım, qayıt, bir anlıq,
Sən niyə tez keçdin? Bilmək istərəm.
Həyat şirin imiş, mən bu dünyaya,
Yenidən doğulub gəlmək istərəm.

## AY ÖTƏN GÜNLƏRİM

Qövr edir sinəmdə min yara yeri,
Ay ötən günlərim, ötən günlərim.
Bir də düşəcəkmi yönünüz geri.
Ay ötən günlərim, ötən günlərim.



Gözəl uşaqlığım gözümdən itdi,
Onun arxasınca gənclik də getdi.
Dən düşdü saçıma, qocalıq yetdi,
Ay ötən günlərim, ötən günlərim.

Daha könül vermir nazlı yar mənə,
– Əmi, dayı, – deyir uşaqlar mənə.
Sanki geniş dünya gəlir dar mənə,
Ay ötən günlərim, ötən günlərim.

## UŞAQLIQ

Doğma kənd evində, kənd həyətində,
Yeridi, yıxıldı, süzdü uşaqlıq.
Ana qucağında, ata qolunda
Qayğılar gölündə üzdü uşaqlıq.

İncə təbiəti, incə ürəyi
Andırır çəməndə gülü, çiçəyi.
Azca gecikəndə çayı, çörəyi
Küsüb, dodağını büzdü uşaqlıq.

Yaz fəsli torpaqdan qalxanda yonca
Düzlərin ətrinə batdı doyunca.
Çöllərə düşəndə quzu dalınca
Yağışa, yağmura dözdü uşaqlıq.

Əzəldən başqadır onun aləmi,
Şirindir gülüşü, xoşdur qədəmi.
Qarpızdan araba, kağızdan gəmi
Uydurub dünyanı gəzdi uşaqlıq.

Elə ki, səninlə üz-üzə gəldim
Ömrümdə ilk dəfə o gün əyildim...
Qollarım yanıma düşəndə bildim
Əlini əlimdən üzdü uşaqlıq.

## GÜNLƏR OLAYDI

Bağlar arasından cığırla, izlə
Məktəbə getdiyim günlər olaydı.
Sıxıla-sıxıla bir qaragözlə
O söhbət etdiyim günlər olaydı.

Həyat müvəqqəti, ömür köçəri,
Alnımda yoxuşun, enişin təri
Mehmandan keçəndə bildirçinləri
Qovub, hürkütdüyüm günlər olaydı.

Damlalar alışdı çəmən güləndə,
Sonalar dil açdı yağış gölündə.
Təzə göy otlara Ceyran çölündə
Üzümü sürtdüyüm günlər olaydı.

Fikir haralarda gəzdirir məni,
Hər kəsin ilk yurdu, əzəl məskəni.
Qazaxdan çıxanda Dağkəsəməni.
Yel kimi ötdüyüm günlər olaydı.

Qoxladım torpağın rayihəsini,
Sübhün könül açan gül nəfəsini.
Çoban tütəyinin həzin səsini
Dağda eşitdiyim günlər olaydı.

Uçdum at belində baxmadan geri,
Qayadan sıçratdım xallı kəhəri.
Zirvəyə qalxanda, gümüş yəhəri
Döşdə bərkitdiyim günlər olaydı.

Dəyələr böyründə qarım qazdığım,
Sinəmi ocağa verib qızdığım,
Çisəkdə islanıb, çəndə azdığım,
Dumanda itdiyim günlər olaydı.



Xoşladım şənliyi, eşqi, məzəni,
Sevmədim sənətə ağız büzəni.
Aşkara dillənib aşıq Mirzəni,
Xəlvəti ötdüyüm günlər olaydı.

Hüseyn nələri gətirər yada...
Gözümün işığı Ağstafada
Yenicə on dördü qoyub arxada,
Onbeşə yetdiyim günlər olaydı.

## O GÜNLƏR

Vaxt var idi, qar üstündə yatardım,
Sabah şehə, axşam çənə batardım.
Dağı, daşı bir-birinə qatardım,
Nə varımış,
        nə yoxumuş o günlər!..

Babadağdan Şahdağına keçdiyim,
Qayaların sol-sağına keçdiyim,
Qartalların ovlağına keçdiyim,
Nə enişmiş,
        nə yoxuşmuş o günlər!

Bir də gördüm ləpələndi gül-çiçək,
Bir qızılquş süzüb qalxdı güllə tək.
Baş qarışdı, yaddan çıxdı çay-çörək
Nə acımış,
        nə toxumuş o günlər!

Dodaqlarım buz bağladı bulaqda,
Yanaqlarım pul-pul oldu sazaqda,
Ardış közü gül-gül açdı ocaqda
Nə istiymiş,
        nə soyuqmuş o günlər!..

Zirvə-zirvə dayanmadım, durmadım,
Dərə-təpə, çətin, asan sormadım.
Acı,
şirin,
hesabına varmadım,
Nə az imiş,
nə çoxumuş o günlər!..

Müddətdi ki, heç özümə gəlmirəm,
O yerlərsiz danışmıram, gülmürəm.
– Yaxın, – deyim,
– Uzaq, – deyim
bilmirəm,
Nə yaxınmış,
nə uzaqmış o günlər!..

Göz doymadı nə Arazdan, nə Kürdən,
Sahil boyu ayrılmadım fikirdən.
Hüseyn Arif, elə bil ki, ömürdən,
Gəlib-gedən bir yuxuymuş o günlər.

## DÜNYANIN

Bir əli xəlvəti didib söksə də,
Bir əli bəzəyib tikir dünyanın.
Bir əli qanqala sığal çəksə də,
Bir əli gül-çiçək əkir dünyanın.

Biri bülbül kimi düşmür həvəsdən,
Biri bayquş kimi ulayır pəsdən.
Biri körpü salır çayların üstdən,
Biri kərpicini sökür dünyanın.

Səhərlər güləndə Günəşin üzü
Şəfəqlə yuyulur dərəsi, düzü.
Birdən təbiətin dönəndə üzü
Üstünə çən, çiskin çökür dünyanın.



Birinin arzusu, diləyi yeni,
Biri ömrü boyu yormaz beynini,
Biri yük altına verər çiynini,
O biri çiynində yükdür dünyanın.

## YAXŞI Kİ VARMIŞ

Bir yaşıl çəməndə açdım səhəri,
Çiçəklər qızardı yanaqlarımda.
Dinlədim çayları, şəlalələri,
Sevinib dincəldi qulaqlarım da.

Dərələr, təpələr üzümə güldü,
Bilmədim haradan, haraya gəldim.
Elə bil çiynimdən yük götürüldü,
Elə bil yenidən dünyaya gəldim.

Ürkdü dağ keçisi şimşək çaxanda,
Torpaq naxış-naxış, göy naxış-naxış.
Ürək yorulanda, can darıxanda
Dədə-baba dağlar yaxşı ki, varmış.

## MƏN NƏ GÖRƏM

Ərzurumun gədiyinə
Qar ələndi birəm-birəm.
Yer inlədi, göy ağladı
Kəsiləndə bəndim, bərəm.

Tufan qopdu neçə kərə,
Qərarını verə-verə.
Yas saxladı Babəklərə
Çiskin dolu dağım, dərəm.

Dərd Abbasa nələr etdi,
"Can" söyləyib, "çor" eşitdi
Xəstə Qasım xəstə getdi,
Aman ağrı, aman vərəm.

Söndü gözlərin işığı,
Pozuldu yar-yaraşığı.
Nalə çəkdi el aşığı
Haray Əsli, haray Kərəm.

Hüseyn Arif, yox tutarım,
Kökdən düşüb sazım, tarım.
Nə gördü ki, babalarım
Bu dünyada mən nə görəm.

## HƏLƏ

Qalxdım Şahın zirvəsinə,
O istəkdir, istək hələ.
Zərrəcə gəlməz eynimə,
Yağış, yağmur, külək hələ.

Dağ kəlinin dağ qatarı
Öz görkəmi, öz vüqarı
Əyilib yaladım qarı,
O ürəkdir, ürək hələ.

Hüseyn Arif yanmaz oda,
Yorğunluğu salmaz yada.
Yaş yetmişə yan alsa da,
O şimşəkdir, şimşək hələ.

## DURASIYAM MƏN

Hələ çox gecəni qatıb gündüzə,
Vaxtı qabaqlayıb yorasıyam mən.
Dəli dalğalarla durub üz-üzə,
Dayazı, dərini sorasıyam mən.

Yaradan kimsəyə nə qış, nə payız,
Bir qələm gərəkdir, bir də ağ kağız.
İncilər sinəmdə saysız-hesabsız,
Hələ çox naxışlar vurasıyam mən.



Bu südə, sümüyə, qana and içim,
Namusa, qeyrətə, sana and içim.
Nəyə deyirsiniz, ona and içim,
Bu dünya durduqca durasıyam mən.

## ŞAİRİN

Əbəs yaranmayır yarananda o,
Silinməz tarixdən izi şairin
Alovla yoğrulub, nurla bəzənib,
Torpaqla bərkiyib dizi şairin.

Çox yalan eşidib, çox böhtan görüb,
Çathaçat, vurhavur, qaçhaqaç görüb.
Neçə soltan görüb, neçə xan görüb,
Bir olub sifəti, üzü şairin.

Sevinci işıqlı səhər olubdur,
Kədəri zülmətdən betər olubdur.
Dililə dillərdə əzbər olubdur,
Dərəsi, təpəsi, düzü şairin.

Yarası vətənin ağır yarası,
Çarası həyatda haqqın çarası.
Cibində tükənər pulu, parası,
Ürəkdən tükənməz sözü şairin.

## DEYİLDİ

Könül istər hey danışa, hey dinə,
Bu varaqdır, bu qələmdir, bu da dil.
Bir də çıxdım yurdumuzun seyrinə
Bu Şirvandır, bu Muğandır, bu da Mil.

Gözüm qaldı qızılyanaq üfüqdə,
Qızıl günəş, qızıl çıraq üfüqdə,
Buludların səfinə bax üfüqdə,
Biri dəvə, biri maral, biri fil.

Yaranışdan yaraşıqdır dağ-dağa,
Meşə-meşə düşdüm səsə, sorağa,
Qarayazı!..
Fikrim uçdu uzağa,
Ayağından asılmışdı Anadil.

Bu yollarda duman nədir, çən nədir,
Saça qonan qırov nədir, dən nədir?
Təbiətə saat nədir, gün nədir,
Keçə həftə, dolana ay, ötə il.

Əzizləyib şirin layla çalana,
Qollarını boynumuza salana,
Ana kimi qayğımıza qalana,
Ana torpaq, Ana Vətən! – deyildi.

## BƏLKƏ

De, hansı çeşmənin gözündən içdim,
Bəlkə bir də içdim, bəlkə içmədim?
De, hansı çəmənin gülündən seçim,
Bəlkə bir də seçdim, bəlkə seçmədim?

Həsrətmi qarşıda gözü yol çəkən,
Buludmu bulanıb, belə yaş tökən.
Bu yaşıl taladan keçim vaxt ikən
Bəlkə bir də keçdim, bəlkə keçmədim.

Getməz xəyalımdan o daş, o qaya,
Gecə göz qoyduğum ulduza, aya,
Əzəl qonduğumuz yurda, yuvaya,
Bəlkə bir də köçdüm, bəlkə köçmədim?



## ÖMÜR BƏLKƏ ÇATDI, BƏLKƏ ÇATMADI

Təzə bir ağac da əkdim torpağa,
İlişib torpağa əlim qanadı.
Şirin meyvəsini kəsib dadmağa,
Ömür bəlkə çatdı, bəlkə çatmadı.

Qarışıb önümdə varaq-varağa,
Dilimdə yaralı Dilqəmin adı.
Zal qızı Gülnazı tamamlamağa,
Ömür bəlkə çatdı, bəlkə çatmadı.

Qaynayıb qarışdım yaxşılarla mən,
Məclislər uzandı kimsə yatmadı.
Çıxmağa dostların xəcalətindən,
Ömür bəlkə çatdı, bəlkə çatmadı.

Yerlərin, göylərin daldım seyrinə,
Fikirlər, duyğular məni atmadı,
Könüldən keçənin yüzdən birinə
Ömür bəlkə çatdı, bəlkə çatmadı.

Hər təmiz ülfətin, hər xoş kəlamın,
Hələ də fikrimdə ləzzəti, dadı.
Nə deyim, toyuna Tural balanın,
Ömür bəlkə çatdı, bəlkə çatmadı.

## AŞIQ ƏLƏSGƏRƏ

Gəzib oba-oba, dolaşıb kənd-kənd,
Bir əsr ömr etmək gör nə deməkdir.
Dözüb oba-oba, odlanıb kənd-kənd,
Gözüylə alovlar görmək deməkdir.

Aləmi könlünün həmdəmi bildi,
Çəkdi xəyalını dağlar, aranlar.

"Göyçə qar əlindən zara gəlibdir,
Muğan həsrət çəkir a yağa qar-qar".

Dərdini ellərə sazla danışdı,
Göyçə mahalının, Göyçə gölünün
Eşqiylə neçə yol yanıb alışdı,
"Göyçə gözəlinin", "Göyçə gülünün".

Əkinçi yanından gəlib-keçəndə,
Yadına nə düşdü – yağış buludu.
Xalqın taleyini fikirləşəndə
Dərdi torpaq dərdi, su dərdi oldu.

Gəzdi Qarabağda, Mildə, Muğanda,
Camaat başına döndü, nə döndü.
Ustadlar ustadı sayılanda da
Ustadı yanında şagirdə döndü.

Təmkinli duruşu, uca qaməti,
İgid babaları xatırladardı.
Onda Dədə Qorqud əqli, hikməti,
Həm də qoç Koroğlu vüqarı vardı.

Ömrün əvvəlindən axırınadək
Saza bağlasa da öz ürəyini,
Yer əkib, su çəkib, toxum səpərək
Zəhmətlə qazandı duz-çörəyini.

Əllər tərpənmədi onun səsilə,
Ağaclar oynayıb, daşlar qızanda,
Qırğınlar dayandı bir kəlməsilə
Beyinlər qudurub, başlar qızanda.

Qıymadı yaxşıya, qıymadı mərdə,
Bir dost arxasında bir mahal oldu.
Yeri bilindikcə xeyirdə, şərdə
Gənc ikən mötəbər ağsaqqal oldu.



Zalımlar önündə titrədi zağ-zağ,
Atdığı hər güllə hədəfə dəydi.
O, Vaqifdən sonra, Vurğundan qabaq
Elə bil saz tutub, söz deməliydi.

## ÇATDIM, QAYITDIM

Sakit addımlarla qalxıb yuxarı,
Bir qala zirvəyə çatdım, qayıtdım.
Əlimdə oxşayıb tər yarpaqları,
Otların ətrinə batdım, qayıtdım.

Tağ tağa söykənib, budaq budağa,
Ətraf bürünübdü yaşıla, ağa.
Yorğunluq yükünü bircə anlığa,
Çiynimdən büsbütün atdım qayıtdım.

Bir yanda dincələn, bir yanda köçən,
Bir yanda bulaqlar gözündən içən.
Səsimi dəstəylə şığıyıb keçən,
Quşların səsinə qatdım, qayıtdım.

Yuxum ərşə çıxıb yorğan-döşəkdə,
Yaş da yaş hökmünü verir ürəkdə
Bir dilbər guşədə, bir sərinlikdə,
Dünyadan xəbərsiz yatdım, qayıtdım.

Birdən çənə düşüb yol azan oldu,
Ya çoban, ya həkim, ya ozan oldu.
Bəlkə məndən sonra qızınan oldu,
Dağlara bir ocaq çatdım, qayıtdım.

## TAPARSAN

Nə dilim ikidi, nə üzüm iki,
Elimdən, obamdan uzaq düşmədim.
Həyatda bir şeyə sevinirəm ki,
Nə dedim, hamsını ürəkdən dedim.

Canımda varlığın ətri, nəfəsi,
Dünyanı dolaşdım, aləmi gəzdim.
Qulaqda Qurbanın, Abbasın səsi,
Kərəmi aradım, Dilqəmi gəzdim.

Sığmaz kitablara sözüm, söhbətim,
Yolumda həm şəfəq, həm çisək oldu,
Gecəli, gündüzlü fikrim, niyyətim,
Soyumu, kökümü öyrənmək oldu.

Qasımda Əmrahın təravəti var,
Alı Abdullanı gətirir yada.
Niyə bir-birinə oxşamasınlar,
Sümük bir olanda, süd bir olanda?!

Tükənməz arzusu, bitməz əməli,
Torpaq şairinin, Vətən oğlunun.
Hüseyn Arifəm, Yunis İmrəli,
Qanımda qanından taparsan onun.

## VARIYDI

Düşünürəm dədə-baba kəndimi,
Dünyagörmüş qocaları varıydı.
Qədirbilən ağ birçəkli nənələr
Qardaşları, bacıları varıydı.

Fərhad kimi qaya çapıb, daş yaran,
Şux oturub, şux yeriyib, şux duran,
Bəd ayaqda qoldan tutub, qaldıran
Böyükləri, ucaları varıydı.

Qohum qonşu "can" deyib, "can" eşidər,
Təsüf çəkər, ülfət qılar, ar güdər.
Bayram günü evdən-evə pay gedər
Noğul dolu xonçaları varıydı.



Nazına bax ördəklərin, qazların,
Aşıq çalır, səsi qalxır sazların.
Çaya enən gəlinlərin, qızların
Sənəkləri, dolçaları varıydı.

Çinarlarla çəpərlənib sağ-solu,
Maşın yolu, fayton yolu, at yolu.
Yemiş, qarpız, alma, armud qoxulu
Bostanları, bağçaları varıydı.

Kişiləri bir-birindən ürəkli,
Qadınları səxavətli, çörəkli.
İlk baharda əlvan güllü-çiçəkli
Qapıları, bacaları varıydı.

Axşam-sabah hava açıq, meh sərin,
Torpaq geniş, meşə qalın, göy dərin.
Dağ döşündə məclis quran gənclərin
Çəmən adlı xalçaları varıydı.

Özüm getdim, gözüm qaldı o yerdə
Necə dözüm bu əzaba, bu dərdə?
Hüseyn Arif, nə tapmısan şəhərdə
Ötən ömrün nə çağları varıydı.

## YAŞAYIR

Eləsi var, nə arayır, nə anır,
Eləsi var, ana-ana yaşayır.
Eləsi var, nə qandırır, nə qanır,
Eləsi var, qana-qana yaşayır.

Eləsi var, ömrü verib yellərə,
Eləsi var, adı düşüb dillərə,
Eləsi var, oğul olub ellərə,
Ata-ata, ana-ana yaşayır.

Qəfil olma, zamana bax, vaxta bax,
Ocağa bax, süfrəyə bax, taxta bax.
Hüseyn Arif, aşıqdakı baxta bax,
Yanıq Kərəm yana-yana yaşayır.

## VAXTI GETDİ...

Soyuq düşdü araya,
Güllərin vaxtı getdi.
Göy çəmən tər laləni
Döşünə taxdı getdi.

Dağ solub, aran solub,
Dərələr çənlə dolub.
Yarpaqlar xəzəl olub
Sularda axdı getdi.

Durna hanı, qaz hanı...
Üşütmə tutdu canı,
Payız sarı xınanı
Çöllərə yaxdı getdi.

Görcək nitqim oldu lal,
Fikrimdə min bir sual, –
Xumar gözlü bir maral
Özümə baxdı getdi.

Ömrə-günə nə deyim.
Yoxdur əsla dincliyim.
Mənim odlu gəncliyim
Şimşək tək çaxdı getdi.

## QOCALIQ

Ömrün baharından gözün doymamış
Qış kimi üstünü alar qocalıq.
Qapıdan içəri buraxmasan da,
Bacadan özünü salar qocalıq.



Çəkər ağ əlini qara saçlara,
İnci tək dişlərə tapılmaz çara.
Çoxları əlindən gəlsə də zara,
Əzəlki hökmündə qalar qocalıq.

Çəkilər insanın nuru gözündən;
Güc qolundan gedər, taqət dizindən.
Hüseyn, saz tutub, demə özündən,
Sənə də əlini çalar qocalıq.

## YAŞAYA BİLSƏM

Yel döyür, sahilə yan alır qayıq,
Mən də gedəcəyəm, geci-tezi var.
Bizim də qapını açar ayrılıq,
Nə fərqi, harada basdıracaqlar...

Şairi kədərlə yada salmayın,
Namərdəm, bir an da dərdə əyilsəm.
Məni boz torpaqdan xəbər almayın, –
Bir insan qəlbində yaşaya bilsəm.

## HEYİF DEYƏRLƏR

Külək yeri, göyü ayaqlayanda,
Qopan budaqlara heyif deyərlər.
Qapını qış kəsib, qar bağlayanda
Pozulan bahara heyif deyərlər.

Yol var, yoxa çıxar, iz var, silinməz,
Durnalar ötəndə heyif deyərlər.
Zirvədə zirvənin qədri bilinməz,
O gözdən itəndə heyif deyərlər.

Sağını-solunu isidər ocaq,
Qaralıb sönəndə heyif deyərlər.
Yerin görünəcək, Hüseyn, bir vaxt,
O zaman sənə də, heyif deyərlər.

## BİR ARZUM VAR

Bir arzum var, çiçək aça, gül bitə,
Tər yasəmən dostdan-dosta pay ola.
Bulud bata, duman yata, çən ötə,
Günəş ola, ulduz ola, ay ola.

İnsafdırmı yaxşı ata yaxşını,
Yaxşı gərək yaxşı tuta yaxşını,
Bir arzum var, yaxşı tapa yaxşını,
İki könül bir-birinə tay ola.

İnsan oğlu məhəbbətdən güc alar,
El gözündə ucaldıqca ucala.
Bir arzum var, yallı gedə qocalar,
Bir arzum var, balalara toy ola.

## DEYƏRDİM

Qanım damarımda çağlamasaydı,
Zalımlar qanımı içdi, deyərdim.
Həzilər yadları dağlamasaydı,
Fələk Kərəmləri biçdi, deyərdim.

Hay vurub, qıy vurub, ünləməsəydim,
Dərəyə burulub, çənləməsəydim,
Qayada qartalı dinləməsəydim,
Koroğlu dağlardan köçdü, deyərdim.

Ay doğub, hökmündə dayanmasaydı,
Ulduzlar göz açıb, oyanmasaydı,
Günəş üfüqlərdən boylanmasaydı,
Babəkin çırağı keçdi, deyərdim.

Nənəm laylasını oxşamasaydı,
Kim idim, o məni oxşamasaydı.
Oğul atasına oxşamasaydı.
Dünya başdan-başa heçdi, deyərdim.



## ARZU

Milyon könüllərdə bir arzu gülür,
Yaşamaq, yaratmaq, artmaq arzusu.
Yerləri, göyləri basıb bağrına,
Göyləri yerlərə qatmaq arzusu.

Dənizdən-dənizə qol-qanad açmaq,
Aya qonaq gedib, günəşə uçmaq,
Meşəni oxşayıb, çəməni qucmaq,
Ulduzlar elində yatmaq arzusu.

Mənzilə yetəndə tamamlanır iş,
Çəkilər o sürət, o güc, o yeriş.
Bəlkə də zirvədən daha şirinmiş.
Zirvəyə can atıb, çatmaq arzusu.

## SABAHA SAXLAYAQ

Mənim vəzifəmi xəbər alırsan,
Nə rəis, nə katib, nə də nazirəm.
Nə qərar yazanam, nə möhür basan,
Nə şöhrət axtarır, nə şan gəzirəm.

Suların səsidir qulağımdakı,
Xəyalım tərlanlar oylağındadır.
Həyat nəğməsidir, dodağımdakı,
Fikrim gələcəyin sorağındadır.

Yumsa da gözünü göydə ulduzlar,
Mənim öz işığım, öz səhərim var.
Bir vaxt köç təbili çalsa da ruzgar,
Əbədi qalacaq nəğmələrim var.

Qayalı dağları aşıram yenə,
Başqadır torpağın havası, ey dost.
Bu gün ana yurdun çıxaq seyrinə,
Sabaha saxlayaq iclası, ay dost.

## TURALIM

Dünyaya göz açdın Ağstafada,
Belə bir tarix də düşəcək yada.
Ömrün bir ilini qoydun arxada,
Yüz il indən belə yaşar Turalım.

Gül yanaq, gül dodaq, gül üz, gül sinə,
Daha bundan başqa nə deyim sənə.
Baxır heyran-heyran gəlib-gedənə,
Atılıb-düşməyi xoşlar Turalım.

Bir də görürsən ki, dalıb xəyala
İstəyir özünü üstümə sala
Saçları sarıdır, gözləri ala,
Cüyür balasına oxşar Turalım.

Misaldır hərənin öz kökü, zatı
Sevinci, kədəri, toyu, büsatı.
Hüseyn Arif tək duyar həyatı
Yazıb-yaratmağa başlar Turalım.

## İNŞALLAH

İstiyə tablayıb, soyuğa dözüb
Atamı dörd nala sürrəm inşallah.
Havada şığıyıb, dəryada üzüb,
Köksümü irəli gərrəm inşallah.

Tuturam özümü ulduza, aya,
Ayağım altında əsər daş, qaya,
Yağışı, yağmuru salmayıb saya,
Döyüşdən döyüşə girrəm inşallah.

Hüseyn Arifəm qoy deyim sənə,
Qoymaram taleyin ulduzu sönə.
Bir yaş da gətirib yaşım üstünə,
Turalın toyunu görrəm inşallah.



## TORPAĞINDA

*Yuqoslaviya dağlarında pozulmuş yadelli qəbiristanında ağaran tənha başdaşı önündə düşüncələr.*

Ey tənha başdaşı, ey itkin insan,
Vaxtında hər şeyi bil torpağında.
Özgə sevincinə şərik olma sən,
Sevin torpağında, gül torpağında.

Yaşıl xalısını açanda yonca,
Quşlar nəğmə deyir sahil boyunca,
Dərəni, təpəni qoxla doyunca,
Çiçək torpağında, gül torpağında.

Dolan zəhmətinlə, dolan varınla,
Öz yayın, öz qışın, öz baharınla,
Qohum-qardaşınla, tay-tuşlarınla,
Acını, şirini böl torpağında.

Qapılar açıqmı hər yetən üçün?
Milyonlar can verər bir vətən üçün,
Atıldın odlara çöl-çəmən üçün,
Çəmən torpağında, çöl torpağında.

Özüm də bilmirəm nə deyim sənə,
Fikirlər başımda çaxnaşır yenə,
Sumu azlıq edir, "su ver" – deyənə,
Dəniz torpağında, göl torpağında.

İndi nə ananın, nə yananın var,
Başqadır zamanın verdiyi qərar.
İstisən qəbrini tapdamasınlar
Yaşa torpağında, öl torpağında.

## MƏN SÜLHƏ SƏS VERİRƏM

Mən sülhə səs verirəm, –
Milyonlardan biri tək –
Qoy bir daha ordular
Üz-üzə dayanmasın.

Mən sülhə səs verirəm, –
Bombaların səsindən
Beşikdəki körpələr
Hıçqırıb oyanmasın.

Mən sülhə səs verirəm, –
Böyük kəndlər, şəhərlər
Viran olub qalmasın
Tüstü-duman içində.

Mən sülhə səs verirəm, –
Qədim abidələri
Yerlə yeksan etməsin
Toplar bir an içində.

Mən sülhə səs verirəm, –
Ağ saçlı anaların
Gözləri yaşla dolub.
Qəlbi darda qalmasın.

Mən sülhə səs verirəm, –
Cavan qızlar, gəlinlər
Baxıb-baxıb yollara
İntizarda qalmasın.

Mən sülhə səs verirəm, –
Sülhün fırtınalardan
Hər zaman qalib çıxan
Zəfər bayrağı vardır.



## KÖNÜL DEYİR YAŞA HƏLƏ

Səfərdəyəm, səfərimi
Vurmamışam başa hələ.
Arzularım, əməllərim
Toxunmayıb daşa hələ.

Dolanıb kəndi, şəhəri,
Dağlarda açdım səhəri.
Fikrim gəzir üfüqləri
Dönüb qızıl quşa hələ.

İlləri yola salmışam,
Şeir yazıb, saz çalmışam
Ömür deyir: – Qocalmışam,
Könül deyir: – Yaşa hələ.

## QARTAL KİMİ

Vaxt olur, ətrafı bürüyüb səsim
Min sazlı-söhbətli bir mahal kimi.
Vaxt olur, çəkilir eşqim-həvəsim,
Dinib-danışmıram nitqi lal kimi.

Ürək dilə gəlir eli gəzəndə,
Yarın barmaqları teli gəzəndə,
Sim üstdə aşığın əli gəzəndə
Uçuram göylərdə bir xəyal kimi.

Hüseyn, eşq ilə alış, sönmə sən,
Ucal ömrün boyu, ucal, enmə sən.
Qarğatək üç yüz il eşələnmə sən,
Köçsən də dünyadan, köç, qartal kimi!

## GƏRƏK

Həyatı dərindən duymaqdan ötrü
Min oddan, alovdan keçəsən, gərək
Enişli-yoxuşlu bu yollarda sən,
Yaxşını yamandan seçəsən, gərək.

Sevinc də, kədər də səbəbsiz deyil,
Məzəsiz məclis də bir məclis deyil,
Gənclik illərində şərab pis deyil,
Çayı qocalanda içəsən gərək.

Hüseyn, səni də dəyişər zaman,
Yalvarma loğmana üzüləndə can,
Doyub, doymasa da gözün dünyadan
Vaxt tamam olanda köçəsən gərək.

## ƏBƏDİ BORC

Qalxdım birnəfəsə İsmayıllıdan,
Dekabr sazağı yanaqlarımda.
Çılğın dağ çayımı haray qoparan,
Qartallarmı dinən qulaqlarımda?..

Moruq, böyürtkən kolları biz-biz,
Cökələr, vələslər, qarağaclar...
Qaya var, üstünə yeriyən ayı,
Qaya var, ağzını açmış canavar.

Toxunub gözümün tökür yaşını,
Zoğal budağının ucları hərdən.
Sərt, qalın otlardan yapışıram ki,
Ayağım sürüşüb qaçmasın birdən.

Cavanşir qalası adlanan qala,
Dolanıb zirvəyə daş kəmər kimi.
Uzanır kərpici qopmuş hasarlar,
Kəlməsi pozulmuş sətirlər kimi.



Daşlar koğuşunda palıd toxumu,
Tikan da boylanır, kol-kos da qalxır.
Köklər qıvrıldıqca gürzələr kimi,
Bir divar ikiyə bölünüb axır.

Başıma dolanır göylər, elə bil,
Bir anın içində təngiyir nəfəs.
Bir səs qulağıma gəlir uzaqdan,
Babam Cavanşirin səsidir bu səs.

"Oğul, o qalaya bir də nəzər sal,
Nə keçid, nə cığır, nə bir iz qalıb.
Dağılıb qapısı, batıb bacası,
Dumanlar qoynunda kimsəsiz qalıb.

Qala da qocalar vaxtından əvvəl,
Axtaran olmasa, anan olmasa.
Qaya da incələr, daş da üzülər,
İstəyən olmasa, yanan olmasa.

Yaşayın, ay oğul, firavan, azad,
Gəzin ölkələri, elləri bir-bir.
Ancaq unutmayın qalaları da,
Qalalar, səngərlər tariximizdir.

Dağlarda uyuyan sərkərdələrdir,
Bu kərpic hörgülər, daş yadigarlar.
Qoruyan Vətəni qoruyanları,
İndidən qoruyun...
sabah gec olar".

Dinlədim.
Nə qədər güclüdür bu səs.
Tərpənə bilmədim durduğum yerdən,
Fikirlər içində əydim başımı,
Bu qala babamın qarşısında mən.

## TƏK SƏNİ ANDIM

Qulaqda nə qədər dost-tanış səsi,
Yollara qoşulub ömrümün yolu.
Dağlı babaların geniş sinəsi,
Nağılla, dastanla, hikmətlə dolu.

Yarpaqlar sırğalı, çiçəklər tərli,
Yenicə köçünü çəkib çən-çisək.
Baldırğan qoxulu, yarpız ətirli,
Bir külək oyandı, sərin bir külək.

Bir qartal şığıdı baxmadan geri,
Diksinib qatını açdı buludlar.
Bir dağlı qocayla o yay səhəri,
Bir qaya belində tutmuşduq qərar.

Sellər, sular kimi insan xəyalı,
Rahatlıq bilməyir tarix boyunca.
Həyəcan içində süzüb qartalı,
Maraqlı bir söhbət başladı qoca:

– Atamla çox durub-oturmuşam mən,
O nələr danışar, nələr deyərdi.
Axşamlar gözünü çəkməyib göydən,
Uçarda qartalı tərifləyərdi.

Atam deyərdi: – Oğul,
Qəribədir bu quşlar.
Sevimli balasına.
Hər quşun öz dərsi var,
Bala qartal gözünü.
Yuvada açan zaman,
Ana qartal ilk dəfə.
Yapışıb boğazından,
Torpağa çəkər onu.
Yeriş göyərtmək üçün,



Qayalar arasında.
Yürüş öyrətmək üçün,
Ayağını bərkidər,
Qanad-quyruq açmamış.
Yerdə sınar özünü,
Göyə qalxıb uçmamış.
Bir dəfə üfüqlərdən,
Geri dönəndə qartal.
Ona verdilər sual:
– Ən şərəfli, ən çətin,
Söylə, nədir dünyada?
Nəfəsini dərərək.
Balalara verdiyi
İlk dərsi saldı yada.

Boy atır qayanın sərin kölgəsi,
Baxışlar alovla, heyrətlə dolu.
Dağlı babaların geniş sinəsi,
Nağılla, dastanla, hikmətlə dolu.

Sanki doğmalaşdı dumanda da, çən də,
Meşəni düşünüb, çəməni andım.
Zirvədə qartaldan söhbət düşəndə,
Ey ilk müəllimim, tək səni andım!

## SAZ

*(müxəmməs)*

Enişli, yoxuşlu ömrün yolunda,
Sevinclə, kədərlə yüklənmişəm mən.
Qarlı zirvələrin dalıb seyrinə,
Başımı dik tutub diklənmişəm mən.
Məğrur dağ kəliylə ülfət bağlayıb,
Qartalla bir susub, bir dinmişəm mən.
Vaxt olub səsimə çoxu səs verib,
Vaxt olub meydanda təklənmişəm mən.

Saz deyib,
söz deyib yaranmışlardan,
Saz üstə, söz üstə köklənmişəm mən.
Saz, dedim,
söz, dedim
bir günəş kimi
Əngin üfüqlərdən boylanan sazım.
Gecəylə başını yastığa qoyub,
Sabaha göz açıb oyanan sazım.
Haqqın, ədalətin çatıb dadına,
Süngüylə yanaşı dayanan sazım.
İgidlər köksündə nərə çəkərək,
Köhlənlər qanına boyanan sazım.
Zalımla, zülümlə baş-başa gəlib,
Gah alışan sazım, gah yanan sazım.

***

Saz dedim,
söz dedim,
Dədə Qorqudun
Möhtəşəm görkəmi yadıma düşdü.
Gəldi Ozan baba dili nəğməli,
Mübarək qədəmi yadıma düşdü.
O loğman kamallı müdrik insanın,
Davası, məlhəmi yadıma düşdü,
Könül rübabının incə telində
Min zili, min bəmi yadıma düşdü.
Dünyada dünyaya sığa bilməyən,
Sehirli aləmi yadıma düşdü.

***

Saz dedim,
söz dedim,
Dədə Qurbani
Əsrdən-əsrə səslədi məni.
Bir elə ah çəkdi, ahım qurudu,



Saçımı göynətdi, saçımın dəni.
Nədir dağ başında qalaq-qalaq qar,
Ürək həsrət yurdu, möhnət məskəni.
Asanmı bir xalqın dərdini çəkmək,
Saralmış görəndə gülü-gülşəni.
"Əllərin qurusun bədəsil xoryad,
Eləmi dərərlər yaz bənövşəni"

***

Saz dedim,
söz dedim,
Abbası andım
Çən-çiskin ələnir qaşqabağından,
"Nə gülürsən, mənim kimi gülüncə?"
Gör nələr süzülür dil-dodağından.
Tüstümü, dumanmı sovrulan göyə,
At dəymiş qalanın daş torpağından?
Getdi Gülgəz, Pəri, getdi toy-büsat,
Yaralar yarandı yar obrazından,
Abbası gətirdi dar ayağında.
Dərd başından tutub, qəm ayağından.

***

Saz dedim,
söz dedim,
ustadnamələr!..
Aqil babaların aqil sözünü,
Calayıb ömrünü sözün ömrünə.
Yaşayır özləri, duyur özləri,
İnsan yaddaşının xəzinəsində.
İnsan kamalının itməz izləri,
Səfərə çıxanda yadında saxla,
"Gecənin xeyrindən gündüzün şəri",
"Qüvvətli olsan da yoxsulu döymə"
Qasım, Xəstə Qasım, dillər əzbəri.

***

Saz dedim,
söz dedim,
qızışıb Alı
Özünü meydana saldı, nə saldı.
Hay vurub, qıy vurub bir an içində,
"Koroğlu" çağırdı, "Koroğlu" çaldı.
Qılınclar, qalxanlar durdu üz-üzə,
Bu nə vurhavurdu, nə çalhaçaldı.
Səsinin ahəngi dəyişdi birdən,
Könüldən qəribə bir səs ucaldı.
"Aydır, gündür, gəlib gedir ömürdən,
Tələsirik, görən yaza nə qaldı".

***

Saz dedim,
söz dedim,
Hanı Ələsgər?
Bir də ustadımı salamlayım mən.
Gəraylılar şirin, qoşmalar dərin,
Bir də xatırlayım, bir də duyum mən.

Göyçənin qonağa çoxdur hörməti,
Elin şöhrətini elə yayım mən.
Əsədin, Mirzənin zənguləsindən,
Necə uzaq düşüm, necə doyum mən.
Kərəmlər, Dilqəmlər kimdə var desin,
Əlimin dalını yerə qoyum mən.

***

Saz dedim,
söz dedim,
qalxıb zirvəyə
Baxdığım yerlərə mən yenə baxdım.
Keçib asta-asta Kür sahilindən,



Şəmkirdə Şəmkirli Hüseynə baxdım.
Dinlədim heyrətlə keşiş oğlunu,
Ürəkdən "qardaşım" deyənə baxdım.
Bərkdə bir-birinin tutub qolundan,
Dözüm paltarını geyənə baxdım.
Bu günün gözüylə açıb sabahı,
Sabahın gözüylə düşmənə baxdım.
Əyilməz başımı hazıram, əyim,
Dədələr önündə sənət eşqinə,
Hazıram sıxmağa o mərd əlini,
Dəyanət eşqinə, qeyrət eşqinə.
Düzə düz deyilir, əyriyə əyri,
Həqiqət eşqinə, millət eşqinə.
Duz-çörək kəsdikdə təmiz süfrədə,
Məhəbbət, sədaqət, ülfət eşqinə.
Saz dedim,
söz dedim
Azərbaycana
Əbədi ehtiram, hörmət eşqinə!

## DÜNYADA

Mən yox idim,
atam vardı,
Babam vardı
Əcdadlarım yaşayardı
Məndən sonrakı dünyada.

Yenə torpaq ətir saçar,
Ağaclar gül-çiçək açar...
coşan çaylar
daşan sellər
Sal daşları zirvələrdən
Ətəklərdə daşıyardı
Məndən qabaqkı dünyada.
Günəş,

Ulduz,
ay necə var
elə vardı...
Ulu dədəm,
Ulu nənəm
Oddan keçər,
Sudan keçər
Öz əliylə əkər,
biçər
oxuyardı,
oxşayardı.
Məndən qabaqkı dünyada
Özüm cavan,
yaşım qədim
Əcdadlarım dura-dura
necə deyim
Mən yox idim
Məndən qabaqkı dünyada?
Bu günümdən nə danışım,
Bu günün göz önündədir
İlin biri belə gəlir
İlin biri elə gedir
Yaşayıram
Ürəyimdə Arif dağı.
Yox qərarım
Vaxtlı-vaxtsız
Mən köçsəm də bu dünyadan.
Balalarım,
Nəvələrim
yaşayacaq
yaradacaq
Səndən sonrakı dünyada
Günəş yenə həmən günəş,
Həmən ulduz,
Həmən də ay
Həmən çeşmə,
Həmən də çay



Payız yenə həmən payız
Bahar yenə həmən bahar
Sevinc,
kədər
görüş,
qubar
Şən nişanlar, –
şirin toylar
Beş-üç sözüm düşər yada
Hüseyni də,
Arifi də
Birgə anar nəticələr,
kötücələr
El-obada.
Mən bu elə inanıram,
Buna elə inanıram,
Qədir bilən kəslər məni.

Əsrlərin arxasından
haraylayıb
Səslər məni
Fərqi nədir,
qəmi nədir
Mənsiz belə mənimlədir
Məndən sonrakı dünya da.

## HÜSEYN ARİF

Babam ad qazandı, eldə, obada,
"Qaçaq" çağrılsa da, qaçaq olmadı.
Zindanlar küncündə dustaq olsa da,
Ayaqlar altında tapdaq olmadı.

Köçüb ləyaqətlə getdi dünyadan,
Ondan hünər, qeyrət qaldı yadigar.
Həyata gözümü açdığım zaman
Babamın adını mənə qoydular.

Uşaqdım...
Qaçarkən yıxıldım yerə,
Ağrıdan ağlamaq istədim,
bu dəm.
– Gör kimin adını qoyublar sənə,
Hüseyn ağlamaz! –
Bağırdı nənəm.

"Gör kimin adını qoyublar sənə".
Bu səs qulağımda qaldı nə vaxtdan
Bu adla yeriyib düşmən üstünə,
45-ci ildə çıxdım sınaqdan.

Qorudum nənəmin etimadını,
Qorxub əyilmədim faşist önündə
Qorudum babamın igid adını,
Vətən döyüşünün ağır günündə.

Bir oğul itirdim bu yaşımda mən,
Başıma fırlandı aləm bir anda.
Bir oğul itirdim qorxu bilməyən,
Bir oğul itirdim Arif adında.

Ömürlük ayrılıq çətin olurmuş,
Nə yerə sığışdım, nə göyə düşdüm.
Elə bil, yenidən başladı vuruş
Elə bil, yenidən cəbhəyə düşdüm.

Xəbərdar eylədim yaxını, yadı,
Təkcə Hüseyn yox, Hüseyn Arifəm.
Yaşatmaq istərəm bu iki adı,
Baba Hüseynəm, bala Arifəm.

Ümmanın qüdrəti çağlar içimdə,
Dağlara qoşulub, qarlı dağ oldum.
Dünən bir dağ idim dağlar içində,
Bu gün iki zirvə, iki dağ oldum.



Dağa dağ deyilib, dərəyə dərə,
Titrəmə, ey kağız, əsmə, ey qələm.
Mən sevinc cəlladı faşist kədərə
Hüseyn Arifi əyə bilmərəm.

## AXTARIRAM

Ocaq çatdım, odu, közü
Nəfəsilə alışdırıb
Babək ocaq çatan yerdə,
Qara batdım,
Dava günü,
Mərd Cavanşir
dizə qədər qara,
Buza batan yerdə.
Ay üzümə baxıb keçdi,
ulduzlar da axıb keçdi –
Uyumadım, tək dan atdım
Giziroğlu şeşpərinin atan yerdə.
At oynatdım,
Ağzı köhlən ağzı kimi
Qartalların qıy vurduğu
Qoç Koroğlu sınaq üçün
Qıratı oynadan yerdə,
Sevinci qəzəbə qatdım,
Əli qanlı yağıları
Kərəm, Nəbi
Bir-birinə qatan yerdə
Ürək sağlam, ayaq möhkəm.
Öz kökümün üstündəyəm,
Yatanda da yatacağam
Babalarım yatan yerdə.
Açan gündə gözlərimi
Kürdən, Arazdan içmişəm.
Milə, Muğana bələdəm
Azərbaycan torpağını

çəmən-çəmən,
çeşmə-çeşmə
tala-tala
meşə-meşə,
hasar-hasar,
qala-qala tanıyıram.
Dağa, arana bələdəm.
Babadağı keçid-keçid,
Şah dağını bərə-bərə,
Yəhər belli Niyalı da,
gədik-gədik,
ətrafını təpə-təpə,
Dərə-dərə məndən soruş.
Saçlarımın qırovunu
Murovdakı,
Qoşqardakı
boz buluddan
Kəpəzdəki
Murğuzdakı
çəndən soruş.
Soraqdayam, –
Aşıq Alı sorağında,
aylar,
illər yola düşüb.
Atlı-atsız
vaxtlı-vaxtsız
Yönüm sağa, sola düşüb,
Xəbər alsan ünvanımı –
yollardayam:
Bu gün burda, sabah orda,
Yaxınlarda, uzaqlarda
Gah Şəkidə, gah Qaxdayam.
Qubadayam, Şəmkirdəyəm.
Qazaxdayam, Göyçədəyəm,
Qarabağda,
Kəlbəcərdə
axtarıram
Sinədəftər babaları



Sinələrdə axtarıram.
Bir sinədə neçə-neçə
söz izi var,
Calamasaq izi izə
Hafizələr ümmanının dibindəki
o incilər necə çıxar deyin
üzə?
Gəraylılar, divanilər,
Bağlamalar, müxəmməslər...
"Əsrlərin arxasından
gələn səslər..."
Zəncirləmə zəncir səsi
Ehtiraslar, düşüncələr,
Toqquşmalar zənguləsi.
Bu kitablar
biz deyənin
Hələ yüzdən
biri deyil.
Zaman-zaman, nəsil-nəsil
Olmasa da məktəbimiz,
mədrəsəmiz,
Olub yenə öz sazımız,
Öz sözümüz, öz dərsimiz,
Məktəbimiz həyat olub
Uzun müddət bilməsək də
Nədir qələm, nədir kağız
Kəlmələri, nəğmələri
Dodaq-dodaq, ağız-ağız
Gəzən neçə ustad olub.
Xeyli vaxtdır,
Mən onları axtarıram.
Abbasları, Əmrahları,
Qasımları,
Qurbanları axtarıram.
Tarixləri tarix kimi
Yazılmamış şəkli belə
Başdaşına həkk olunub
qazılmamış

Neçə-neçə unudulmuş
sənətkarı,
Qatarından ayrı düşmüş
durna kimi,
Xanasından qopub itən
misradakı
İstəkləri, arzuları,
Valehləri, Musaları,
Novruzları axtarıram.
Kənd-kənd, ev-ev,
insan-insan.
Kim axtarar, axtarmasam,
axtarmasam?
Babaları soraqlayıb,
Sirri dərin bir aləmi
axtarıram.
Nə müddətdir
Dilqəm məni buraxmayır,
Mən Dilqəmi axtarıram.

## ƏBƏDİ BORC

Oğul, müqəddəsdir bu məzar daşı,
Onun da yanında dayanaq bir az.
Qəmdən əyiləndə insanın başı,
Yüz kirpik bir damla yaşı saxlamaz.

Kədər karvanıdır fikrimdən keçən,
İllər yorğunu tək tövşüməkdəyəm.
Yerdə qar görünmür, göy üzündə çən,
Bəs nədən bu qədər üşüməkdəyəm?

Bilirəm indicə soruşacaqsan:
– Ata, bu qəbirdə görən kim yatır?
– Doğma kəndimizdə mənə bir zaman
Dərs deyən sevimli müəllim yatır.



Bir payız axşamı dünyadan köçdü,
O ağrı hələ də yurd salıb canda.
Əlifba kitabı yadıma düşdü,
Hər dəfə mən onu xatırlayanda.

Əlifba kitabı! Yad olan deyil,
Yuxarı başdadır onun yeri də.
Bu sadə kitaba minnətdardır bil,
Dünyanın ən böyük alimləri də.

Yatsa da gözümdə oyaqdır yenə,
Adı yaşayacaq nəğmələrimdə.
Ey müqəddəs insan, borcludur sənə
Mənim ilk şerim də, son əsərim də.

Ötən uşaqlığım geriyə dönsə
Bilirsən, heç nələr edərdim, oğul?!
Ürəyim bir dəstə çiçəyə dönsə,
Bu qəbrə bəxş edib gedərdim, oğul!

## GƏLİB KEÇƏNLƏR

Açılan qönçədir, yaşıl geyən bağ,
Qızaran üfüqdür, doğulan səhər.
Tərtəmiz səmadır, al-əlvan torpaq,
Bir şair qəlbindən gəlib keçənlər.

Boylanan maraldır, sıçrayan əlik,
Göz vuran ulduzdur, nur yayan qəmər,
Şığıyan qartallar, oxuyan kəklik
Bir şair qəlbindən gəlib keçənlər.

Bəzənən Muğandır, ətirlənən Mil,
Səsli-küylü Kürdür, dalğalı Xəzər.
Titrəyən nərgizdir, əsən qərənfil
Bir şair qəlbindən gəlib keçənlər.

Şadlıq mövsümüdür, bayram günüdür,
Çağlayan sevincdir, boğulan kədər,
Vətən torpağının bahar hüsnüdür,
Bir şair qəlbindən gəlib keçənlər.

## GƏRƏK

Həyatı dərindən duymaqdan ötrü,
Min oddan, alovdan keçəsən gərək.
Enişli, yoxuşlu bu yollarda sən
Yaxşını, yamanı seçəsən gərək.

Sevinc də, kədər də səbəbsiz deyil,
Məzəsiz məclis də bir məclis deyil,
Gənclik illərində şərab pis deyil,
Çayı qocalanda içəsən gərək.

Hüseyn, səni də dəyişər zaman,
Yalvarma loğmana üzüləndə can.
Doyub, doymasa da gözün dünyadan,
Vaxt tamam olanda köçəsən gərək.

## YAVAŞ-YAVAŞ

Həftə başa varır, ay gəlib gedir.
İtirir nurunu göz yavaş-yavaş.
Soyuyur məclisim çeşmə başında,
Qaralır ocaqda köz yavaş-yavaş.

Qəm yağır Günəşin solğun telindən,
Daş qopur dağların sərxoş selindən,
Payız yarpağı tək xəzan yelindən,
Dağılır sinəmdən söz yavaş-yavaş.

Fikir ağartmasa saçda dən olmaz,
Can yorğun düşəndə ürək şən olmaz.
Hüseyn, həmişə sən deyən olmaz,
Zamanın hökmünə döz, yavaş-yavaş.



## ƏYİL DEMƏZSƏN

Əyilmərəm, palıdı
Yıxan tufana belə,
Hər dalğası dağ kimi
Qalxan ümmana belə.
Yüz yol başımın üstdə
Qopsa da odlu şimşək,
Yenə də əyilmərəm
İgid babalarımtək,
Yalnız sənin önündə,
Ey mənim böyük xalqım,
Başımı əyərəm mən,
Lakin əminəm buna,
Sən öz şair oğluna
Heç vaxt: – Əyil! – deməzsən.

## VƏTƏN EŞQİ, BİR DƏ NİGAR

Koroğludan söz düşəndə
        deyirlər ki,
Misri qılınc – onun gücü,
Misri qılınc sağ əlində
        alov olub,
        şimşək olub.
Eyvaz gözünün işığı,
        Dəmirçioğlu
        Dəli Həsən
Darda
        köməyi, arxası,
Bəlli Əhməd,
        İsabalı,
        Halaypozan
Dayaq olub, dirək olub.
Deyirlər ki,
        Koroğlunu
        bərkdən, boşdan,

Hər döyüşdən, hər savaşdan
Xilas edən
Qırat olub.
Hücum vaxtı yelə dönüb,
uçmaq vaxtı qanad olub!
Deyirlər ki,
Koroğlunun
hünərinin sirri bir də
Çənlibeldə,
dağlardadır.
Dağlar onun havadarı,
qərargahı,
Dağlar ona hasar olub,
divar olub.
Qaya – səngər,
Çəmən – xalı,
qarlı zirvə – vüqar olub
Deyirlər ki...
Deyirəm ki,
Çətin gündə, ağır anda
Koroğlunu Koroğlutək
tanıdan da,
ucaldan da
Vətən eşqi, torpaq eşqi,
bir də, bir də
Ala gözlü,
şirin sözlü,
düz ilqarlı Nigar olub

## YENİDƏN

Bir dəfə gəlir insan,
Bir dəfə də əbədi
Köçüb gedir dünyadan,
Bu doğru,
lakin mənə



Tamam başqa bir həyat
Həyatda qismət oldu.
Şeirlə nəfəs alıb,
Şeirlə yaşa doldum.
Hər yeni könül açan
Şerimlə təzələnib.
Mən yenidən doğuldum.
Yeni söz – yeni fikir.
Yeni söz – yeni həyat.
Hər könül bulandıran
Şerimlə buza dönüb,
Boğulduqca boğuldum.
Köhnə söz – köhnə qəbir,
Köhnə söz – vaxtsız vəfat.
Bir dəfə gəlir insan
Bir dəfə də əbədi
Köçüb gedir dünyadan
Bu doğru,
lakin mənə
Dəxli yox zərrə qədər.
Bir şerim doğulanda
Doğulub gülmüşəm mən.
Bir şerim boğulanda
Boğulub ölmüşəm mən.
Yüz dəfə karvanımı
Çəkib Yer kürəsindən,
Yüz dəfə bu dünyaya
Yenidən gəlmişəm mən.

## İSTƏRƏM

Yaz fəsli daşları sellər aşanda,
Göllər çalxalanıb, çaylar daşanda,
Yarpaqlar titrəyib pıçıldaşanda,
Səsimi səslərə qatmaq istərəm.

Üfüqlə uzanıb, buludla axıb,
Şəfəqlə qızarıb, şimşəklə çaxıb,
Cüyürlə boylanıb, maralla baxıb,
Ceyranla yorulub yatmaq istərəm.

Əyilən dumanda, sürünən çəndə
Çiçəklər islanıb, güllər çiməndə,
Keçirib gecəni bir göy çəməndə,
Səhərin şehinə batmaq istərəm.

Yığılsın başıma deyib gülənlər,
İsinsin eşqimlə qədir bilənlər,
Bir ömrün ocağı sönənə qədər
Həyatda min ocaq çatmaq istərəm.

## BİR GÜL AÇDI, SARI GÜL

*Yazıçı dostum Gülhüseynə*

Ay bozardı uzaqda –
Közü külə qarışan
bir ocağı düşündüm,
Yarpaq əsdi budaqda –
Əli əldə titrəyən
Bir qonağı düşündüm.
Bir gül açdı,
sarı gül –
Uçub fikrim, xəyalım
Son baharla görüşdü.
Bir ağac yandı,
köçdü,
Yarıqönçə,
yarıgül –
Müşfiq yadıma düşdü.



## SƏHƏR NƏĞMƏSİ

Yenə də hamıdan tez oyanmışam,
Oxşayır ruhumu sübhün nəfəsi,
Gəldim, gəldim, deyir elə bil ilham,
Sinəmdə dil açır söz kəmənçəsi.

Alışır, od tutub yanır dan yeri,
Göydə ulduzların qamaşır gözü.
Qaranlıq kölgələr çəkilir geri,
Sanki təbiətin gülür şən üzü.

Qoynunda boy atdım, sənin, ey Vətən!
Səsimi mehriban ellərə yaydım.
Şairlik eşqinə düşərdimmi mən,
Hüsnünə bu qədər vurulmasaydım?!

## NİGAR RƏFİBƏYLİYƏ

Görüşdün yaralı qardaşınla sən,
Aramaq eşqilə dərman könlümə.
Bir damla alovlu göz yaşınla sən,
Bir çeşmə bağladın yanan könlümə.

Aprelin beşidir...
Günəş, hərarət,
Qışla toqquşuram bahar görəndə,
Qanmaza nə fərqi görüş, ya həsrət.
Sevirəm qananı ağlar görəndə.

Yerdəyəm?
Göydəyəm?
Seçə bilmirəm,
Bilmirəm kimlərin sırasındayam.
Bilirəm sinəmdə yer, göy qədər qəm,
Bilmirəm dünyanın harasındayam.

Yoxluğa tapşırıb varlığımızı,
Yanıb qaralırıq heyrətimizdə.
Görünür belədir yazılan yazı,
Görünür belədir qismətimiz də.

Görünür beləymiş...
                    Görünür belə,
Dünəndə insaf yox, bu gün də aman.
Görünür beləymiş...
                              Görünür hələ,
Əzəlki hökmündə dayanıb zaman.

Bir də nə söylədək gizli aləmi,
Yağış da, yağmur da, od da yaşayır.
Ömür var, torpağın üstdə gül kimi,
Ömür var, torpağın altda yaşayır.

Küçədə aprelin ılıq günəşi,
Tələsiyən də var, tələsməyən də.
Baharın əvvəli, aprelin beşi,
Ayaq saxladınız,
                    dayandım mən də.

Ayaq saxladınız, saxladı ürək,
Dayandım ürəyim dayanan yerdə.
İstəkli ana tək, doğma bacı tək,
Halıma yandınız, alışdım bir də.

Alışdım, yaxşı ki, alışır insan,
Alışmaq sərinlik gətirir bizə.
Elə ki, insanla danışır insan,
Qışdan yaza çıxır, dərədən düzə.

Ağıllı bir söz də böyük təsəlli,
Doğmasan bu doğma təbiətinlə.
İnsan yarandığın insana bəlli,
Düz andın, düz əhdin, düz söhbətində.

Torpağa, havaya, suya vuruldun,
Dərin inamınla, etiqadınla.



Qadın da, ana da, şair də oldun,
Əslinə yaraşan təmiz adınla.

Doğulduğun diyar dünyanın gözü,
Düşünür Əslini, anır Kərəmi.
Duru duyğuların Göy gölün özü,
Vüqarın Kəpəzin vüqarı kimi.

Dağıtsın buludu, qovsun çiskini,
Aran külələri, dağ küləkləri.
Hüsnüylə bəzəsin söz çələngini,
"Payız çiçəkləri, yaz çiçəkləri".

Ülvi bir sənətə könlünü verdin,
Gecəli-gündüzlü fikrə gedərək.
Vaxtında qılınc da itiləyərdin,
Koroğlu ünvanlı Nigarımız tək.

Nə sirli, sehrli həqiqətdir bu,
Dağları, daşları dindirər, bacım.
Bir ümman söndürə bilməyən odu,
Bir damla göz yaşı söndürə, bacım.

## GÖRDÜM

Göyə baxdım,
    Göyün ala gözlərini
                dolan gördüm.
Yerə baxdım,
    çiçəklərin ləçəyini
                        solan gördüm.
Dağa baxdım,
    İldırımdan zirvəsini
                        talan gördüm.
Düzə baxdım,
    Vaxtsız xəzan zəmisini
                        çalan gördüm.

Çaya baxdım,
O sahildə,
bu sahildə
gözü yolda
qalan gördüm.
Qəlbə baxdım,
Bir dünyalıq
Arzu, ümid,
Ömrə baxdım,
Bir nağıllıq
yalan gördüm.

## QORUYUN MƏNİ

Nə oddan, nə sudan, nə fırtınadan,
Nə vurub-çatandan qoruyun məni.
Nə zəhər dilini işə salandan,
Nə güllə atandan qoruyun məni.

Nə yolundan azıb, izindən çıxan,
Saxta əməllərin yüzündən çıxan.
Nə özgə sözünə özündən çıxan,
Nə ara çatandan qoruyun məni.

Sınadım gücümü daşda, qayada,
Hüseyni zirvələr gətirər yada.
Mən xalqın oğluyam, bircə dünyada,
Xalqını satandan qoruyun məni.

## ÖMÜR ÇEŞMƏSİ

Soyuyar canımın odu bir zaman,
Bu bir həqiqətdir, salıram yada.
O vaxt gözlərimdə sönən çıraqdan,
Bir ulduz alışıb yansın səmada.



Günlər dolandıqca əriyər bədən,
Qaçma arxasınca dəva-dərmanın.
Qolumun gücü də istərəm ki, mən,
Gücünə çevrilsin neçə insanın.

Axsın ürəklərdə qəlbimin səsi,
Sözüm də ellərin sözündə qalsın.
Biz gəlib getsək də, ömür çeşməsi,
Əbədi həyatın özündə qalsın.

## ƏBƏDİ ÜNVAN

Dəyişir ev-eşik, dəyişir otaq,
Görürsən dəyişir mərtəbələr də.
Ünvanlar dəyişdi dəyişdikcə vaxt,
Gah bu şəhərdəsən, gah o şəhərdə.

Dərələr, təpələr çıxmır başımdan,
Varmı zirvələri unutduğum gün?!
Vətən torpağıdır yaranışımdan
Əbədi ünvanı vurğun könlümün.

Son bahar,
yenə də səfər üstəyəm,
Könüldə yüz həvəs, başda yüz fikir.
Gəzməyin qədrini bilən insana,
Yaz da, yay da birdir, payız da birdir.

Ürəkdir sınaqdan çıxaran bizi,
Dağlarda, daşlarda mətinləşirik,
Vətəndən saz tutub, söz deyə-deyə,
Dönüb özümüz də vətənləşirik.

## İNANIRAM-İNANMIRAM

*Osman Sarıvəllinin anadan olmasının*
*60 illiyi münasibətilə*

İnanıram söhbətinə,
Səndə yalan görməmişəm.
İnanıram xilqətinə,
Səndə böhtan görməmişəm.

İnanıram yüz ilə də,
Səndə günah görməmişəm.
Çörəyin də halal, təmiz,
Səndə tamah görməmişəm.

İnanıram: – Kömək! – desəm,
Möhkəm qolun qolumdadır.
Balaların balam kimi
Sağımdadır, solumdadır.

İnansam da hər şeyə mən,
Təkcə yaşa inanmıram.
Baxıb qara saçlarına
Altmışına inanmıram.

## HEÇ VAXT

*Gedərkən bir gözələ tuş oldum,*
*Nə üzün daldalar, nə yaxa bağlar.*
***Qurbani***

Camal gizləməyib heç zaman bacım,
Danışıb dərindən, gülüb dərindən.
Yalnız əzabını, iztirabını
Gizləyib dar gündə özgələrindən.

Yüz düşmən önünə igid qardaşım
Tək çıxıb, meydanda heç əyilməyib.
Bir dost qabağına çaysız, çörəksiz,
Ömründə bir dəfə çıxa bilməyib.



Çadra tanımayıb anam həyatda,
Yolunda nə qədər boran, qar olub.
Dağda at belinə qalxanda, ancaq
Başımın örpəyi buludlar olub.

Çörəyimiz halal, südümüz təmiz,
Alnıaçıq gəzdik ölənə kimi.
Heç vaxt mənim babam qısqanc olmayıb,
Nənəm yaşadıqca bir nənə kimi.

## HƏMİŞƏGÜLƏN

Bir dostumuz vardı, Günəş doğandan
Günəş batanadək gülümsəyərdi.
Hər səhər gözünü açan zamandan
Gecə yatanadək gülümsəyərdi.
Toxdumu?
        Acdımı?
                Tutmazdın xəbər.
Pullumu?
        Pulsuzmu?
        Yox idi bilən.
Gah da arxasınca deyinərdilər:
        – Yamanca arsızdır həmişəgülən.
Bir axşam dayandım, başımın üstdə
Amansız hökmünü verdi ayrılıq.
Güldü, elə güldü axır nəfəsdə,
Bildim ömrü boyu ağlayıb, yazıq.

## AÇILDI

Boylandı dan ulduzu,
Bilmədim dan söküldü,
Yoxsa könül açıldı.
Neçə düyün, neçə bağ,

Neçə müşkül açıldı.
Gün qalxdı yatağından,
Üfüqün aynasında
İpək, gümüşü pərdə,
Qızılı tül açıldı.
Nə hikmətdi bilmədim,
Gecə bir şer yazdım,
Səhər bir gül açıldı.

## SÖYLƏ, YADINDAMI?

Söylə yadındamı o axşam çağı?..
Dinməyən mən oldum, dinən sən oldun.
İlk eşqin ocağı alovlanmamış
Sönməyən mən oldum, sönən sən oldun.

Doymamış sabahın tər nəfəsindən,
Sevdalı quşların təranəsindən,
Sözündən, əhdindən, iradəsindən
Dönməyən mən oldum, dönən sən oldun.

Pozuldu ilqarın, dəyişdi andın.
Torpaqda alışıb, havada yandın.
Axır gözlərinlə görüb inandın
Enməyən mən oldum, enən sən oldun.

## SEÇİLMƏZ

Adam var,
bilmirsən ağdır,
qaradır?
Qaralar yanında
qaradan qara,
Ağlar arasında
ağdan seçilməz.
Adam var, blimirsən səmti haradır?



Yaşıl çəmənə çək –
yaşıla dönsün,
Dağ gördü qaralıb,
dağdan seçilməz.
Adam var bilmirsən
dostdur, düşməndir,
Dost əlinə keçsə
dostdur, düşməndir,
Dost əlinə keçsə
dostundun sənin,
Düşmən qoltuğunda –
Qatı düşmənin.
Adam var,
bilmirsən
harda necədir?
Nə zaman ağlayır,
nə zaman gülür.
Adam var,
bilirsən təbiətindən
nə zaman danışır,
nə zaman susur.
Hardasa vuruşur
mərdi-mərdana,
Hardasa yaşayır,
hardasa ölür.
Of, yenə adam var,
rəngsiz, qoxusuz,
Tikanlar içində
tikanın eyni,
Güllərə qarışsa
güldən seçilməz.
Yanıbmı?
Sönübmü?
Hardan biləsən?
Külünü közündən
ayırmaq olmur,
Axtarsan közünü
küldən seçilməz.

## NEYLƏSİN

Yağışın hökmündən, selin gücündən
Qara oynayanda torpaq neyləsin?
Dağ zirvədən yanar, insan içindən,
Baş sözə baxmasa, ayaq neyləsin?

Gözü ovulmasa bulanmaz bulaq,
Közü dağılmasa qaralmaz ocaq.
Böhtan eşitməsə tutulmaz qulaq,
Kökə qurd düşəndə budaq neyləsin?

Hüseyn dinməzmi könül dinəndə?
Üstünə qəm çöküb, həsrət enəndə.
Minillik dünyanın üzü dönəndə
Həyatda beşgünlük qonaq neyləsin!

## KİMƏM MƏN

Bir binayam, kərpicləri sökülmüş,
Bir çələngəm, çiçəkləri bükülmüş,
Bir ağacam, meyvələri tökülmüş,
Yaranışdan belə bəxti kəməm mən.

Bir çəmənəm sağı, solu saralmış,
Bir zirvəyəm keçidini qar almış,
Bir insanam, yeri, yurdu daralmış,
Dünya boyda möhnətəm mən, qəməm mən.

Bir palıdam, gövdəsindən yarılmış,
Bir qartalam, qanadından vurulmuş.
Bir ürəyəm, şah damarı qırılmış,
İndən belə necə deyim kiməm mən.



## ÜZDÜM ƏLİMİ

Qayalar qanından qızaranda da,
– Yazıq qartal! – deyə qəhərlənmədim.
Təbiət qurudub, bozaranda da,
– Qartal qartaldısa köməşməz! – dedim.

Yarıb buludları keçdi od kimi,
Qorxmadım, zirvədən boylananda o.
– Yazıq qartal! – deyə üzdüm əlimi,
Qarğanı dost bilib, inananda o.

## HEYİF SƏNƏ SƏRİN MEŞƏ, BUZ BULAQ...

*Kür qırağı, Qarayazı, göy çəmən*
*Qoşa palıd,*
*tüstülənən od, ocaq.*
*Saç ağardı, unutmadım sizi mən,*
*Hansı şair bir də sizi yazacaq?..*
***Səməd Vurğun***

Ürəyində torpaq eşqi, su eşqi.
Çaylar kimi axşam-sabah çağladı.
Kim unudar bu ülfəti, bu eşqi,
Gözün güldü,
dilin dastan bağladı.

Qarayazı,
Vaqiflərin ovlağı,
Öz hüsnü var hər çiçəyin, yarpağın.
Nəğmə-nəğmə gəzdi səsi-sorağı,
Qarayazı.
Yaşıl tacı Qazağın.

Neçələri neçə yerdə, diyarda
Dəli Kürün qırağını anardı.
Çöl quşları dəstə-dəstə baharda
Xan çinarın sinəsinə qonardı.

Hələ özüm şahidiyəm nələrin,
Yüz bülbülü bir məkanda görmüşəm.
Ürkək cüyür balasının dalınca
Qızıl quşu şığıyanda görmüşəm.

Ömrüm, günüm burda keçib bir zaman,
Uşaqlığı kim çıxarar yadından?
Göy otları söküləndə qızıl dan
Al şəfəqə boyayanda görmüşəm.

Tanış səslər məskən salıb qulaqda,
Şirin sözlər şerə dönüb varaqda.
Ana dili ötən vaxtı budaqda
Qumruları oyananda görmüşəm.

Nə var, nə yox?
          Xəbər almaq istəsən.
Sal yönünü gözlərinlə gör indi.
Ana Kürdən halı olmaq istəsən,
Dəli deyil,
          yazıqlaşıb Kür indi.

Qarayazı...
          yaraları dərində,
Maral getdi, qırqovullar çəkildi.
Vələslərin, cökələrin yerində
Tala-tala süpürgələr əkildi.

Birmi, beşmi ülgüc dilli baltalar,
Cır armuddan kal meyvələr töküldü.
Camış otlar, öküz otlar, at otlar,
Külək qopdu,
          çal-çəpərlər söküldü.

Od alışdı, tüstü-duman yeridi,
Olan oldu, eşidincə, bilincə.



Nəhəng qovaq öz içindən əridi,
Moruq necə?
          Zoğal necə?
                    Tut necə?

Kötüklərin dodağı yox, dili yox,
Elə bil ki, yerlər, göylər karlaşıb.
Budaqların saçağı yox, teli yox,
Ağaca bax, ağaclar da karlaşıb.

Susuzluqdan quru yanır, yaş yanır
Üzü dönüb payızın da, yayın da.
Meşəbəyi "Jiquli"dən boylanır,
Müdir "qağa" öz cibinin hayında.

## DEYƏR MƏNƏ

Gizləyə bilməzsən yaşı gözdə sən,
Bulud deyər mənə, çən deyər mənə.
Hardasa yağışa, yağmura düşsən
Saçımda üşüyən dən deyər mənə.

Gizli əzabını gizləmə hədər,
Hardasa qəlbini yaxdısa kədər,
Gecə ulduzlardan tutaram xəbər
Gündüzlər hamsını gün deyər mənə.

Yürüşdə selləri, suları yensən,
Zirvəyə qalxaram zirvəyə dönsən.
Harda qanadından vurulub ensən
Sazımda inləyən bəm deyər mənə.

Hüseyn Arifə əyandı nələr,
Hara nur ələnər, hara qar gələr...
Harda üzün gülsə gülüşüm bilər,
Harda qəmə batsan qəm deyər mənə.

## DÖZÜMDÜR MƏNİM

Həyatda nə qədər gözəl oğul, qız,
Hər biri canımdır, gözümdür mənim.
Qızıl yanaqlarda gülən çilçıraq
Qəlbdəki alovum, közümdür mənim.
Onların dilində, dodağındakı
Təbii söhbətim, sözümdür mənim.
Bir nəvə gözünü açsa dünyaya
Baxıram, elə bil, özümdür mənim.
Diləyim qızlara vəfa, etibar
Arzum oğullara dözümdür mənim.

## ZƏLİMXAN YAQUBA

*Mənə inam kimi bax*
*Sinə gərim çətinə.*
***Zəlimxan Yaqub***

Mən sənə inamla baxdım, a dostum,
İnam olan yerdə çətin də asan.
Bu sirli-sehirli həyatda, dostum,
İnamla boy atıb, böyüyür insan.

İnamla baxmışam, inamla, ancaq
Yazdığın əsərlər göz qabağında.
Mümkünmü inamsız zirvələr aşmaq,
Sənət dünyasında, söz ocağında.

Çoxuna tanışsan, çoxuna əziz,
Xəyalım həmişə varaq-varaqdır.
Ana Borçalıdan açılan ilk iz,
Uzaq ölkələrə uzanacaqdır.

Torpaq nə sevincli, torpaq nə dadlı,
Nə şimşək gurlasın, nə külək əssin.
Bir kitab da bağla Borçalı adlı,
Əllərdə dolaşsın, dillərdə gəzsin.



Bir elə nərə çək hər yana yetsin,
"Koroğlu" kökündə telləri dindir.
Yaxın xəbər tutsun, uzaq eşitsin,
O yuva kimindir, o yurd kimindir?

Babalar qoruyub çətin ayaqda,
Bu geniş vətəni, ulu məskəni.
O şanlı, şərəfli kişilər haqda,
Bir dastan gözləyir, bir dastan səni.

Bir oğul meydanda batmasın yasa,
Hünərlə, qeyrətlə o yaşa dolsun.
Əslinə, nəslinə oxşamayırsa,
Ona ana südü qoy haram olsun.

Məramı, məqsədi başqadır ömrün,
Çalış axşam-sabah gurlasın səsin.
Bizim tarix dolu o dünənki gün,
Dünənlə köklənib dünənləşməsin.

Ara tarixləri, ara dərindən,
Bir əlində çıraq, bir əlində şam,
Şairəm, arabir yanılsam da mən,
Mən bu inamımda yanılmamışam.

Basılmaz, alınmaz bir qala kimi,
Yaşa tufanlara sinə gərərək.
Sənə inanmışam, bir bala kimi,
Mən ata Vurğuna inandığım tək.

İnamın şöhrəti ellərə düşdü,
İnam işdə hünər, döyüşdə zəfər.
İnamla dillərdən dillərə düşdü,
İgid Koroğlular, cəsur Kərəmlər.

İnam Babəklərin bükülməz dizi
Xəyalən nələrin seyrinə vardım.
İnamsız ömr edən min qeyrətsizi,
Zibil yeşiyinə töküb atardım.

Əbəs yayılmayıb bu səs, bu soraq,
Ey odlar yurdunun od-alov oğlu.
Haqqa inanmaqdır sənə inanmaq,
Haqqa inanmamaq, rəzalətdi bu.

Çatmaz uzaqlara hər atılan ox,
Hər naşı özünü mahir sanmasın.
Xəsislər də çoxdur, dargözlər də çox,
Bir də inanmayan qoy inanmasın.

Söz yox ilhamına, söz yox təbinə,
Sıxanda əlini inamla sıxdım.
Şair vicdanına, şair qəlbinə,
İnamla vuruldum, inamla baxdım.

## XALQSIZ XALQ ŞAİRLƏRİ

Bir həyat şairi var,
Bir də, vaxt şairləri.
Eldən, gündən xəbərsiz
Saray, taxt şairləri.

Biri haqqa daş atar,
Biri kölgədə yatar,
Kim sevib, kim yaşadar
Bu bədbəxt şairləri.

Biri var, üzdəniraq
Haça dil, hazıryaraq
Qapı, baca, künc, bucaq
Əl-ayaq şairləri.

Hüseyn Arif, nə xəbər
Nə qədərmiş nə qədər
Başsız başa keçənlər
Xalqsız xalq şairləri.



## BİLMƏZ

Qartalı dostları saxlayıb bir an,
Dedilər: – Qəribə gəlhagəldi bu.
Sərçə kitab yazıb kor yapalaqdan,
Bir ayın içində namizəd oldu.

Anqut yarasanı verir qabağa,
Quzular quzğunun keçir dişindən.
Elmlər doktoru sağsağan qağa,
Razıdır qarğanın elmi işindən.

Leylək tərifini yayıb ellərə,
Ördək qaşqaldağın dilində dastan.
Tomlar bağlayıbdır hində çil fərə,
Tarda boz beçənin banlamasından.

Novator cüllütə ağız büzmə sən,
Dil iti, çənə saz, baş ayrı başdı.
Sonralar düşünüb dərk edəcəksən,
O necə dühadı, necə yoldaşdı.

Maraqlı söhbətlər, məzəli sözlər,
Nələr eşitmədik, nələr eşitdik.
Gəlib kafedraya salasan nəzər,
Toyuq professor, qaz akademik.

Gəlir başdan aşır, var başdan aşır,
Buğda ətək-ətək, dən qucaq-qucaq.
Xoruzlar bac verib, bacanaqlaşıb,
Balın gətirəndə baldı bacanaq.

Çağıran qazanır, çalan qazanır,
Dəflər nə dəflərdi, səflər nə səflər.
Kəllələr qızdıqca məclis uzanır,
Şeflər nə şeflərdi, keflər nə keflər...

Aləmdir dovdağın təzə əsəri,
Onu da böyüdüb, qaldıracaqlar.
Sən elə süzürsən tutub göyləri,
Hərənin bir adı, bir rütbəsi var.

Qartal gülümsəyib, söylədi bu dəm,
Uçmaq ilk eşqimdir, son niyyətimdir.
Öz qartal adımı saxlaya bilsəm
Bu mənim ədəbi səadətimdir.

### YAŞAYIRAM

Çək-çöyürlü, kəşməkeşli,
Bir zamanda yaşayıram.
Çəmən solur, bağ qaralır,
Bir xəzanda yaşayıram.

Dincəlməmiş bircə an da,
Babaların odu canda.
Həm Qasımda, həm Qurbanda,
Həm Oranda yaşayıram.

Hüseyn Arif, bu ürək,
Sonsuz arzu, sonsuz dilək.
Qələm yoxsa, yoxam demək,
Mən yazanda yaşayıram.

### MƏNİMDİR

*Şəttar Bəhlulzadənin "Füzuli" tablosu önündə*

Çatılan qaşınla qaşımı çatdın,
Qarşında əyilən qamət mənimdir.
– Oyanmazmı? – deyə kimi oyatdın?
Oyanan dərd mənim möhnət mənimdir.



Bir ah qopdu, göylər qana boyandı,
Bir səs gəldi, dəli çaylar dayandı.
Harayımdan ocaq söndü, su yandı,
Gedən fürsət, gələn həsrət mənimdir.

Atan atdı Hüseynin daşını,
Qəm titrədi, hicran əydi başımı.
Ey Füzuli, sil gözünün yaşını,
Sən ağladın, indi növbə mənimdir.

### BUDAQDAN

Bir uşaq sallanır yaşıl bulaqdan,
Adi uşaq kimi çılğın bəxtəvər.
Bir qoca seyr edir onu qıraqdan,
Adi qoca kimi dalğın, mükəddər.

Yenə qızıl qurub, yenə qızıldan,
Zaman öz hökmündə, havasındadır.
Bir uşaq sallanır yaşıl budaqdan,
Bir qoca uşaqlıq dünyasındadır.

### QORX

Qorxma başın üstə qılınc çəkəndən,
Cürətsiz cürətdən danışanda qorx.
Ömründə fürsəti əldən verməyən,
Kəmfürsət fürsətdən danışanda qorx.

Nə qohuma həmdəm, nə dosta həyan,
Özünü düşünüb, özünü yayan.
Namusu unudub, arı tapdayan,
Qeyrətsiz qeyrətdən danışanda qorx.

Ondakı mənliyə, sifətə bir bax,
Birinə quxruqdur, birinə toxmaq.

Həyatda elindən, günündən iraq,
Kürsüdə millətdən danışanda qorx.

Ay qağa, neyləyək bu vurhavura,
Harda kim yıxıla, harda kim dura.
Oğul dura-dura, qız dura-dura,
Qaç siyasətdən danışanda qorx.

## HƏYATDA ÜRƏKDƏN QOCALIR İNSAN

Bir dəfə yaradıb yaradan bizi,
Bir gedən bir daha qayıdan deyil.
Gəlin əzizləyək bir-birimizi,
Heyif o kəslərə mehriban deyil.

Yaxşını, yamanı dərk et dərindən,
Necə ki, ad batıb, üz qaralmayıb.
İsti nəfəsini istiyə qat sən,
Nə qədər ocaqda köz qaralmayıb.

Bağın bağ, çəmənin çəmən istəyi,
Hər qızıl çiçək də bir qızıl ürək.
Dağda daşa dönmüş dağlı ürəyi,
Daşa da əlini ehtiyatla çək.

Ulu babaları yada salın bir,
Sınaqlardan keçib nəsillərimiz.
Toxunan olmaya qəlbə, yaş gəlir,
Yüzdə də diz çöküb əyilmərik biz.

Bir soyuq bağışla, bir əyri gözlə,
Başına qar-qırov ələnib gedər.
Bir şirin söhbətlə, bir dadlı sözlə,
Candan can ağrısı silinib gedər.



Yaşarıq əbədi qayğıya möhtac,
Sevinclə, fərəhlə ucalır insan.
Torpaqda kökündən quruyur ağac,
Həyatda ürəkdən qocalır insan.

## İNŞALLAH

Gördüyünüz o möhtəşəm qaralar,
Belə qalxıb, belə qalar inşallah!
Zatı qırıq dığaların topu ilə,
Uçan deyil bu qalalar inşallah!

İtirsəm də neçə dostu, sirdaşı,
Tüstü-duman bürüsə də dağ-daşı.
Belə axmaz anaların göz yaşı,
Yasdan çıxar gül balalar inşallah!

Bir vaxtı var baharın da, qışın da,
Üzü gülər torpağın da, daşın da.
Tək deyilik dəliləri başında,
Qoç Koroğlu özün salar inşallah!

Quşlar yenə vədəsində oyanar,
Ceyran, cüyür bərəsində dayanar.
Al-qırmızı şəfəqlərə boyanar,
O meşələr, o talalar inşallah!

Yaman düşdü aralığa qan-qada,
Yandı Laçın, yandı Ağdam arada.
Qarabağ da, Qubadlı da, Şuşada,
Bizim olub, bizim olar, inşallah!

Hüseyn Arif zaman çətin, vaxt ağır,
Sağdan-soldan qar ələnir, qar yağır.
Ruhdan düşmə, əzəlkitək çal-çağır,
Haqq-ədalət zəfər çalar inşallah!

## BİLƏRSƏN

Qayadan atılan qurdun pələngini,
Ləpirindən tanıyıb, üzdən bilərsən.
Qovaqmı,
palıdmı ocaqda yanan,
Ğırıltadan duyub, közdən bilərsən.
Çiçəkmi,
qanqalmı, saralıb köçən.

Dərədən, təpədən, düzdən bilərsən,
Üzündə gözlərin gözəlliyi.
Kirpikdən anlayıb, gözdən bilərsən,
Şair qocalıbmı,
qocalmayıbmı,
Kəlamdan düşünüb, sözdən bilərsən.
Ölüm yaşasa da həyat dayanmır.



## MÜNDƏRİCAT

Hüseyn Arif şerinin cazibəsi .4

### Azərbaycan

Azərbaycan .9
Azərbaycanın .11
Azərbaycanın simfoniyası .13
Qədim .18
Ora vətəndir .19
Vətən deməkdir .20
Salam, a Ceyrançöl! .20
Naxçıvandadır .22
Borçalı .22
Aveyin .23
Kür çayım .24
Durnalı .25
Ağstafanın .25
Necə bilərdim .27

### Oğluma

Getdi .29
Mənimiydi .29
Oğluma .30
Dünya necə boşalıbdır? .31
Arxası getdi .32
İstərdim .32
Bəri .32
Çəkir .33
Kiməm mən .33
Bir dağ kəli yaraladım zirvədə .34
Vaxtsız köçməsin .35
Yox! – dedi .36
Arzularam mən .36

Dedi .....37
Ölümə qurban olum .....37
Dözərdim .....38
Yaşa bir az da... .....39
Dayanmaz .....39
Oğul .....40
Bir qız gördüm, türk qızı .....40
İnandım .....41
Qardaşım Rəfiq Zəkaya .....42
Qaldı .....42
Bir də gəlləm .....44
Saxladı məni .....44
Sən bir dəfə... .....45
İntiqam aldım .....45
Köçməsin .....46
Dönməsin .....46
Elə oldu .....47
Yaşayar .....47
Neyləyəsən .....48
Bu necə dağmış .....48

**Təbiət düşünür**

Təbiət düşünür .....49
Sevin, duyun təbiəti .....50
Ana təbiət .....52
Demir .....54
Meşələr .....54
Bulaq .....55
Bir ovuc torpaq .....55
Bahar nəğməsi .....56
Bənövşələr .....57
Kök və budaq .....58
Zirvədə buz üstdə ölür dağ kəli .....58
Ay dağlar .....59
Görən dağlar mənsiz qəribsəyirmi? .....60
Təbiət gətirir .....60



**Gözəllərə**

Yaraşsın .....62
Nə vecinə .....62
Yük olar .....63
Gözəllərə .....63
Sən dərsə gəlməyəndə .....64
Gözlərəm .....64
Sən mənimlə get .....65
Mən inanmadım .....65
Nə deyim .....66
Yalan olar, bu boyda yox! .....66
Söylə, yadındamı? .....67
Günəşmi odludur, sənmi odlusan .....67
Ləzzət çəkir .....68
Mənim .....68
Soyuq dəyər sənə .....69
Qoymayın .....69
Yoruldum .....70
Dedim, dedi .....70
Olmasın .....71
Bir adətdir şairlərdə sevgilim! .....71
Darıxdım sevgilim, darıxdım yaman .....72
Tapdım-itirdim .....73
Heyifim gəldi .....73
Sənsən .....74
Ləzgi qızı .....74
Elə buna görəmi?.. .....75
Ollam .....76
Biri sənsən, biri mən .....76
Xatırla məni .....77
İnciyərəm mən .....77
Keçib .....78
Biri mənəm, biri kim? .....78
Səni unuda bilmərəm .....79
Arasında .....79
Ay oğul .....80

**Turşməzə şeirlər**

Qartal qanadı ........ 81
Daha yaxşıdır ........ 81
İnanma ........ 82
Min şükür ........ 83
Sən də sus ........ 83
Bu dünya düzəlsə... ........ 84
Xalqsız xalq şairləri ........ 85
Əbədi səadət ........ 85
Həmzə ........ 86
Qoca nazir ........ 87
Alim var... ........ 88
Qartalla söhbət ........ 88
Yorğun vaxtıdır ........ 90
Demirəm-deyirəm! ........ 90
Qocalıq ........ 91
Üzüyola şair ........ 92

**Ümumi şeirlər**

Xalqıma ........ 93
Şairi ........ 93
Tələsmə ........ 94
Yaşaya bilsəm ........ 95
İnsan ........ 95
Deyərlər ........ 95
Ayrılıq ........ 96
Dayanıbdır ........ 96
Vaxtıdır ........ 97
Xəbərsiz ........ 98
Mən qorxardım ........ 98
Dünya fikir dünyasıdır ........ 99
Şairəm ........ 99
Dünyanın ........ 100
Bir də mən ........ 101
Mən olam ........ 101



Unudularmı ........ 102
İnsan ........ 103
İstərəm ........ 103
Ürəkdir ........ 104
Kimi ........ 105
Sığmaz ........ 105
Məni ........ 106
Qazaxda ........ 106
Var mənim ........ 107
Var imiş ........ 108
Bağlıdır ........ 108
Şeir deyilmi ........ 109
Dünyanın ........ 110
Şairiyəm mən ........ 111
Düşünmək, düşünmək istəyirəm mən ........ 111
Yavaş-yavaş ........ 113
Sevirəm ........ 113
Biz ayrı düşəli ........ 114
Tapılmaz ........ 115
Torpağa qoşuldum ........ 115
Sözdə Vurğun, sazda Mirzə ........ 116
Səməd Vurğuna ........ 116
Onillik həsrət ........ 118
Gözəl günlər qabaqdadır ........ 120
Səni düşünəndə ........ 120
Torpaq ........ 122
Anamı xatırladım ........ 123
Analar ........ 123
Ana ........ 124
Qıymasın ........ 124
Sadə adamlara minnətdaram mən ........ 125
Qocalar ........ 126
Meşəbəyi ........ 128
Ay Mirzə dayı! ........ 128
Xalqdan soruş ........ 129
O deyib, elə deyib... ........ 129
Qocalan deyiləm ........ 130

Bədəl olmaram ....130
Tələsirəm ....132
Haram olsun ....132
İstəmirəm ....133
Biri mən ....134
Vaxtıdır ....134
Deyiblər ....135
Eylədi ....135
Deyə-deyə ....136
Qoymayın ....136
Yetişməmiş ....137
Demək olmaz ....137
Özüm də bilmirəm ....137
Axtarar səni ....138
Vədəsində ....139
Qəlbim orda döyünüb, fikrim orda dolanıb ....139
Ağrıma, ürəyim... ....140
Görünməz ....140
Ayrılıq ....141
Saxlaya bilməz ....141
Qəzəl ....142
Yaxşı ki ....142
Çörək ....142
Şeir ....143
Bənzər ....143
Xəbər yox ....144
Bilən də ki... ....144
Aman, ağrı! ....145
Soruş ....145
Babalar ....146
Yaş altmışdır ....147
Qayıt, uşaqlığım ....150
Ay ötən günlərim ....150
Uşaqlıq ....151
Günlər olaydı ....152
O günlər ....153
Dünyanın ....154



Yaxşı ki varmış ....155
Mən nə görəm ....155
Hələ ....156
Durasıyam mən ....156
Şairin ....157
Deyildi ....157
Bəlkə ....158
Ömür bəlkə çatdı, bəlkə çatmadı ....159
Aşıq Ələsgərə ....159
Çatdım, qayıtdım ....161
Taparsan ....161
Varıydı ....162
Yaşayır ....163
Vaxtı getdi... ....164
Qocalıq ....164
Yaşaya bilsəm ....165
Heyif deyərlər ....165
Bir arzum var ....166
Deyərdim ....166
Arzu ....167
Sabaha saxlayaq ....167
Turalım ....168
İnşallah ....168
Torpağında ....169
Mən sülhə səs verirəm ....170
Könül deyir yaşa hələ ....171
Qartal kimi ....171
Gərək ....172
Əbədi borc ....172
Tək səni andım ....174
Saz ....175
Dünyada ....179
Hüseyn Arif ....181
Axtarıram ....183
Əbədi borc ....186
Gəlib keçənlər ....187
Gərək ....188

Yavaş-yavaş ....188
Əyil deməzsən ....189
Vətən eşqi, bir də Nigar ....189
Yenidən ....190
İstərəm ....191
Bir gül açdı, sarı gül ....192
Səhər nəğməsi ....193
Nigar Rəfibəyliyə ....193
Gördüm ....195
Qoruyun məni ....196
Ömür çeşməsi ....196
Əbədi ünvan ....197
İnanıram-inanmıram ....198
Heç vaxt ....198
Həmişəgülən ....199
Açıldı ....199
Söylə, yadındamı? ....200
Seçilməz ....200
Neyləsin ....202
Kiməm mən ....202
Üzdüm əlimi ....203
Heyif sənə sərin meşə ....203
Deyər mənə ....205
Dözümdür mənim ....206
Zəlimxan Yaquba ....206
Xalqsız xalq şairləri ....208
Bilməz ....209
Yaşayıram ....210
Mənimdir ....210
Budaqdan ....211
Qorx ....211
Həyatda ürəkdən qocalır insan ....212
İnşallah ....213
Bilərsən ....214



HÜSEYN ARİF

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

"ŞƏRQ-QƏRB"

BAKI-2004

Buraxılışa məsul: *Əziz Güləliyev*

Texniki redaktor: *Rövşən Ağayev*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Kompyuter səhifələyicisi: *Rəvan Mürsəlov*

Korrektor: *Pərinaz Səmədova*

Yığılmağa verilmişdir 10.06.2004. Çapa imzalanmışdır 15.12.2004.
Formatı 60x90 $^1/_{16}$. Fiziki çap vərəqi 14. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 249.

Kitab "PROMAT" mətbəəsində çap olunmuşdur.